www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 11-12 iyul 2015-ci il Şənbə № 150 (6178) Qiyməti 40 qəpik

**Xəbər**

## Tovuzda dəhşətli qəza; bir ailənin 4 üzvü öldü

yazısı səh.14-də

**Gündəm**

## Qarabağ məsələsi ATƏT-in yeni sənədində - nə dəyişdi?




Azay Quliyevin müəllifi olduğu qətnamə Ermənistanı qarışdırdı; ATƏT PA-nın yekun bəyannaməsi vasitəçilərin Bakıya sırımaq istədiyi öz müqəddəratını təyinetmə prinsipindən həmişəlik imtina imkanı yaradır, ermənilər narahatdır...

yazısı səh.13-də

## Mərkəzi Bank qərar verdi: faizlər azaldıldı

yazısı səh.12-də

## ASAN Xidmətdən qovulan müavin haqda daha bir xəbər

yazısı səh.4-də

## Seçkilərə aylar qaldı - sükut nə zaman pozulacaq?

yazısı səh.6-da

## “Yunanıstan Bakının başqa bir planını da pozmaq istəyir”

yazısı səh.8-də

## Nardaranda Beynəlxalq Qüds Günü aksiyası - İsrail və Ermənistan bayraqları ayaqlar altında

yazısı səh.3-də

## Ekspertdən “İsgəndər” raketləri ilə bağlı həyəcanlı xəbərdarlıq

yazısı səh.11-də

## “Kredit borcuna görə intihar ciddi siqnaldır”

yazısı səh.10-da

## Şeyx prezidentə Ramazan əfvi üçün müraciət edəcəkmi?

yazısı səh.12-də

### Ramazan ayının 24-cü günü

İftar 21.29. İmsaq (azan) 4.52 (QMI)

24-cü günün duası: “İlahi, bu gün Səndən, Səni razı salan əməlləri istəyirəm və Səni qəzəbə gətirən əməllərdən Sənə pənah aparıram. Səndən istəyirəm ki, belə bir gündə məni, Sənə itaət etməyə və günah etməməyə müvəffəq edəsən. Ey, hacəti olanlara səxavət və kərəm edən Allah!”

İftar duası: “Allahım, Sənin rizan üçün oruc tutdum, Sənə inandım, Sənə güvəndim. Sənin ruzinlə iftar açır və Sənə təvəkkül edirəm. Ey bağışlayan Allah, günahlarımı bağışla”.

ALLAH ORUCUNUZU QƏBUL ELƏSİN!

## “Milyarderlər ittifaqı”ndan sonra sıra onlara çatdı

# RUSİYA BAKIDAKI MİLLİ ŞURANI DA MÖHÜRLƏYİR - ÖZƏL

**2013-cü il seçkilərindən bəri rəsmi Bakı ilə Kreml arasında dəyişən çox şeylər var və indi şahmat taxtasında Abbas Abbasova hətta piyada xanasında da yer yoxdur; Rusiya “Milyarderlər ittifaqı”nın uzantısı olan Milli Şuranın da fəaliyyətinin bitməsini istəyir...**



yazısı səh.9-da

# Azərbaycan üzünü Asiyaya çevirir - gözlənilən gəlişmə

Ölkəmizin Şanxay Əməkdaşlıq Təşkilatında müşahidəçi statusu alması xarici siyasi oriyentasiyasında ciddi dəyişiklik demək olacaq; Qərblə münasibətlərin indiki gərgin vaxtında Rusiya və Çinin yanında yer almaq cəhdi nəyə hesablanıb?

yazısı səh.10-da



## Arif Əsgərovun gözətçisi də cangüdənlə gəzir

yazısı səh.4-də



*Şakir Abbasov:*

## “AXCP rəhbərləri küçələrdə şəhid ailələrindən pul alırdılar”

yazısı səh.5-də



*Sülhəddin Əkbər:*

## “Ölkədə yeni siyasi müxalifət ortaya çıxmalıdır”

yazısı səh.5-də

# 11-12 iyul 2015



# Daxili İşlər Nazirliyində kollegiya iclası keçirilib

**Daxili İşlər Nazirliyində (DİN) 2015-ci ilin birinci yarısında cinayətkarlıqla mübarizə, ictimai qaydanın qorunması və ictimai təhlükəsizliyin təmin edilməsi üzrə fəaliyyətin yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş geniş kollegiya iclası keçirilib.**

DİN-in mətbuat xidmətindən verilən məlumata görə, iclası açan daxili işlər naziri, general-polkovnik Ramil Usubov bildirib ki, cari ilin birinci yarısında ölkəmizin ictimai-siyasi həyatı əlamətdar hadisələrlə zəngin olub. Azərbaycan prezidenti İlham Əliyevin rəhbərliyi ilə respublikada davam edən quruculuq işlərinin başlıca təminatlarından olan sabitlik etibarlı qorunaraq daha da möhkəmləndirilib. Şəxsi heyətin dövlətə, anda sədaqəti və fədakar xidməti möhtərəm dövlət başçımız tərəfindən növbəti dəfə yüksək qiymətləndirilib.

Azərbaycan Polisinin peşə bayramı ərəfəsində onun imzaladığı növbəti sərəncamlarla 41 əməkdaş dövlət mükafatları ilə təltif edilib, 3 rəhbər vəzifəli şəxs isə ali xüsusi rütbələrə layiq görülüb. Bütün bunlar polis orqanlarının fəaliyyətinə verilən yüksək qiymətin, göstərilən ali diqqət və qayğının növbəti əyani təzahürüdür.

Ötən ay ölkəmizdə ilk Avropa Oyunlarının keçirildiyini xatırladan nazir prezidentin siyasi iradəsi, qətiyyəti və gərgin əməyi, Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın çox böyük təşkilatçılıq bacarığı və xidmətləri sayəsində respublikamızın, onun bütün dövlət strukturlarının və vətəndaş cəmiyyətinin üzərinə düşən tarixi məsuliyyətin öhdəsindən yüksək səviyyədə gəldiyini məmnunluqla deyib.

Digər hüquq-mühafizə qurumları, güc strukturları ilə birlikdə daxili işlər orqanlarının Oyunlar zamanı asayişin qorunması, təhlükəsizliyin təmin edilməsi üzrə mühüm vəzifələri də layiqincə yerinə yetirdiyini vurğulayan daxili işlər naziri fərqlənən yüzlərlə əməkdaş və hərbi qulluqçu barəsində müxtəlif həvəsləndirmə tədbirinin tətbiq olunduğunu diqqətə çatdırıb, nümunəvi xidmətə, yüksək peşəkarlığa, vətənpərvərliyə və fədakarlığa görə bütün şəxsi heyətə minnətdarlığını bildirib.

Hesabat dövründə cinayətkarlığın dinamikasında və strukturunda müşahidə olunan müsbət təmayüllərin davam etdiyi, kriminogen durumun nəzarətdə saxlanıldığı da qeyd olunub.

Daha sonra nazir müavini, polis general-leytenantı Vilayət Eyvazov cinayətkarlıqla mübarizə və ictimai təhlükəsizliyin təminində əldə olunan nəticələrlə bağlı geniş məruzə edib.

# İkinci qrup əlil olan dənizçi kömək istəyir

**Uzun müddət gəmidə baş mexanik vəzifəsində işləyən Fərəcullayev Əziz Qafar oğlu redaksiyamıza şikayət ərizəsi ilə müraciət edib. Hazırda ikinci qrup əlil olan Ə.Fərəcullayev çalışdığı "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətindən heç bir kompensasiya ala bilmədiyini bildirib:**

"1993-cü ildə gəmidə ikinci və baş mexanik vəzifələrində işləmişəm. 2002-ci ildə şəkər xəstəliyinə tutuldum. Buna baxmayaraq, işimi davam etdirirdim. Lakin xəstəlik getdikcə şiddətlənirdi və onun fəsadları üzündən 2008-ci ildə ayaq barmaqlarım amputasiya edildi. Hazırda ikinci qrup əliləm.

Ayağımda əməliyyat Mərkəzi Dənizçilər Xəstəxanasında baş tutmuşdu. Həm əməliyyat zamanı həm də əməliyyatdan sonrakı müddətdə müalicəmlə bağlı xərcləri özüm qarşılamalı oldum. "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti bu məsələdə mənə heç bir kömək göstərmədi. Halbuki şirkət mənə hətta ev verəcəkləri barədə vədlər vermişdi. Vəziyyətimlə əlaqədar olaraq pensiyaya çıxmışam. Aldığım pensiya pulum isə müalicəmi qarşılamır. Getdicə yerimə qabiliyyətimi itirirəm. Hər keçən gün daha çox müalicə almalıyam. Buna isə maddi imkanım çatmır. Uzun müddət çalışdığım "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" şirkətindən istəyim budur ki, vəziyyətim ilə bağlı mənə köməklik göstərsin".

❑ **Xalidə GƏRAY**

"Elm" tədris mərkəzi
MAGIC LANGUAGES
➔ Ali məktəblər xarici dillər
➔ kompyuter kursları
➔ Magistratura - dövlət qulluğu - məntiq
➔ 1.C. mühasibat - anbar - bank işi
➔ Məktəbə qədər həftədə 5 dəfə
➔ Sürücülük kursları (1 aya 100 AZN)
Ünvan: 1. «Neftçilər» metrosu 40 mert. R.Rüstəmov-44
Tel:/Faks: (012) 421-10-46; 408-44-43;
Mob: (055) 660-60-95; (050)203-55-95
Ünvan: 2. «İnşaatçılar» metrosu 60 metr. «İran» klinikasının yanı
Tel:/Faks: (012) 434-88-28; 408-44-74;
Mob: (055) 660-07-05

# "Kompromis kimi yalnız Azərbaycanın tərkibində Dağlıq Qarabağın statusu məsələsini müzakirə edə bilərik"



**"Dağlıq Qarabağ münaqişəsi ilə bağlı danışıqlar davam etdirilir". APA-nın məlumatına görə, bu sözləri xarici işlər naziri Elmar Məmmədyarov deyib. Nazirin sözlərinə görə, Azərbaycanın münaqişənin həlli ilə bağlı mövqeyi bəllidir:**

"Biz kompromis kimi yalnız Azərbaycanın tərkibində Dağlıq Qarabağın statusu məsələsini müzakirə edə bilərik. Azərbaycanın mövqeyi çox konstruktivdir. O baxımdan ki, bütün ordu kənarda qalsın, insanlar geri qayıtsın, yollar açılsın və biz bütün əlaqələri bərpa edək. Bütün yolların, kommunikasiyaların açılması imkan verəcək ki, regionda addım-addım, normal şəkildə əlaqələrimizi quraq. Hamı bilir ki, danışıqlar bunun əsasında aparılır. Həm həmsədrlər, həm də Azərbaycan tərəfi bu istiqamətdə addımlar atır. Qalır Ermənistanın da bunu qəbul etməsi... Gec-tez bu da olacaq. Mən heç şübhə etmirəm".



# Abituriyentlərin nəzərinə...

**Tələbə Qəbulu üzrə Dövlət Komissiyası (TQDK) iyulun 14-də I və IV ixtisas qruplarının abituriyentləri (cari ilin məzunları ) üçün qəbul imtahanı keçirəcək. ANS PRESS-in komissiyanın mətbuat xidmətinə istinadən verdiyi məlumata görə, imtahan respublikanın 11 şəhərində - Bakı, Naxçıvan, Gəncə, Sumqayıt, Mingəçevir, Şəki, Ağcabədi, Göyçay, Şirvan, Lənkəran və Xaçmaz şəhərlərində ümumilikdə 47 binada aparılacaq. Bütün binalarda eyni vaxtda - saat 11:00-da başlanacaq imtahan 3 saat davam edəcək.**

İmtahan gedişini işıqlandırmaq üçün 60-dək KİV nümayəndəsi TQDK-da akkreditasiyadan keçib. Bu imtahanda iştirak etmək üçün ərizə vermiş abituriyentlər iyulun 7-dən etibarən TQDK-nın internet saytına daxil olaraq "İmtahana buraxılış vərəqəsi"ni çap edirlər. Buraxılış vərəqəsi ilə yanaşı onlara "Yaddaş kitabçası"ndan çıxarış da təqdim olunur. Burada abituriyentlərə imtahan prosesi ilə bağlı vacib tövsiyələr, onların əməl etməli olduqları qaydalar və digər zəruri məlumatlar çatdırılır.

Abituriyentlər imtahana özləri ilə 2 sənəd gətirməlidirlər:

- şəxsiyyəti təsdiq edən sənədin əsli;
- "İmtahana buraxılış vərəqəsi".

Göstərilən sənədlərdən biri olmadıqda və ya sənədlər arasında uyğunsuzluq olduqda abituriyent imtahana buraxılmayacaq. İmtahan binasına giriş zamanı üzərində mobil telefon, konspekt və digər yardımçı vasitələr aşkar olunan abituriyentlər barədə akt tərtib olunacaq və imtahan binasına buraxılmayacaqlar.

# Romada Azərbaycana dair yazı müsabiqəsi yekunlaşdı



**Azərbaycan Respublikasının Prezidenti yanında QHT-lərə Dövlət Dəstəyi Şurasının dəstəyi ilə İtaliyanın "Epoke" təşkilatı tərəfindən həyata keçirilən layihə çərçivəsində tələbələr arasında elan olunan məqalə müsabiqəsinin nəticələri ilə bağlı Romada yekun tədbir keçirilib.**

Toplantıda Azərbaycanın İtaliyadakı səfiri Vaqif Sadıqov, Azərbaycan-İtaliya parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Azər Kərimli, İtaliyanın Venesiya və Kataniya Universitetlərinin professor-müəllim heyəti, İtaliya-Azərbaycan cəmiyyətinin rəhbəri xanım Paola Kasaqrande, Roma şəhər meriyasının turizm və beynəlxalq əlaqələr sektoru üzrə məsul şəxsləri cənab Paolo Gintarelli və xanım Simonetta Dominiçi, İtaliya Coğrafiya Cəmiyyətinin nümayəndələri, ümumilikdə 100-ə yaxın şəxs iştirak edib.

Tədbirdə Azərbaycanın mədəniyyəti, iqtisadiyyatı, turizm potensialı, müasir inkişafı barədə məruzələr dinlənilib. Çıxışçılar Azərbaycan-İtaliya münasibətlərinə toxunaraq iki dövlət arasında əlaqələrin uğurlu inkişafından və əməkdaşlığın perespektivlərindən bəhs ediblər. Roma şəhər administrasiyasının rəsmiləri qeyd ediblər ki, bu cür tədbirlərin keçirilməsi İtaliya-Azərbaycan əlaqələrinin inkişafına müsbət töhfələr verir.

"Epoke" təşkilatının rəhbəri cənab Karlo Frappi iştirakçılara layihə çərçivəsində Azərbaycan haqqında elan edilən yazı müsabiqəsi barədə ətraflı məlumat verib. İtaliyanın 10 məşhur universitetinin tələbələri arasında təşkil olunan müsabiqə gənclər tərəfindən maraqla qarşılanıb. Müsabiqəyə təqdim olan yazılardan 3-nün müəllifi mükafata layiq görülüb. Qaliblər belə bir müsabiqənin keçirilməsini dəstəklədiyinə görə Azərbaycan dövlətinə təşəkkürlərini bildiriblər.

Qeyd edək ki, adıçəkilən toplantı ilə bağlı İtaliyanın "L'Opinione" informasiya portalında məlumat yerləşdirilib.

# Xalid Bağırov Vəkillər Kollegiyasından çıxarıldı

**Nizami Rayon Məhkəməsində vəkil Xalid Bağırovun Vəkillər Kollegiyasından xaric olunması barədə kollegiyanın verdiyi iddia üzrə qərar verilib. Bu barədə APA-ya məlumat verən X. Bağırov bildirib ki, məhkəmə onun kollegiyadan xaric olunması barədə qərar qəbul edib.**

X. Bağırov bildirib ki, bir müddət əvvəl Vəkillər Kollegiyası onun kollegiyadan xaric olunması barədə təqdimatla məhkəməyə müraciət edib.

Qeyd edək ki, bundan əvvəl Vəkillər Kollegiyası Rəyasət Heyətinin qərarı ilə X. Bağırovun vəkillik fəaliyyətimə xitam verilib.

X. Bağırovla bağlı Şəki Apelyasiya Məhkəməsinin hakimi Mirbahəddin Hüseynov Vəkillər Kollegiyasına müraciət edib. O, Şəki Apelyasiya Məhkəməsində Tofiq Yaqublu və digərlərinin məhkəməsi keçirilən zaman X. Bağırovun dövlətçilik əleyhinə çıxışlar etdiyini bildirib.

Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!
Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!
Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz və ya email yazmağınız kifayətdir.
Telefon: (012) 434 93 01, 434 01 33



# ATƏT-in Minsk Qrupunun həmsədrləri regiona gəlir

**ATƏT-in Minsk Qrupunun həmsədrləri Ceyms Uorlik (ABŞ), Pyer Andrye (Fransa) və İqor Popov (Rusiya) iyulun 20-21-də regionda səfərdə olacaqlar. Bu barədə jurnalistlərə Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov bildirib.**

Nazir qeyd edib ki, həmsədrlər iyulun 20-də Yerevanda, iyulun 21-də Bakıda olacaqlar.

Səfərdə məqsəd Azərbaycan və Ermənistan prezidentlərinin növbəti görüşünün təşkilidir.-

# "WizzAir"in Bakıya reysləri bərpa ediləcək

**Macarıstanın "WizzAir" aviaşirkəti Budapeşt-Bakı-Budapeşt marşrutu üzrə reysləri tezliklə bərpa edəcək.**

«Trend»in məlumatına əsasən, bunu jurnalistlərə mədəniyyət və turizm naziri Əbülfəs Qarayev deyib.

Onun sözlərinə görə, bu istiqamətdə proses gedir: "Aviaşirkətin reysləri tezliklə bərpa ediləcək. Bundan başqa, "Qatar Airways" şirkəti Azərbaycana reyslər həyata keçirir, "Fly Emirates" şirkəti ilə müqavilə imzalanıb, o, BƏƏ-yə uçuşlar həyata keçirəcək".

# ABŞ separatçı Dağlıq Qarabağ rejiminə pul ayırmayıb

**ABŞ Senatı tərəfindən Dağlıq Qarabağın separatçı rejiminə maliyyə yardımı ayrılması haqqında məlumat yanlışdır.**

Virtualaz.org-un məlumatına görə, bunu jurnalistlərə xarici işlər naziri Elmar Məmmədyarov deyib.

O qeyd edib: "Orada yardım "victims to Nagorno Karabagh conflict" adı ilə ayrılıb. Yəni kim münaqişənin qurbanı olubsa, hamısına yardım olunacaq. Yəni yardım azərbaycanlılara da veriləcək. Ona görə də uydurma xəbərə inanmayın. Yardımın yalnız ermənilərə verilməsi başdan-ayağa yalandır. O sənədi oxusanız görərsiniz ki, ABŞ hökuməti Dağlıq Qarabağ münaqişəsi qurbanlarına yardım edəcək".

YENİ MÜSAVAT
N 150 (6178) 11 iyul 2015



**Yazarımız Tofiq Yaqubluya Azadlıq!**

# Nardaranda Beynəlxalq Qüds Günü aksiyası

## İsrail və Ermənistan bayraqları ayaqlar altında

**İyulun 10-da Nardaranda Qüds Gününə həsr olunan aksiya keçirilib. Bu barədə aksiyanı müşahidə edən musavat.com-un müxbiri xəbər verib. Aksiya saat 18:00-da İmam Hüseyn meydanında başlayıb. Təşkilatçıların verdikləri bilgiyə görə, aksiyanın keçirilməsində məqsəd Beynəlxalq Qüds Günündə Fələstin xalqına dəstək olmaqdır.**

Qeyd edək ki, iyulun 10-da həmçinin Azərbaycan İslam Partiyasının 50-yə yaxın üzvü İsrail səfirliyi qarşısında aksiya keçirib. İsrail əleyhinə şüarlar səsləndirən aksiya iştirakçılarına polis müdaxilə edib. Partiyanın (AİP) sədr əvəzi Elçin Manafov, sədrin müavinləri Akif Heydərli və Vüqar İbayev saxlanılıb.

Nardarandakı aksiya başlamazdan öncə ABŞ, İsrail, Ermənistan bayraqları ayaqlar altına sərilib. Aksiyada İsrail, ABŞ, İŞİD əleyhinə şüarlar səsləndirilib... Aksiyada "Məhv olsun İsrail!", "Mən fələstinliyəm!", "İsrailə ölüm olsun!", "Qarabağ İslam torpağıdır!", "Qüdsə azadlıq!" kimi şüarlar səsləndirilib. Aksiyada çıxış edən kənd ağsaqqalları İsrail rejiminə qarşı Fələstin xalqına dəstək olduqlarını bəyan ediblər. "Qarabağa azadlıq!" şüarı da səsləndirilən aksiyada ABŞ və İsrailə lənət şüarları səsləndirilib. Aksiyada Hacı Hacıağa Nuri, Hacı Atamalı - kəndin axundu, Hacı Noxbala - kəndin axundu, Nardaran Ağsaqqallar Şurasının sədri Kərbəlayı Natiq Kərimov çıxış ediblər. Aksiyanın keçirildiyi meydanda heç bir polis əməkdaşı olmayıb.

**Kərbəlayı Natiq Kərimov çıxışı zamanı deyib:** "Biz hökumətə müraciət edirik ki, həbsdə olan dindarlar və siyasi məhbuslar azadlığa buraxılsın. Biz Azərbaycan bayrağı altında birləşmişik. Müsəlmanlara hörmət etmək lazımdır. Çünki bizlər bu dövləti sevirik, onu biz qoruyacağıq. Bu gün İsrail səfirliyi qarşısında aksiya keçirən İslam Partiyasının 72 üzvü saxlanılıb. Onların 4-ü xanımdır. Bir az olar azadlığa buraxılıblar ".

Aksiyanın sonunda ABŞ, İsrail, Böyük Britaniya, Ermənistan dövlətlərinin bayraqları yandırılıb.









## İran "altılıq"la fikir ayrılığının əsas səbəbini açıqladı



**Əgər Qərb İranla onun atom proqramı ilə bağlı anlaşma imzalamaq istəyirsə, o zaman o, imzalanma günü silah embarqosu da daxil, bütün sanksiyaları aradan qaldırmalıdır.**

Musavat.com-un xarici qaynağa istinadən verdiyi xəbərə görə, bu barədə İranın xarici işlər nazirinin müavini, "altılıq"la danışıqlarda nümayəndə heyətinin başçısı Abbas Arakçi bildirib.

"Hərgah, silah satışına qoyulmuş qadağa öz-özlüyündə Tehran üçün elə ciddi məhdudiyyət deyil, ancaq İranla anlaşma üçün bütün sanksiyalar götürülməlidir" - deyib Arakçi.

İran XİN başçısı müavininin sözlərinə görə, hələ ki 10 mübahisəli məsələdən 7-ni razılaşdırmaq mümkün olmayıb. Onlardan da yalnız iki və ya üçü fundamental vacib məsələlərdir. Yerdə qalanlar - ikinci dərəcəli, "texniki xarakterlidir".

Ümumilikdə tərəflər əsas anlaşma sənədi və əlavə 5 protokolun mətninin təxminən 96%-i haqda razılığa gəliblər.

# Əli Kərimli müavininin istefasına niyə susur...

## Əbülfəz Qurbanlının qəfil istefası ətrafındakı müəmmalar davam edir; partiya rəhbərliyi məsələni ört-basdır etmək istəyir

**AXCP sədrinin müavini Əbülfəz Qurbanlının qəfil istefası ətrafında yaranan söz-söhbətlər günbəgün artmaqdadır. Adətən səbəbi məlum olmayan bu cür gedişlər uzun müddət gündəmdə qalır. Xüsusilə partiya rəhbərliyinin susqun mövqe sərgiləməsi bir çox suallar yaradır.**

Təsadüfi deyil ki, istefadan keçən bu müddət ərzində Əli Kərimli bir dəfə də olsun, müavininin gedişi ilə bağlı açıqlama verməyib. Halbuki bir quruma rəhbərik edən şəxs hər şeyə cavabdehdir. Amma izahat verməli olan Ə.Kərimlinin susqunluğu müəmmaları artırır. İndiyə qədər AXCP rəhbərliyindən yalnız Fuad Qəhrəmanlı istefa ilə bağlı mövqeyini facebookda yazdığı statusla bildirib.

**Statusu olduğu kimi təqdim edirik:** "Əbülfəz Qurbanlının istefasını çox böyük təəssüf hissi ilə qarşılayırıq. AXCP olaraq onun partiyadakı fəaliyyətini yüksək qiymətləndirib, bundan sonrakı fəaliyyətində də uğurlar arzu edirik. Əbülfəz bəyin istefası onun şəxsi qərarıdır və biz bu qərara hörmətlə yanaşırıq. Hər zaman şəxslərin siyasi mövqeyinə, düşüncəsinə ehtiramla yanaşmağa üstünlük verən AXCP siyasi prinsiplərə və mövqelərinə sadiq qalan insanların öz fəaliyyətlərini siyasi partiyalarda və ya ondan kənarda qurmalarından asılı olmayaraq, onlara tolerant, siyasi mədəniyyət və hörmət çərçivəsində yanaşmağın tərəfdarıdır.

Ona görə də bu məsələ ətrafında yersiz müzakirə və uyğun olmayan polemikalar açılmasını məqsədəuyğun hesab etmirik və hər kəsi bu mövzu ətrafında müzakirələri dayandırmağa çağırırıq".

Göründüyü kimi, AXCP rəhbərliyi istefa məsələsinin üstünü örtməyə çalışır. O zaman buradan bir sual meydana çıxar. İstefadan öncəki günlərə qədər partiyanın mövqelərindən çıxış edən, fəal mübarizədən danışan, son mitinqdə aparıcı olan bir funksionerin qəfil istefasına səbəb nə ola bilər? Cəmiyyəti maraqlandıran bir məsələnin üstündən nə üçün demokratik ənənələrdən danışan bir qurum yan keçir?



2013-cü ildə prezident seçkiləri öncəsi keçirilən təbliğat mitinqdən bir gün qabaq istefa verən Əli Kərimlinin müavini Asəf Quliyevin də gedişi bundan heç də fərqlənmirdi. AXCP tərəfdən mitinq hazırlığına rəhbərlik edən, hətta istefasından bir saat əvvələ qədər hazırlıqlarla məşğul olan Asəf bəy birdən-birə nə üçün belə qərar qəbul etdi, hələ də maraqlıdır. Adətən siyasi partiyalardan gedən şəxslər qərarlarını aylar, illər öncədən müəyyən edirlər. Amma nədənsə, qəfil istefalar yalnız AXCP-nin başına gəlir. Cəmiyyətin də bu cür qəfil istefalarda ilk düşüncəsi hər kəsə məlumdur. İnsanlar daha çox məcburiyyət, satılma və şantaj olunma hallarını düşünür. Səbəblər məlum olmayanda isə bu versiyalar daha inandırıcı təsir bağışlayır.

Xüsusilə baş verən proseslərdə AXCP-nin tribunası funksiyasını daşıyan "Azadlıq" qəzetinin məlum hadisə ilə bağlı bir sətir də xəbər verməməsi çox mətləblərdən xəbər verirdi. AXCP-nin bu istefada əsas məqsədi məsələni ört-basdır etmək idi. Amma mümkün olmadı. Bu planlarının baş tutmadığını görən rəhbərlik gündəmi dəyişməyə cəhd etdi. Sosial şəbəkələrdə paylaşdıqları statuslarda qurum daxilində sanki hər şeyin qaydasında getdiyi görkəmi yaradılır.

Ə.Qurbanlının özü də istefası ilə bağlı susur. Mətbuatın suallarına cavab verməyən bu şəxs facebookda yazdığı statuslarda fikri yayındırmağa çalışır. Statuslarından hiss olunur ki, rəhbərliklə üz-üzə gəlməmək üçün dəridən-qabıqdan çıxır. Yalnız işi onun istefasına münasibət bildirən, əleyhinə yazı yazan şəxsləri aşağılamaqla məşğuldur. "Əqidəmi dəyişməmişəm" demək heç nəyi dəyişmir. Minlərlə mübarizə yoldaşlarını tərk etmisənsə, buna başqa don geyindirmək mümkün deyil. Əgər gedişinin səbəblərini gizlədirsənsə, demək, burada da ciddi səbəblər var.

Bir faktı da qeyd edək ki, gənc müavinin istefası məsələsində ən çox adı keçən şəxs AXCP Ali Məclisinin sədri Həsən Kərimov oldu. Əksər versiyalarda onun istefaya səbəb olduğu göstərildi. Amma nədənsə, H.Kərimov adının hallandırılmasına səssiz qaldı. Bu müəmmalı gedişdə mətbuatdan başqa hamı susdu. İndiyə qədər partiyadan gedənləri təhqir edən, aşağılayan AXCP rəhbərliyi Ə.Qurbanlı məsələsində humanistlik nümayiş etdirir. Partiyadan çıxarılan, istefa verən şəxslərə qarşı ən ağır formada gözdənsalma kampaniyası aparan bir qurumun əslində qalsa, indiki mövqeyi çox düşündürücüdür. Bütün bu müəmmaların fonunda heç şübhəsiz ki, həqiqətlər var. O həqiqətlərin də açılacağı gün uzaqda deyil.

**❑ Cavanşir ABBASLI**

YENİ MÜSAVAT
N 150 (6178) 11 iyul 2015



# Xalqa deyəcək sözümüz qalıbsa...

Azər RƏŞİDOĞLU

**Qarşıdan parlament seçkiləri gəlir. Lakin cəmiyyət bir durğunluq içindədir. Siyasi qüvvələr və cəmiyyət üçün sanki seçkilərin heç bir dəxli yoxdur. Bunu anlayışla qarşılamaq da mümkündür. Azərbaycanda indiyə qədər keçirilən seçkilərin demək olar ki, heç biri şəffaf və demokratik kimi səciyyələndirilməyib. Bu amil insanların seçkilərə inamını tam sarsıdıb. Hər dəfə seçkilərdən sonra qısa müddətli etiraz aksiyaları keçirilib. Lakin bunun da qarşısı alınıb.**

Vətəndaşların seçkilərə marağını artırmaq üçün yalnız bir yol qalır - demokratik seçkilərin keçirilməsinə nail olmaq. Lakin Azərbaycan reallığında seçkilər formal xarakter daşıyır və odur ki, səsvermə gününə qədər prosesin taleyi həll olunmuş olur. Bu baxımdan, seçkilərin güclü müşahidə altında keçirilməsi son dərəcə mühümdür. Hətta belə fikirlər də səslənməkdədir ki, Azərbaycanda qarşılıqlı etimad o dərəcədə sarsılıb ki, demokratik bir tərkibdə formalaşdırılan MSK da artıq qarşılıqlı inam doğurmayacaq. Odur ki, vəziyyətdən çıxış yolu kimi Azərbaycanda seçkilərin BMT-nin və yaxud digər nüfuzlu beynəlxalq təşkilatların nəzarəti altında keçirilməsi fikirləri də irəli sürülür. Yaranmış vəziyyətdə kompromis kimi, beynəlxalq təşkilatların seçkilərin bir neçə qat müşahidə altında keçirilməsi ən məqbul variant görünür.

Lakin son xəbərlər daha bədbin proqnozlara əsas verir. Belə ki, nüfuzlu Qərb təşkilatlarının Azərbaycanda payızda keçiriləcək parlament seçkisini izləməyə müşahidəçi göndərməyəcəyi barədə məlumatlar öz təsdiqini tapmaqdadır.

Xatırladaq ki, 2005, 2008 və 2010-cu illərdə Azərbaycanda seçkiləri Avropa Parlamenti izləyib.

Detallara getməsək, kənardan görünən budur ki, Qərb növbəti dəfə Azərbaycandakı seçkiləri qurban verə bilər. Beynəlxalq müşahidəçilər olmadan keçirilən seçkilər o anlama gələ bilər ki, qarşıdan gələn seçkilər azad və ədalətli olmayacaq. Bir sözlə, bu dəfə də seçkidə eyni aqibətin yaşana bilməsi təhlükəsi var. Maraqlı situasiya yaranır. Beynəlxalq təşkilatlar seçkini taleyin hökmünə buraxmaq istəyirlər.

Vətəndaş cəmiyyətinin ən müxtəlif simaları Avropanın ən müxtəlif ünvanlarına üz tutur, nəyisə dəyişməyi arzulayırlar. Rusiya, ABŞ, İran Azərbaycanla bağlı öz oyununu oynamaqda davam edir. Bir sözlə, Azərbaycan xalqının özündən başqa hamı ölkənin taleyinin necə həll ediləcəyini düşünür. Hamı qapı-qapı gəzir, dəstək axtarır. Qapısı döyülməyən tək ünvan xalqın ünvanıdır. Bu gün Azərbaycan əyalətləri əzab içində qıvrılır. Xalqın ümid bəslədiyi prezidentliyə namizədlər isə Avropada təmaslar qurur, hamının dəstəyini qazanmağa cəhd göstərir, yalnız xalqın nə düşündüyünü anlamaq istəmir. Xalq liderini, namizədini öz yanda görmək istəyir. Digər tərəfdən, anlamaq lazımdır ki, cəmiyyətin fəallığı artmasa, xalqın protestlərə başlaması yolları tapılmasa, kənar amillər heç bir müsbət nəticə verməyəcək. Ölkənin növbəti dəfə "qaz diplomatiyası"na qurban olmaması üçün yeganə yol xalqın fəallığının artırılmasından keçir.

Əgər cəmiyyət dəyişiklik arzusunu daha fədakarlıqla nümayiş etdirə bilsə, beynəlxalq dəstək də xalqın yanında olacaq. Müxalifət məhz bu amili nəzərə almalıdır. Əks təqdirdə, hansısa qüdrətli bir ölkənin qüdrətli rəhbərinin bir kəlməsi seçkinin taleyini həll edə bilər.

Nə Qərb, nə Şərq, nə Rusiya, nə İran Azərbaycanın vəziyyətinin müsbətə doğru dəyişməsində bizim özümüz qədər maraqlı ola bilməz. Bu baxımdan, xalqın içinə getməyin zamanı çoxdan çatıb. Əgər xalqa deyəcək sözümüz qalıbsa...

# Arif Əsgərovun gözətçisi də 3-4 cangüdənlə gəzir

## Nəqliyyat nazirinin müavini bütün yaxınlarına mühafizəçi təyin edib

**Bu ilin fevralında nəqliyyat naziri Ziya Məmmədova müavini təyin olunan Arif Əsgərovun yaşam tərzi haqda redaksiyamıza maraqlı məlumatlar daxil olub. Bildirilir ki, A.Əsgərov nazir müavini təyin olunandan sonra cangüdənlərinin sayını artırıb. Onun Londonda yaşayan oğlu Azər Əsgərovdan tutmuş Bakıda yaşayan yaxınlarının hər biri cangüdənlə gəzir.**

Hətta onun mülklərində qarovul çəkənlərə də cangüdənlər ayrılıb. A.Əsgərovun bunu hansı səbəbdən etdiyi bilinmir. Belə ehtimallar var ki, A.Əsgərov nazir müavini təyin olunduqdan sonra ona və yaxınlarına qarşı xoşagəlməyən addımlar atılacağından ehtiyat edir. Görünür, bunun üçün A.Əsgərovun ciddi əsasları var.

Arif Nəriman oğlu Əsgərov 1961-ci il yanvarın 1-də Tovuz rayonunun Qovlar qəsəbəsində anadan olub. 1982-ci ildə Moskva Dəmir Yolu Nəqliyyatı Mühəndisləri İnstitutunun "Dəmir yolunun iqtisadiyyati və idarə edilməsi" ixtisasını bitirib. 1982-1989-cu illərdə Azərbaycan dəmir yolu Bakı maliyyə şöbəsinin müfəttişi, 1989-1993-cü illərdə yolun mühasibat və maliyyə xidməti rəisinin müavini işləyib. 2009-cu ildən isə "Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyətinin sədri vəzifəsinə təyin edilib.



Arif Əsgərov

Avtobioqrafiyasından göründüyü kimi, A.Əsgərov həyatı boyu bizneslə məşğul olmayıb, daim büdcədən əmək haqqı alıb. Amma saysız-hesabsız mal-mülkə sahibdir. Arif Əsgərovun Novxanıda hər birinin dəyəri bir neçə milyon dollarla ölçülən 3 bağ evi, "Vorovski"də 4 villası, şəhərin mərkəzində yeni tikilmiş binalarda 6 evi, Londonda, İstanbulda mülkləri, Azərbaycanın müxtəlif rayonlarında rezidensiyaları var. Amma bu hələ Arif Əsgərovun mülklərinin, sərvətinin tam siyahısı deyil. Və təbii ki, bu qədər varidat qanuni şəkildə qazanılan pullarin hesabına alınmayıb. Belə görünür ki, nazir müavini həmin varidatın varlığından bir çox maraqlı dairələrin xəbərdar olduğunu bilir. Qorxusu da buradandır. Görünür, yaxınlarının və özünün həyatından hansısa narahatlıqları onu çoxsaylı cangüdənləri işə götürməyə sövq edib.

Burada maraqlı bir məqam var - görəsən, həmin saysız cangüdənlərə nazir müavini aylıq bir neçə min manatı haradan alıb verir?

A.Əsgərov hələ ASC sədri olanda adı dəfələrlə korrupsiyada hallanıb. Sonuncu dəfə onun adı 48 milyon manatın mənimsənilməsi işində keçib. Həmin vaxt A.Əsgərovun yaxın qohumu həbs olunaraq istintaqa cəlb edilmişdi. Sonradan isə bu faktın üstü ört-basdır olundu. Beləcə, 48 milyon manat mənimsənildi. A.Əsgərov isə nazir müavini oldu...

❑ E.HÜSEYNOV

# ASAN Xidmətdən qovulan müavin haqda daha bir xəbər

## Rəşad Abbasov məhkəmə sədrinin oğlu imiş

**Prezident İlham Əliyevin sərəncamı ilə vəzifəsindən azad olunan ASAN Xidmət sədrinin birinci müavini Rəşad Abbasovun Şəmkirin keçmiş icra başçısı, sonradan kənd təsərrüfatı nazirinin müavini olmuş Aslan Aslanovla qohumluq əlaqələrinin olduğunu yazmışdıq. Yazı çapa gedəndən sonra R.Abbasovun Sabunçu Rayon Məhkəməsinin sədri İlqar Abbasovun oğlu olması haqda məlumat almışıq.**

Qeyd edək ki, R.Abbasov bu ilin iyununa qədər tutduğu vəzifəyə 2012-ci il sentyabrın 7-də təyin olunmuşdu. Onun bu postdan daha yüksək vəzifələrə göndəriləcəyi gözlənilən idi. Lakin qəfil vətəndaş məmnunluğunun təmin edilməsinə xidmət edən bu qurumdan - ASAN Xidmətdən kiminsə prezidentin sərəncamı ilə vəzifəsindən azad olunması ilk dəfə baş verdi. Bunun səbəbi açıqlanmasa da, bugünlərdə redaksiyamıza daxil olan məlumatda sədr müavininin işdən çıxarılmasının bəzi detalları haqda bilgi vardı. Belə məlum olurdu ki, R.Abbasovun tutduğu vəzifədən azad edilməsi Aslan Aslanovla əlaqəlidir. R.Abbasovun A.Aslanova sənədləşmə məsələlərində qeyri-rəsmi yardım etməsi



Aslan Aslanov

onun tutduğu postla vidalaşmasına gətirib çıxarıb. Qaynağımız R.Abbasovla A.Aslanovun qohumluq əlaqələrinin olduğunu da demişdi. Bildirmişdi ki, R.Abbasov "Azərneftyağ" İstehsalat Birliyinin baş direktoru olmuş mərhum Ramiz Mirzəyevin kürəkənidir.

A.Aslanovun bacısı isə Ramiz Mirzəyevin həyat yoldaşıdır. Onlar yeznə-qayın olsalar da, münasibətləri gərgin olub. R.Mirzəyev dünyasını dəyişənə qədər onların gediş-gəlişləri belə olmayıb. R.Mirzəyev dünyasını dəyişəndən sonra A.Aslanovla onun ailəsi arasında yenidən münasibətlər yaranıb. Hətta 2012-ci ildə R.Abbasovun namizədliyinin irəli sürülməsində A.Aslanovun rolunun olması haqda da məlumat var.

R.Abbasovun A.Aslanova hansı sənədləri düzəltməkdə yardımçı olması haqda məlumat yoxdur. Amma belə ehtimallar var ki, R.Abbasov A.Aslanova 2013-cü ildə tutduğu vəzifədən çıxarılandan sonra özünün və ailə üzvlərinin adına olan əmlakları digər şəxslərin adına rəsmiləşdirməkdə yardım göstərib...

❑ E.HÜSEYNOV

# Ramin Hacılıdan Ukraynada kurs təklifi

**Azərbaycan Avropa Hərəkatının prezidenti Ramin Hacılı sosial şəbəkədə maraqlı bir elan paylaşıb. "Ukraynada 1 aylıq yay düşərgəsi" adlanan elanda 18-35 yaşlı gəncləri sözügedən ölkədə beynəlxalq düşərgəyə dəvət edib. "Yeni Müsavat"a açıqlamasında R.Hacılı düşərgə ilə bağlı detallı bilgi verib. Deyib ki, söhbət Ukraynanın Odessa və Lvov şəhərlərində hər biri 2 həftə olmaqla bir aylıq beynəlxalq düşərgədən gedir:**



Ramin Hacılı

**"1-30 avqust tarixləri arası Yay Düşərgəsinə qatılmaq istəyənlər 18 iyuladək müraciət etməlidirlər. Düşərgə müddətində yaşayışın, gün ərzində 3 dəfə yeməyin, xüsusi gəzintilərin, partylərin xərclərini təşkilatçılar qarşılayır. Düşərgənin sonunda iştirakçılar sertifikatla təmin ediləcəklər".**

Düşərgənin məsrəfləri də iştirakçının öz boynunadır. Arzu edən şəxs qeydiyyat xərcini (500 AZN) və şəxsi yol xərcini (300 AZN) ödəməlidir. İştirak üçünsə xarici pasport və ingilis dilini orta səviyyədə bilmək tələb olunur.

R.Hacılı dedi ki, təlimlər liderlik, şəbəkələşmə sahəsindədir və orada 60 ölkədən nümayəndə iştirak edəcək. Tədbirin təşkilatçısı Avropa Könüllülər Birliyidir.

❑ SEVİNC

YENİ MÜSAVAT
N 150 (6178) 11 iyul 2015

# "Belə davam edərsə, çox çətin olacaq..."

## Sülhəddin Əkbər: "Ölkədə yeni siyasi müxalifət ortaya çıxmalı, müxalifət yenidən formatlanmalıdır"

**Azad Demokratlar Partiyasının (AzDP) sədri Sülhəddin Əkbər musavat.com-un suallarını cavablandırıb.**

**- AzDP parlament seçkilərinə necə hazırlaşır? Ümumiyyətlə, hazırlaşırmı?**

- Çox təəssüf ki, ölkədə yaranmış seçkiqabağı vəziyyət normal deyil və bu, bizim işimizi çox zorlaşdırır. Heç buna seçkiqabağı mühit demək mümkün deyil. Seçkiyə ilin əvvəlindən ciddi şəkildə hazırlaşırdıq. Amma ölkədə seçki ab-havasının olmaması, hakimiyyətin seçki islahatına, demokratik islahatlara yaxın durmaması, belə bir niyyəti nümayiş etdirməməsi hazırlıqlarımızı yarımçıq qoyub. Baxmayaraq ki, bir qrup müxalifət partiyası ilə də dialoq başlamışdı, bu da cəmiyyətdə müəyyən ümidlər yaratmışdı. Amma seçkiyə çox az bir zaman qalmasına baxmayaraq, bu görüşlərdə belə seçki məsələsi, seçki islahatı müzakirə edilmədi. AzDP yeni yaranan bir partiya kimi seçkiyə ciddi şəkildə hazırlaşırdı. Buhazırlıqlara iki ciddi zərbə oldu. Bir tərəfdən, hakimiyyət partiyamızı rəsmi dövlət qeydiyyatına almadı. Artıq AzDP-nin yaradılmasının bir ili tamam olub. Hələ hakimiyyət AzDP-ni qeydə almaq niyyətində deyil, belə bir niyyəti görmürük. Baxmayaraq ki, hakimiyyət Azərbaycan müxalifəti ilə dialoqa getmək və seçki keçirmək istəyir. İkincisi də ölkədə seçki ab-havası yoxdur. Yəni illərdir müxalifət bir yana, ATƏT-in seçki ilə bağlı çoxsaylı tövsiyələri var. Bu tövsiyələrdən heç biri yerinə yetirilməyib. Ölkədə demokratiya və azadlıq sahəsində vəziyyət getdikcə pisləşir. Bu da işimizi çətinləşdirir. Üzvlərimizi seçkidə iştirak etməyə, namizədliyini irəli sürməyə həvəsləndirmək çətinləşir. Mən bunu bir neçə gün əvvəl "Azadlıq-2015" seçki blokunun toplantısında da demişəm, öz narahatlığımı həmkarlarıma çatdırmışam. Belə davam edərsə, çox çətin olacaq.

**- Yəni sizin partiya boykot qərarı verə bilərmi?**

- Hələ ki mən tələsmək istəməzdim. Amma partiyada gedən müzakirələr optimist olmağa imkan vermir. Əgər ölkədə seçkiqabağı şəraitdə hər hansı bir köklü dəyişiklik olmasa, bu, istisna deyil.

**- Ötən parlament seçkiləri ərəfəsində yaradılan İctimai Palatanın bərpası təklif olunur. Siz o təklifi necə qiymətləndirirsiniz?**

- Çox təəssüf ki, Azərbaycan müxalifətinin son illərdəki birlik təcrübəsi əsas deyil. Hər birlik yaradıldıqdan sonra qarşıya qoyduğu məqsədə nail olunmur. Bunun səbəbləri tamamilə başqa söhbətin mövzusudur. Bundan sonra da tərəflər arasında münasibətlərdə əvvəlkindən də nisbətən daha böyük gərginlik yaranır, ziddiyyətlər daha da dərinləşir, qarşılıqlı ittihamlar başlayır. Cəmiyyətdə də həm müxalifət qüvvələrinə, həm demokratik qüvvələrə, bu dəyərlərin daşıyıcılarına, o cümlədən demokratiyaya inam daha da sarsılır. O baxımdan mən çox da optimist deyiləm bu məsələdə. Azərbaycan müxalifətinin birlik məsələsinə də çox ehtiyatlı yanaşıram.

**- Bəs müxalifət daxilində baş verənlərin, sizcə, səbəbi nədir? Ötən il Müsavat Partiyasında baş verənlər indi bir qədər fərqli formada AXCP-də təkrarlanır. İstefalar, qarşılıqlı ittihamlar var. Sizcə, bu ərəfədə müxalifətdə bu cür qopmaların səbəbi nədir?**

- Bunun səbəbləri çoxdur. Burada iki başlıca səbəb var. Birincisi, hakimiyyətin apardığı repressiv siyasətdir. Bu, nəticədə demokratik təsisatların, o cümlədən siyasi müxalif institutların böyük bir hissəsinin sıradan çıxmasına səbəb olur. Meydanda qalanların isə göz qarşısında açıq-aydın şəkildə çox zəifləməsinin şahidi oluruq. Digər tərəfdən, müxalifət partiyaları da yaranmış vəziyyətə adekvat strategiya və taktika hazırlaya bilmədilər. Nəticədə gördüyümüz vəziyyət yarandı. Yəni artıq hakimiyyət və müxalifət avtonom rejimdə çalışırlar, xalq da o cümlədən. Yəni hakimiyyət, müxalifət və xalq hərəsi öz muxtar rejimində çalışır. Qarşılıqlı əlaqə demək olar ki, minimum səviyyəsindədir. Bu anormal bir vəziyyətdir və ölkənin demokratik təsisatlarına çox mənfi təsir göstərən bir vəziyyətdir. Ölkədə yeni siyasi şərait yaranmayınca, yeni siyasi müxalifət ortaya çıxmayınca, müxalifət yenidən formatlanmayınca, mən bu vəziyyətin davam edəcəyini düşünürəm.

**- Bir müddətdir ölkədə iqtidar-müxalifət görüşləri keçirilir. Sizcə, o görüşlərin hansısa nəticəsi olacaqmı?**

- Bu görüşlər başlayanda mən də müsbət qarşılamışdım. Bu görüşlərdə partiya olaraq iştirak etməsək də, vətəndaş olaraq, eyni zamanda partiya sədri, siyasətçi olaraq bu görüşlərə müsbət qiymət verdim. O mənada ki, nəhayət, Azərbaycan iqtidarı da müxalifətlə bu cür məsələləri müzakirə etməyə başladı. Düşünürdüm ki, bu, görüşlər inkişaf edərək hakimiyyət-müxalifət dialoquna, bütövlükdə gələcəkdə daha da genişlənərək hakimiyyətin cəmiyyətlə dialoquna gətirib çıxaracaq. Bu da ölkənin demokratikləşməsinə, demokratik islahatlar aparılması üçün münbit bir ictimai-siyasi zəmin yaradar. Amma çox təəssüf ki, bugörüşlər real bir nəticə vermədi. Real konkret nəticələri yoxdur. Sanki hakimiyyətin özünə beynəlxalq birlik qarşısında öz müxalifəti ilə dialoqa girən, dialoqa hazır olan bir imic yaratmaq üçün aparılan kampaniya kimi lazımdır. Hələlik qənaət bundan ibarətdir. Bundan sonra da, açığı, elə də optimist baxmıram bu görüşlərin gələcəyinə. Bu istiqamətdə hər hansı bir inkişafın olacağına da inanmıram.



**- Son aylar sizin partiyanızda hər hansı bir hərəkətlilik varmı? Məsələn, partiyadan çıxanlar, yeni üzvlər, bu sahədə vəziyyət necədir?**

- Bir çox partiyalardan fərqli olaraq, bizim partiya açıq fəaliyyət göstərir. Çox çətindir fəaliyyət göstərmək. Bir tərəfdən ölkədə onsuz da demokratiya, insan haqları sahəsində vəziyyət pisləşir. Siyasi vəziyyət ağırdır, partiyanı ümumiyyətlə qeydə almırlar. Bunlar bizim işimizə təbii ki, mənfi təsir göstərir. Amma buna baxmayaraq, partiyanın əsas aktiv hissəsi fəaliyyətdədir. Nizamnaməyə uyğun olaraq rəhbər orqanlar fəaliyyətdədirlər. Rayon təşkilatları fəaliyyət göstərirlər. Partiya yeni yaranmış olduğu üçün gedənlər yoxdur. Gedənlərin də olması bir qədər anormal olardı. Yeni üzvlər gəlirlər, amma bu, kütləvi xarakter daşımır. Bu sahədə çətinliklər var.

**- Əgər seçkiyə getmək qərarı versəniz, partiyanın neçə namizədi olacaq? Bu barədə müzakirələr olubmu?**

- Seçkiyə getmək və ya getməmək qərarı mənim şəxsi qərarım ola bilməz. Buna partiyanın məclisi qərar verəcək. Bu, heç də mənim arzum deyil. Mən istərdim ki, Azərbaycan hakimiyyəti ölkədə heç olmasa minimal seçkiqabağı demokratik şərait yaratsın. Heç olmasa, AzDP bir partiya kimi seçkidə iştirak edə bilmək üçün dövlət qeydiyyatına alınsın. Bu, üzvlərimizdə stimul yaradar. İndiki halda, bizim partiyadan hələlik konkret öz fikrini dəqiqləşdirən on namizəd var. Biz bununla bağlı "Azadlıq-2015" seçki blokuna da məlumat vermişik. Amma gələcəkdə bu, artacaq. AzDP-nin seçkidə iştirak edib-etməyəcəyi məsələsi isə açıq qalıb.

❑ **Röya RƏFİYEVA**

# AXCP-dən gedən Qarabağ döyüşçüsü Müsavatda aldığı vəzifədən danışdı

Şakir Abbasov Qarabağ Komissiyasının fəaliyyət proqramını açıqladı; **sabiq müşavir keçmiş partiyasında yaşananlara da münasibət bildirdi:** "AXCP rəhbərləri küçələrdə şəhid ailələrindən pul alırdılar"



**"AXCP-də normal təfəkkürlü rəhbərlik yoxdur. Sıravi üzvlərdən pullar yığıb, yuxarıya ötürürlər. 5-6 nəfər bu pulların hesabına dəbdəbəli həyat yaşamaqla məşğuldur"**

**AXCP sıralarından istefa verərək Müsavata qoşulan Əli Kərimlinin sabiq müşaviri, keçmiş icra başçısı Şakir Abbasova bugünlərdə təmsil olunduğu partiyada yeni vəzifə verilib. O, Müsavat Məclisinin son iclasında yaradılan Qarabağ Komissiyasının sədri seçilib.**

Qarabağ müharibəsinin fəal iştirakçılarından olan Ş.Abbasovla yeni vəzifəsi ilə bağlı söhbət etdik. O, ilk növbədə, Müsavat Məclisinə təşəkkür etdi: "Qarabağda döyüşməyimi nəzərə alıb, məni yekdilliklə sədr seçdilər. 80 nəfər Məclis üzvündən 70-dən yuxarısı mənə səs verdi. Daim Qarabağ mövzusunda bir olmalıyıq. Bilirəm ki, komissiyanın fəaliyyətində hamı birlikdə çalışacaq. Çünki bu, hamımızın dərdidir. Torpaqlarımız əmanətimizdir, əmanətimizə daim sahib çıxıb, gələcək nəsillərə ötürməliyik. Hazırda fəaliyyət proqramını hazırlayıram. İşğal olunan ərazilərimizdən olan üzvlərimizi komissiyanın tərkibində birləşdirəcəyik. Xaricdə yaşayan müsavatçılarla söhbətlərim olub. Onlardan üzv və kömək olmağı xahiş etmişəm. Təəssüflər olsun ki, hazırda Milli Məclis biabırçı vəziyyətdədir. Bir dəfə də olsun ki, Qarabağ məsələsini müzakirə etmirlər. Amma o qədər mənasız məsələlər müzakirə edirlər ki. Ermənistan parlamentində isə daim Qarabağ məsələsi müzakirə olunur. Məqsədim odur ki, Qarabağ unudulmasın. Hamının gündəlik mövzusu olsun. Getdikcə Qarabağ unudulur. Elə gənclərimiz var ki, Qarabağla bağlı sualımıza cavab verə bilmirlər. Dəhşət insanı bürüyür".

**Ş.Abbasov komissiyanın onun təşəbbüsü ilə yaradılmadığını da qeyd etdi:** "Son Məclisdə bir sıra komissiyalar yaradıldı. Orada Qarabağla bağlı da komissiya yaradılmasına ehtiyac duyulduğu vurğulandı. Namizədliyimin veriləcəyini gözləmirdim. Çox adam bu təşəbbüslə çıxış etdi. Nəticədə seçildim".

**Əli Kərimlinin sabiq müşaviri hazırda keçmiş partiyasında yaşanan təlatümə də toxundu:** "AXCP daxilində gedən söz-söhbətlər məni maraqlandırmır. Heç vaxt münasibət bildirməyə çalışmamışam. Amma o partiya belə olmamalı idi. Əslində qalsa, bu prosesləri əvvəldən görürdüm. Daxildə yüz oyunlar gedirdi. Bu partiyanın rəhbər adamları küçələrdə şəhid ailələrindən pul alırdılar. Orada hər şey pul üzərində qurulmuşdu. Bir demokratik fikir söyləmək mümkün deyildi. İnsan deməyə belə çox çətinlik çəkir. 88-ci ildən o təşkilatda olmuşam. Əvvəlki təşkilat qalmamışdı, sonrada. Sonradan gələnlər ancaq pul qazanmaq üçün gəldilər. Bir növ, sanki siyasi bizneslə məşğul olurlar. Pul qazanmaq istəyirsiniz, kənarda meyvə-tərəvəz satın. Amma müstəqilliyi gətirən bir partiyanı bu kökə salmaq olmaz..."

**Şakir Abbasov Müsavat Partiyasını da əski təşkilatı ilə müqayisə edib deyir:** "Dünyada ikinci bir partiya tanımıram ki, 71 bir il həbsdə olsun. Bu, Müsavat Partiyasıdır".

**Ş.Abbasov AXCP müavinlərinin partiyadan getməsinə də münasibət bildirdi:** "Onlar gərək getmək ərəfəsində sözlərini deyərdilər. Çoxu demədi, susdu getdi. "Mən bilmirəm", "açıqlama vermirəm" kimi sözlər yaraşmaz. Adama sual verərlər ki, onda səbəb nədir? Demək, gözü kölgəlisiniz. Rəhbərlik qarşısında dilinizi qısadır. Mən çıxanlanda ona görə səbəblərini dedim. AXCP-də normal təfəkkürlü rəhbərlik yoxdur. Sıravi üzvlərdən pulları yığıb, yuxarıya ötürürlər. 5-6 nəfər bu pulların hesabına dəbdəbəli həyat yaşamaqla məşğuldur. Yığılan pulların bir dəfə də olsun ki, hesabatı verilməyib. Bir qrup adamın məqsədi odur ki, onlar deyən həyata keçsin. Xeyir ola? Hazırda o partiya kənardan idarə olunur. Mən AXCP-nin gələcəyini görmürəm. Ona görə ki, normal rəhbərlik yoxdur. Elçibəyin qurduğu yolu davam etdirə bilmədilər. Bu təşkilat o günə gəldi ki, 2013-cü ildə Azərbaycan xalqının qəlbində olan, etimadını qazanan, on minlərlə üzvü olan, milyonlarla insanın sevgisini qazanmış, müsavatçılıq ideologiyasının daşıyıcısı İsa Qəmbərin namizədliyinin qarşısını almaq üçün Rüstəm İbrahimbəyovu müdafiə etdi. Niyə? Məqsədləri o oldu ki, Müsavatdan kimsə namizəd olmasın. Onların dərdi millət deyil. Mübarizəmi davam etdirəcəm. Demokratik dövlət qurulana qədər. AXCP-ni tərk etməyimə zərrə qədər peşman deyiləm. Üzüm hər yerdə ağdır".

❑ **Cavanşir ABBASLI**

**Bu ilin noyabrında Azərbaycanda keçiriləcək parlament seçkilərinə üç aydan bir qədər artıq müddət qalıb. Amma ölkədəki seçki susqunluğu aradan qalxmır. Sanki Azərbaycan cəmiyyəti üç aydan sonra müqəddəratını həll edəcək gücdə olan seçkini unudub.**

# Seçkilərə aylar qaldı - sükut nə zaman pozulacaq?

## Müxalifət qarşıdan gələn seçkilərə inamsız hazırlaşır; proseslər hakimiyyətin tam nəzarəti altında gedir; liderlər yay fəslini əsas gətirirlər...

Sözsüz ki, seçki abı-havasının yaradılmasında əsas iş ölkəmizin demokratik düşərgəsinin üzərindədir. Amma müxalifət də qarşıdan gələn seçkilərə inamsız formada hazırlaşır. Doğrudur, seçkilərdə birlikdə iştirakla bağlı bəzi blok, birliklər yaradılıb. Amma bu da heç nəyi dəyişmir. İndiki situasiyada hər şeyin iqtidarın xeyrinə işlədiyini demək mümkündür. Bütün proseslər hakimiyyətin tam nəzarəti altında gedir.

Ölkə müxalifətindən seçki susqunluğunun səbəbləri, hansı tərəfin şanslı olması ilə bağlı mövqelər aldıq.

**Müsavat Partiyası Mərkəzi İcra Aparatının rəhbəri Gülağa Aslanlı insanların seçkilərə inamının olmadığını söylədi:** “Hakimiyyət indiyədək Azərbaycanda heç vaxt azad, demokratik seçkilər keçirməyib. İnsanların seçkilərə inamı yoxdur. Ona görə də heç bir partiyada fəal hazırlıq, müzakirə aparılmır. Bu durumda demokratik seçkilərin keçiriləcəyi ümidi çox azdır. Sadəcə, seçki təyinatı olacağı gözlənilir. Amma dünyada proseslər günü-gündən dəyişdiyi üçün insanlar öz talelərini dəyişmək naminə seçkilərdə aktiv iştirak etməlidirlər. Bizlərin də borcu insanlarda bu inamı bərpa etməkdir”.

**Ümid Partiyasının sədri İqbal Ağazadə hesab edir ki, gələn aydan seçki fəallığı artacaq:** “Dairələrimizlə işləyirik. Hər bir namizədimiz bu proseslərdə aktivdir. Susqunluq daha çox yay fəsli ilə bağlıdır. Həm də siyasi partiyalar hələ ki proseslərə tam qoşulmayıblar. Avqustun sonlarından etibarən susqunluq aradan qalxacaq. Proseslər sürətlə gedəcək. Siyasi partiyaların seçkilərə inamsızlığı da bu halı doğuran səbəblərdən biridir. Kim çox işləsə, onun şansı seçkilərdə çox olacaq. Amma müxalifətin şansı daha çox olur. Seçkilərlə bağlı aksiyaların olmamasına səbəb də yay fəslidir. Avropa Oyunları və ondan sonrakı fasilələr öz təsirini göstərdi. Hesab edirəm ki, avqustun sonlarından bu hal aradan qalxacaq. Siyasi fəallıq artacaq”.



**Partiya sədri hazırlıqlardan da söz açdı:** “Hazırda seçkilərlə bağlı hazırlıqlarımız məni qane edir. Biz üç mərhələ müəyyən etmişdik. İndi üçüncü mərhələdəyik. Sonuncu mərhələ avqustun sonunda bitəcək. Bu ayın sonunda üçüncü mərhələnin yarı hissəsinin dəyərləndirməsi olacaq. O dəyərləndirmədən sonra daha dəqiq söz deyəcəyik”.

**Seçkilərlə bağlı yaradılan “Azadlıq-2015" seçki blokunun hazırlıqları sürətlə gedir. Qurumun əksər dairələrdə namizədləri müəyyənləşib. Bloka daxil olan partiyalardan AXP lideri Pənah Hüseyn bildirdi ki, insanların seçkilərə olan marağı azalıb:** ”Seçkilərin əhəmiyyətinin minimuma endirilməsi, vətəndaşların seçkilərə marağının aşağı düşməsi susqunluğu yaradan səbəblərdəndir. Bunun siyasi rejimlə bağlı səbəbləri var. Yay fəslinin olmasının da şübhəsiz ki, təsiri var. Seçki kampaniyasının başlaması ilə hesab edirəm ki, fəallıq artacaq. Təmsil olunduğumuz bloka daxil olan partiyalarda işlər sürətlə gedir. Düşünürəm ki, digər qurumlarda da belədir. Blok vahid seçki monitorinqi yaradıb, seçkiqabağı monitorinq aparmaq niyyətindədir. Seçkilərə təsir imkanları böyük olan bəzi siyasi partiyaların iştirakla bağlı qərarlarının olmaması da susqunluğa səbəbdir. Amma seçki fəallığı əhəmiyyətli şəkildə artacaq. Söhbət avqust-sentyabr aylarından gedir. Normal seçki olsa, iqtidar-müxalifət şanslarını dəyərləndirmək olar. Fakt odur ki, prosesə iqtidar nəzarət edir".

**Pənah Hüseyn blokun hazırlıqları ilə bağlı da danışdı:** “Namizədlərin müəyyən edilməsi, sənədlərin hazırlanması, bəzi dairələrdə vəziyyətin öyrənilməsi kimi işlər aparılır. Biz keçid dövründə yaşayırıq. Blokun müzakirələrində bu öz yerini tapır. Hesab edirik ki, yeni parlamentə keçid yolu kimi iqtidarla siyasi danışıqlar, müəyyən siyasi razılaşmaların olması vacibdir. Demokratik, şəffaf seçkilərin olması üçün bu lazımdır. Bu istiqamətdə təşəbbüslərimiz var və davam edəcək”.

**AXP lideri 12 partiyanın maliyyə hesabatı təqdim etməməsi ilə bağlı dövlət qeydiyyatının ləğv oluna biləcəyi məsələsinə də toxundu:** “Bu qərarın bizə heç bir dəxli yoxdur. Partiyanın maliyyə hesabatını daim vaxtında təqdim etmişik. 12 partiyanın içərisində Azərbaycan Xalq Partiyası yoxdur”.

**ADP sədri Sərdar Cəlaloğlu bildirdi ki, cəmiyyətin düşdüyü durum iqtidarın siyasəti ilə bağlıdır:** “Hakimiyyət istəsə, cəmiyyəti istənilən məsələdə aktivləşdirə bilər. Avropa Oyunları bunu göstərdi. Bu, iqtidarın siyasi iradəsi ilə bağlıdır. Seçki dövlət tədbiridir. Dövlət də bu tədbiri keçirməyi bacarmalıdır. Bunun üçün ”Dövlət proqramı" hazırlanmalıdır. Bunun bizə dəxli yoxdur. Biz vətəndaşların aktivləşdirilməsi prosesində iştirak edirik. Əgər seçki keçirilərsə, proqnoz vermək olar. Əksinə, əvvəlkilər kimi seçki olsa, onda Məzahir Pənahovdan soruşmaq lazımdır. Ondan başqa heç kim bilməz. Partiyamızda seçki hazırlığı getmir. Hazırlıq aktiv bir mübarizə olarsa gedər. Qeyri-ciddi prosesin nəyinə hazırlaşım? Seçkilər formal gedir. Mən də formal olaraq, namizədliyimi verəcəyəm".

❑ **Cavanşir ABBASLI**

# Seçkiqabağı təhlükə altında olan 12 partiya hansılardır?

## Sərdar Cəlaloğlu: “MSK deyir ki, sən get haradansa əlavə maliyyə tap, özünün maliyyə fəaliyyətinin olmaması ilə bağlı arayış gətir”

**Mərkəzi Seçki Komissiyası (MSK) növbəti iclasını keçirib. İclasda 2014-cü ilin illik maliyyə hesabatını təqdim etməyən 12 siyasi partiya ilə bağlı Ədliyyə Nazirliyinə müraciət edilməsi haqda qərar qəbul olunub. Maraqlıdır, seçkiqabağı təhlükə altında qalan o 12 partiya hansılardır?**

Etibarlı mənbədən aldığımız məlumata görə, heç bir partiyanın qeydiyyatı ləğv edilməyəcək. Siyahıda adı olan 12 partiyanın heç bir fəaliyyəti yoxdur. Onlara xəbərdarlıq ediləcək ki, sənədlərini qaydaya salsınlar. Əsas partiyaların heç biri bu siyahıda yoxdur.

Görəsən, siyasi partiyalar bu haqda nə düşünür? Bu proses hakimiyyətin seçkiqabağı ələmə prosesi ola bilərmi?

**Müsavat Partiyasının başqan müavini Elman Fəttah bildirdi ki, heç bir maliyyə vəsaiti ayrılmayan siyasi partiyanın maliyyə hesabatının yoxlanılması absurddur:** “2014-cü ilin oktyabrında verilən qərar maliyyə qanunlarına zidd qərardır. Çünki Mərkəzi Seçki Komissiyası heç bir maliyyə fəaliyyəti göstərməyən bir təşkilatdır. Ənənəvi olaraq partiyalar hesabatlarını Maliyyə Nazirliyinə verir və verməli idi. O vaxt bununla bağlı bir məsələ qoymuşdular. Maliyyə ayrılmayan partiyalardan maliyyə hesabatı tələb etmək isə absurddur. Əksər partiyalar heç bir maliyyə almırlar, amma maliyyə hesabatı tələb olunur. Xüsusilə də xərclərlə bağlı audit hesabatı tələb edirlər. Bu məsələ məhz siyasi partiyaların qeydiyyatı ilə bağlı tələ qurmaq üçün bir oyundur. Bəlkə Müsavat Partiyasının da bu siyahıda adı var. MSK-nın Ədliyyə Nazirliyinə sırf maliyyə məsələsi ilə bağlı müraciət etməsi çox absurddur. Çünki siyasi partiya hər hansısa bir kommersiya təşkilatı deyil ki, hansısa maliyyə hesabatı bəhanəsi ilə Ədliyyə Nazirliyində müzakirəyə çıxarılsın. Bu həm də təkpartiyalılığa doğru keçiddir. Avtoritarizmi möhkəmləndirmə siyasətinin hüquqi elementlərindən biridir”.



Sərdar Cəlaloğlu

**Ümid Partiyasının sədri İqbal Ağazadə partiyaların maliyyə hesabatlarının MSK-ya təqdim edilməsinin əleyhinə olduğunu dedi:** “Bunun nə ilə bağlı olduğunu deyə bilmərəm. Amma hər bir partiya maliyyə hesabatı verməlidir. Partiyalar qanunvericiliyin tələblərinə uyğun olaraq maliyyə hesabatını Mərkəzi Seçki Komissiyasına təqdim etməli deyil. Mən hesabatın Mərkəzi Seçki Komissiyasına təqdim edilməsinin əleyhinə olmuşam. Bunun siyasi tərəflərini də parlamentdə demişəm. Mərkəzi Seçki Komissiyasının belə bir səlahiyyəti olmadığını da bildirmişəm. Qanunvericilikdə göstərilir ki, hökmən maliyyə hesabatı verilməlidir. Əgər hansısa partiyaların maliyyə hesabatlarında qüsurlar varsa, o partiyanın taleyi Ədliyyə Nazirliyinin, sonra isə məhkəmənin verəcəyi qərardan asılıdır”.

**ADP sədri Sərdar Cəlaloğlu heç bir maliyyə gəlirləri olmadığı halda onlardan hesabat tələb edildiyini dedi:** “Əgər siyasi partiyalar konstitusiyada qadağan olunmamış fəaliyyətlə məşğuldurlarsa, onların fəaliyyətindəki digər qüsurlara görə partiyaları ləğv etmək olmaz. Çünki konstitusiya ali hüquqa malikdir. Məsələn, bizim heç bir maliyyə fəaliyyətimiz yoxdur. Dövlət bizi maliyyələşdirmir. Biz heç yerdən ianə almırıq. Partiyamızın üzvləri də könüllülük əsasında xidmət göstərir. Mərkəzi Seçki Komissiyasına heç bir maliyyə əməliyyatımızın olmaması ilə bağlı məlumat göndərmişik. Ədliyyə Nazirliyi də bizə yazıb ki, siz heç bir maliyyə fəaliyyətinizin olmaması ilə bağlı auditdən arayış almalısınız. Audit də bizə deyir ki, 300-500 manat verin ki, sizə audit xidməti göstərək. Mən buna deyirəm ki, mənim heç bir maliyyə imkanım və fəaliyyətim yoxdur. MSK da deyir ki, sən get haradansa əlavə maliyyə tap, haradansa özünün maliyyə fəaliyyətinin olmaması ilə bağlı arayış gətir. Yəni belə bir absurd mövqe nümayiş etdirirlər. Audit maliyyə fəaliyyətinin düzgünlüyünü yoxlamaq üçün bir orqandır. Bu yalnız biznes strukturları üçün özünü doğrulda bilər. Siyasi partiyaların fəaliyyətini ağırlaşdıran, çətinliklər yaradan biznes strukturlarına aid olan məsələləri də siyasi partiyalara tətbiq etmək nə dərəcə düzgündür?! "Siyasi partiyalar haqqında" Qanunda da açıq şəkildə göstərilir ki, partiyanın fəaliyyətini maliyyə orqanlarından başqa heç bir qurum təftiş edə bilməz. MSK isə bizi məcbur edir ki, audit gəlib bizim fəaliyyətimizə müdaxilə eləsin. Axı audit maliyyə orqanı deyil. Əgər mənim maliyyə fəaliyyətimlə bağlı bir şübhən, iddian varsa, Maliyyə Nazirliyinə müraciət elə, onlar öz xətti ilə yoxlasınlar. Mən bilmirəm 12 partiyanın arasında bizim adımız var ya yox, amma bizə belə bir məktub göndəriblər ki, sizin maliyyə hesabatınızda audit yoxlamanızın arayışı yoxdur. Mən də yazmışam ki, mənim maliyyə fəaliyyətim sıfırdır. Bu sıfırın nəyini yoxlayacaq audit?!"

❑ **Günel MANAFLI**

YENİ MÜSAVAT
N 150 (6178) 11 iyul 2015

**Bildiyimiz kimi, hər bir vətəndaş fiziki varlıq olmaqdan əlavə, həm də mənəvi-psixoloji varlıqdır. Azərbaycan Respublikasının şəxsiyyət vəsiqəsini daşıyan hər bir vətəndaş həm də düşüncəsində, könlündə hər hansısa bir dini inancı yaşadır və bunu həyatında praktiki olaraq təcrübədən keçirir. Bir sıra digər dini inancların da yaşandığı ölkəmizdə əksəriyyətin dini konfessiyası İslamdır. Konstitusiyamız hər bir vətəndaşı kiçik yaşlarından özünün məqbul görüdüyü sistematik təhsil, təlim və tərbiyə proseduralından keçirərək, onun cəmiyyətə yararlı, faydalı bir fərd kimi atılmasına çalışır.**



**Rahib İBRAHİMZADƏ**
**Ümid Partiyasının üzvü**

# Ramazan və dövlətin sosial siyasəti

Lakin bütün təhsil prosedurlarından əlavə, vətəndaş həm də dini kitabları oxumaqda, dini ehkamları qəbul edib yerinə yetirməkdə və inancını konstitusiya çərçivəsində qəbul etdiyi kimi yaşamaqda da sərbəstdir. Dövlətin daxili siyasətinin bir sıra vektorların vətəndaşların öyrənib əməl etdiyi dini ehkamlarla üst-üstə düşür.

Bugünlərdə dünya müsəlmanları həmçinin Azərbaycandakı inanclı insanlar İslam təqviminin ən mübarək ayı hesab edilən Ramazan ayının son günlərini yaşamaqdadır. Ramazan ayının vətəndaşlar üzərində təsiri və onun doğurduğu nəticələr müxtəlif dövlət orqanları tərəfindən aylıq hesabatlarda özünü göstərir və əsasən bu göstəricilər müsbət məzmunda olur. Ramazan ayında Allahın müsəlmanlara xüsusi vurğu ilə buyurduğu məsələlər onlarladır. Bu hökmlər sırasında dövlətin sosial müdafiə və hüquq-mühafizə orqanlarının işinə məhsuldar təsir edənlərini sadalamaq istəyirəm:

- Müsəlmanlar bu ayda bir-birinə qarşı xüsusilə şəfqətli, səxavətli olmalıdırlar. Paylaşma və dayanışma özünün ən üst səviyyəsində müşahidə olunmalıdır. Qonşusu ac, xəstə yaxud yoxsul olan müsəlmanlardan xüsusi ayıq-sayıqlıq tələb olunur. Fikrimcə bu hökm vətəndaşlar arasında həmrəyliyin artmasına,geniş vətəndaş ünsiyyət şəbəkəsinin yaranmasına, ictimai vəhdətin, sabitliyin, qarşılıqlı anlaşmanın təməllərinin möhkəmlənməsinə əvəzolunmaz töhfə verir.Bu çağırış həmçinin kəskin qarşılıqlı mövqelərə malik olan dini təriqətlərin və kütlələrin uzlaşma və vəhdət məsələlərinə fikir cəmləməkdə yardımçı olur.Bununla da İslam dininin hökmü cəmiyyətin müxtəlif qruplarının, kütlələrin və təbəqələrin yaxınlaşmasına, ortaq amal, ideya ətrafında sıx birləşməsinə səbəb olur.

- Bu ayda günçıxandan günbatanadək hər cür qidadan imtina etmək, gün ərzində müxtəlif ibadətlərlə, ayinlərlə vaxtını səmərəli keçirmək əmr olunur. Həmçinin iş yerlərində, ictimai yerlərdə, sükan arxasında, küçələrdə, xiyabanlarda qarşılıqlı münasibətlərə, davranışlara, ünsiyyət tərzlərinə son dərəcə diqqətcil yanaşma tələb olunur. Bu isə öz növbəsində ictimai asayiş qorunub saxlanmasına, sabitliyin təmin olunmasına əlavə müsbət təsir göstərmiş olur. Həmçinin digər aylarda spirtli içki qəbul edərək sükan arxasına oturan və bununla da bir neçə vətəndaşın həyatını təhlükə altına atan şəxslər bir çox hallarda ramazan ayında oruclu olduqları üçün alkoqol təsirində olmurlar və bu da avtoqəzaların azalmasına və təhlükəsiz yol hərəkətinin təmin olunmasına zəmin yaradır.

- Oruclu şəxslərin digərləri ilə hər hansı bir anlaşılmazlıq üzündən əlbəyaxa olması orucu batil edir. Bu halda din insanları səbrli və təmkinli davranmağa, anlayış göstərməyə, uzlaşmaya nail olmağa səsləyir. Bu şərt isə dövlətin kriminal hadisələri minimuma endirmə və nəzarətdə saxlama strategiyasına, hüquq-mühafizə orqanlarının işinə müsbət təsir etmiş olur.Vətəndaşları cəmiyyət daxilində birgəyaşayış qaydalarına əməl olunmasına,istənilən növ münaqişənin hüquq müstəvisində həll olunmasına töhfə verən bu hökm özlüyündə çox məhsuldar amildir.

- Hər gün günçıxmamışdan öncə imsak adlanan səhər yeməyi mərasimi müsəlmanlara xüsusi təkidlə tövsiyə olunur. Həmçinin axşam günbatandan sonra iftar süfrəsi ətrafında toplaşma tövsiyə olunur. Bu baxımdan dövlətin mənbəyi, rüşeymi, təməldaşı olan ailələrin daha da möhkəmlənməsinə, ailədaxili münasibətlərin inkişafına, məişət zəminində mövcud olan istənilən anlaşılmazlığın aradan qaldırılmasına, övladlarla valideynlər arasında, yaşlı nəsil arasında münasibətlərin inkişafına səbəb olan bu şərt də ayrılıqda çox təqdirəlayiqdir. Bu həmin ailələrdir ki, cəmiyyətin, dövlətin gələcəyi üçün VƏTƏNDAŞ yetişdirir və icma sıralarına qoşulur.

Yuxarıda sadaladığım hökmlərdən əlavə digər təqdirələyiq ehkamlarda mövcuddur və təcrübə olunur. Sadəcə bir neçəsini qeyd etməklə bir daha onu vurğulamaq istəyirəm ki, İslam dini və onun hökmləri dövlətimizə vətəndaş cəmiyyətini qurmaqda, demokratiyanın sürətli inkişaf etdirilməsində, vətəndaş itaətkarlığının artırılmasında, ədalətli məhkəmə-dövlət strukturlarının formalaşmasında müstəsna töhfələr verir və verəcəkdir. Dövlətin daxili idarəetməsində İslam dininin əvəzolunmaz rolunu olduğunu düşünürəm.

Bütün müsəlmanları, inanclı şəxsləri qarşıdan gələn Ramazan Bayramı münasibətilə təbrik edirəm. Ümid Partiyası olaraq onları əmin etmək istəyirik ki, bizim hakimiyyətimiz illərində vətəndaşlar daha ədalətli və təhlükəsiz dövlətin olacağına ümid edə bilərlər. İslam dininin demokratiya və azadlıq şəraitində inkişaf etməsinin şahidi olacaqlar.

# Göyçayda səhiyyənin acınacaqlı durumu müzakirə edildi

## Ümid Partiyası Göyçay rayon təşkilatı problemləri göstərdi

**9 iyun 2015-ci il tarixdə Ümid Partiyası Göyçay rayon təşkilatının Məclisi növbəti toplantısını keçirib. Toplantıda ölkədə olan ictimai-siyasi vəziyyət, ötən ay görülən işlər, parlament seçkilərinə hazırlığın vəziyyəti, qarşıda duran vəzifələr, habelə onlarla rayon sakininin müraciətinə əsasən rayon səhiyyəsinin acınacaqlı vəziyyəti müzakirə edilib.**

Məclis üzvləri qeyd edib ki, 115.000-dən artıq əhalisi olan Göyçay rayon səhiyyəsinin bugünkü vəziyyəti çox acınacaqlıdır. Belə ki, 2012-ci ilin avqust ayının əvvəlindən təmirə dayanan Göyçay Rayon Mərkəzi Xəstəxanası və xəstəxananın nəzdindəki Konsultativ Poliklinika Şöbəsi 2015-ci ilin ikinci rübü başa çatsa da, üç ilə yaxın bir müddətdir ki, hələ də təmir olunub əhalinin istifadəsinə verilməyib. Xəstəxananın və poliklinika şöbəsinin təmirinin bu qədər müddətə uzanması həm rayon əhalisinin normal tibbi müalicə almasına, həm də tibb işçilərinin işinə ciddi əngəllər törətmişdir. Azərbaycan Respublikasının Səhiyyə nazirinin xüsusi əmri ilə təmirə dayanan rayon xəstəxanası 8 avqust 2012-ci il tarixdə bir günün içində bütün tibbi avadanlıqları xəstəxanada müalicə alan xəstələri ilə birlikdə tələm-tələsik təxminən 1930-cu illərdə tikilib istifadəyə verilmiş, heç bir normal şəraiti olmayan, antisanitariyanın baş alıb getdiyi, sanitar qovşağı bərbad vəziyyətdə olan uşaq xəstəxanasının binasına, poliklinika şöbəsi isə ondan da bərbad vəziyyətdə olan Dəri-zöhrəvi dispanserinə köçürülüb. Keçən üç il müddətində rayonun 200-ə yaxın həkim kontingenti, 500-dən artıq orta ixtisaslı tibb personalı şəraitsizlik və yarımzirzəmi vəziyyətdə olan binada əhaliyə tibbi xidmət göstərmək məcburiyyətində qalıblar. Məhz şəraitsizlik, müasir tibbi avadanlıqların yoxluğu, dərman preparatlarının çatışmaması və antisanitariyanın baş alıb getdiyi bu "xəstəxanada" *(əgər bura xəstəxana demək mümkündürsə)* son üç ildə çoxlu sayda insan dünyasını dəyişib. Köhnə və təmirsiz binada müvəqqəti məskunlaşmış rayon mərkəzi xəstəxanasında vəziyyət o qədər acınacaqlıdır ki, on nəfər cərrah-həkim təxminən 10 kv. metr darısqal otaqda xəstələrə tibbi xidmət göstərmək məcburiyyətindədirlər. Xəstəxanada eyni vaxtda iki nəfərin əməliyyat olunması mümkünsüzdür. Əməliyyatdan sonra xəstələrin palatada yerləşdirilməsində də ciddi problemlər var. Əməliyyat olunan xəstələr digər xəstəlikdən müalicə alan xəstələrlə bir palataya yerləşdirilir ki, bu da onların müalicəsində problemlər yaradır. Bir palataya müxtəlif xəstəliklərdən müalicə alan on nəfərə qədər xəstənin yerləşdirilməsi xəstəxanada tibbi xidmətin aşağı vəziyyətdə olmasından xəbər verir. Rayon xəstəxanasındakı şəraitsizlik və antisanitariya o həddə çatmışdır ki, palataya yerləşdirilən xəstələr yorğan-döşək və digər zəruri ləvazimatları özləri ilə gətirmək məcburiyyətində qalırlar. Xəstəxanada cəmisi bir sanitar qovşağı vardır ki, o da təmirsiz, bərbad vəziyyətdədir. Xəstəxananın poliklinika şöbəsində əhaliyə göstərilən tibbi xidmət daha acınacaqlı vəziyyətdədir. Belə ki, təkcə xəstəxananın Poliklinika şöbəsində 50-dən artıq həkim, 200-ə qədər orta ixtisaslı tibb işçisi tam şəraitsiz və təmirsiz bir binada əhaliyə tibbi xidmət göstərir. 3, 4, hətta 5 həkim darısqal, təxminən 10-12 kv.metr təmirsiz, şəraitsiz otaqlarda işləmək məcburiyyətində qalıb. Rayon xəstəxanasında və Poliklinika şöbəsindəki şəraitsizlik və antisanitariya üç ildir ki, rayon əhalisinin yerli səhiyyəyə olan inamını heçə endirmiş, əksər rayon sakini normal tibbi müalicə almaq üçün ya başqa rayonlara üz tutur, ya da ki, xarici ölkədə *(əsasən İranda)* müalicə almağa gedir. Nə qədər təəccüblü olsa da rayonda fəaliyyət göstərən özəl "Bioloji Klinika"dakı vəziyyət qat-qat dövlət xəstəxanasından həm səlqə-sahmanı, həm də keyfiyyətli tibbi xidməti ilə seçilir. Təəssüf ki, qiymət baha olduğundan heç də hamı klinikada tibbi müalicə ala bilmir. Rayonda minlərlə vərəm xəstəliyindən əziyyət çəkən xəstənin olmasına baxmayaraq, bu təhlükəli xəstəliyin müalicəsi üçün heç bir şərait yoxdur.

Əlavə olaraq qeyd edilib ki, rayon səhiyyəsindəki bu antisanitariya və acınacaqlı vəziyyətə, eləcə də xəstəxananın təmirinin üç ilə qədər yubadılmasının nəticəsi olaraq keyfiyyətsiz tibbi xidmət ucbatından insanların dünyasını dəyişməsinə görə Azərbaycan Respublikasının Nazirlər Kabineti və Səhiyyə Nazirliyi məsuliyyət daşıyır.

Sonda Məclis üzvləri hökuməti üç il öncə təmirə dayanmış xəstəxananın tez bir zamanda istifadəyə verilməsi üçün ciddi tədbirlər görməyə çağırıblar.

**Bu səhifə Ümid Partiyası tərəfindən təqdim edilmişdir**



# Qalibiyyət diyarı

Zamin HACI
zaminhaci@gmail.com

"Dayanmadan ildırım çaxırdı. İldırım çaxanda hər şey aydınca görünür, bir saniyə sonra hər yanı qaranlıq bürüyürdü. Düşünürdüm ki, bax, elə bu dəqiqə, təbii ehtiyacımı ödədiyim bir vaxtda məni ildırım vursa, bu, necə də axmaq və mənasız bir ölüm olar"

*(Seymur Baycan, "Adsız itin qayıdışı")*

***

**Təzəlikcə avtobusda gedərkən sürücü radionu açmışdı, gördüm bir manıs şaqraq səslə oxuyur: "Azərbaycan qalibiyyət diyarı..." Düzü, tək bu cümlə məni necə şoka saldısa az qaldı sallaşdığım açıq qapıdan yerə düşüm, hətta yıxıldım da, ancaq sonra sizi fikirləşdim, dedim, ölsəm nə oxuyacaqsınız, təzədən qayıdıb qapıdan tutdum.**

Yəni siz insanda ekstazın, vəhdəti-vücudun, nə bilim, nirvananın səviyyəsinə baxın! Nə yemək-içmək, damara hansı kimyəvi maddəni vurmaq lazımdır ki, bu cür kayfda olasan? Yaxud insan nə qədər əxlaqsız olmalıdır ki, belə bir şey uydursun, bu cür mahnı sözləri yazsın, buna musiqi qayırsın, sonra oxumağa versin?

Ancaq sonra təpəmə bir qapaz vurub özümə gəldim, fikirləşdim bəlkə doğrudan da Azərbaycan artıq qalibiyyət diyarıdır, mənim xəbərim yoxdur. Televizora baxmırıq, icra hakimiyyətində iclasa getmirik - hardan bilək? Ölkənin ictimai-siyasi, geopolitik-şəngülüm həyatından o qədər ayrı düşmüşəm bu saat mənimlə Hamburqda yaşayan alman Hansın heç fərqi yoxdur. Günahımı başa düşürəm, heç olmazsa buna görə yəqin əfvə düşərəm. Təsəvvür edin, bu yaxında bir şair bir müğənniyə efirdə söymüşdü, mən bunların adını ilk dəfə eşidirdim! Bu qədər biganə vətəndaş olarmı? Ölsəm bundan yaxşı idi. Bəlkə inanmazsınız, ancaq mən hələ indiyə qədər Xoşqədəm xanımın verilişinə də baxmamışam! Dəhşətdir. Kül mənim başıma.

Uzun sözün qısası, ola bilər Qarabağı qalibiyyətlə almışıq. Son vaxtlar bölgədən xəbər gəlirdi ki, bizimkilər ermənilərin pilotsuz uçan aparatlarını vurublar. Şəkli də var idi. Düzdür, buna kvadrokopter, dron da deyirlər və bir az balacasını hazırda "Sədərək"dən 60 manata almaq mümkündür, lakin qələbənin miqyasını kiçiltmək bizə yaraşmaz. Eyni vaxtda helikopterlərimiz də cəbhə xəttində uçuşlar keçirmişdi. Misal üçün, Biləcəridə daxili qoşunların helikopterləri hər gün belə uçuşlar keçirir, camaat nəticədə asayişə əməl edir. Qarabağ erməniləri də bizim vətəndaşlardır, bir az yollarını azmışdılar, eybi yoxdur, düzələrlər.

Qalibiyyət diyarı olmağımızın başqa bir əlaməti ordunun baş qərargah rəisinin vergidə işləyən oğlunun yol polisini döyüb işdən çıxarmasıdır. Böyük ehtimalla gənc öz general atasını qələbə münasibətiylə təbrik eləmək üçün tələsirmiş, ancaq yol polisi onun avtomobilini saxlayıbdır. Rəhmətliyin oğlu, bunu nə üçün saxlayırsan? Bəyəm bu, erməni tankıdır? Qoy sürüb getsin, kef eləsin. Sənə deməyiblər ki, qiyməti 50 min manatdan çox, nömrəsi də "zerkalni" olan maşınlar Qarabağa yardım fonduna daxildir? Elə bu cür yol polislərinin ucbatından generallarımızın uşaqları yolda qalırdılar, qalibiyyət diyarı məqsədinə çatmırdı. Şükür, indi problem həll olunubdur. Əsas odur yol polisi də cəzasını alıb. Dərs olsun, bir də heç kim general uşaqlarını saxlamasın. Adamın dədəsi villada cakkuzidə oturub operativ əməliyyat planı ilə isti-soyuq suyu tənzimləmək, duşdan sonra isə "İsa bulağı" restoranında şampan, yoxsa "Laçın" restoranında viski içmək haqda düşündüyü bir vaxtda uşaq zəng vurub deyir: "Papa, burda bir serjant mazqimi xarab eləyir". Mənim əlimin altında o qədər artilleriya mərmisi olsaydı həmin yol polisinin yaşadığı məhəlləni xəritədən silərdim. Hələ bu yaxşı qurtarıbdır, getsin qurban kəssin.

Başqa bir idarədə isə başqa bir generalın keçmiş arvadını xaricə qaçırdanların məhkəmə işinə baxılır. Dünən mən ordan bir reportaj oxudum, çox xoşuma gələn bir yeri sizinlə bölüşmək istərdim. Deməli, icra hakimiyyətində işləyən bir nəfər saxta sənəd verib, həmin sənədlə generalın arvadı sərhədi keçib. İndi məhkəmədə hakim həmin adama deyir: "Get, bir də belə şey eləmə". Etimad mühitinə baxın! Adam kövrəlir.

Hamısı qələbəmizin yaratdığı sentimentallığın əlamətidir.

# Yunanıstandan daha bir zərbə planı

**Türkiyə və Rusiya prezidentlərinin Avropa Oyunlarının açılışında iştirak etmək üçün Bakıya gəlməsi və paytaxtımızdakı təmasları iki nəhəng qonşumuzun 24 aprel olayından sonra soyuyan münasibətlərində yeni düzən yaradacağı barədə ümidlər özünü doğrultmadı.**

# "Afina Bakının başqa bir planını da pozmaq istəyir"

## Ekspert: " Azərbaycanın alternativ imkanları da var; birincisi, Türkiyə vətəndaşlarına tətbiq etdiyimiz vizanı ortadan qaldırmalıyıq, ikincisi, türkiyəli iş adamlarına gömrükdə tətbiq olunan qadağalar ləğv olunmalıdır, üçüncüsü..."

Belə ki, "Türk axını" layihəsinin arxivə göndərilməsi barədə davamlı şəkildə yayılan məlumatlar belə qənaətə gəlməyə əsas verir. Xüsusilə də son günlərdə Moskva və Ankaradan gələn xəbərlər Qərbin öz istəyinə çatdığı, yeni V.Putinin böyük ümidlə reallaşdırmağa çalışdığı "Türk axını" layihəsini dayandırdığı rəyini yaradır. Rəsmi reaksiyalar da bunu təsdiqləyir. Türkiyənin energetika və təbii sərvətlər naziri Taner Yıldızın "Türk axını" ilə bağlı hələlik hər hansı bir nəticə əldə olunmayıb"-deməsi də bunun sübutudur. "Türk axını" layihəsi üzrə ilk qaz nəqlinin 2016-cı ilin dekabrında həyata keçirilməsi planlaşdırılırdı və artıq zaman daralmaqdadır. Müşahidəçilər hesab edir ki, "Türk axını"nın faktiki durdurulması diqqəti TAP-ın davamı kimi nəzərdə tutulmuş TANAP-a yönəldir və bu layihənin aktuallığını artırır.

Qeyd edək ki, Sənaye və energetika naziri Natiq Əliyev iki gün öncə ABŞ-nı Azərbaycandakı səfiri Robert Sekutanı qəbul edərkən də "Cənub Qaz Dəhlizi"nin reallaşdırılması istiqamətində işlərin qrafikə uyğun aparıldığını bildirib. N.Əliyev TAP ətrafında müşahidə olunan problemlərdən də söz açaraq ABŞ-ın bu məsələdə mövqeyini yüksək qiymətləndirib: **"BTC nümunəsi də təsdiqləyir ki, iri enerji layihələrinin həyata keçirilməsi üçün siyasi dəstək çox vacibdir. Cənub Qaz Dəhlizi, onun bir hissəsi olan TAP-ın reallaşması üçün də belə dəstək mühüm əhəmiyyət kəsb edir".**

ABŞ səfiri R.Sekuta isə bildirib ki, rəsmi Vaşinqton qazın hasilatı və nəqlində Azərbaycana köməyini bundan sonra da davam etdirəcək. Bütün bunlar həm də ondan xəbər verir ki, Qərb Rusiya və Yunanıstanın iştirak etmədiyi layihələrin gerçəkləşməsinin tərəfdarıdır və Azərbaycanın iştirak etdiyi layihələrin, o cümlədən TAP-ın reallaşmasına çalışır. Bu da Azərbaycanın bölgədə rolunun Qərb üçün hələ də önəmli olmasının təsdiqidir.

**"Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri Elxan Şahinoğlu "Yeni Müsavat"a bildirdi ki, "Türk axını" ilə TAP layihəsi arasında iqtisadi və siyasi rəqabət gedir:** "Rusiya prezidenti Vladimir Putinin Türkiyəyə son səfərindən sonra belə bir təəssürat yarandı ki, Ankara Kremlin "Türk axını" ideyasına "yaşıl işıq" yandırıb. Putin bu ideyanı məcburiyyətdən gündəmə gətirmişdi. Çünki Bolqarıstan hökuməti öz ərazisi üzərindən boru xəttinin tikintisini ləngidirdi, bu isə Kremlin xoşuna gəlmirdi. Ona görə də Putinin yeganə alternativi Türkiyə idi. İlkin mərhələdə Moskva ilə Ankara arasında danışıqlar uğurla gedirdi, hətta iş o yerə çatmışdı ki, Rusiyanın "Qazprom" şirkətinin rəhbərliyi boru xəttinin cəmi 1 ilə tikiləcəyinin anonsunu vermişdi. Ancaq Ankara üçün TAP-ın daha əhəmiyyətli layihə olduğu üzə çıxdı. Ankara Azərbaycan qazının Rusiya qazından öncə Avropaya çatdırılmasında maraqlıdır. Bu, həm Türkiyə-Azərbaycan strateji müttəfiqliyindən irəli gəlir, həm də Rusiya qazı ilə müqayisədə daha ucuz almağı planlaşdırır".



**Ekspertin sözlərinə görə, ancaq bu yerdə Yunanıstanın yeni hökuməti destruktiv fəaliyyətini ortaya qoydu:** "Afina bütün addımlarıyla "Türk axını"nın lehinə TAP layihəsini gecikdirmək istəyir. Çünki Yunanıstan da Rusiyanın ənənəvi tərəfdaşıdır, hər ikisi eyni slavyan köklərə malikdirlər, həm də Afina Kremldən kreditlərə ümidlidir. Buna görə də Afina Azərbaycanla Türkiyənin planlarını pozmağa çalışır. Afina Azərbaycanın başqa bir planını da pozmaq istəyir. Azərbaycan Dövlət Neft Şirkəti Yunanıstanın keçmiş hökuməti ilə razılaşaraq bu ölkənin DESFA qazpaylayıcı şirkətinin 60 faiz səhmlərini almışdı. Yeni hökumət isə məsələyə yenidən baxacağı və səhmlərin Yunanıstan dövlətinin nəzarəti altında qalmasıyla rəsmi Bakını şantaj edir. Buna baxmayaraq, Türkiyə də Yunanıstan hökumətinin planlarını pozur. Çünki Ankara "Türk axını" layihəsinə "yaşıl işıq" yandırmasa, Afinanın Rusiyanı irəli salmaq təşəbbüslərinin heç bir əhəmiyyəti qalmayacaq. Boru xəttinin tikintisi və qazın Avropaya çatdırılması layihəsində Rusiya Yunanıstandan yox, Türkiyədən asılıdır. Boru xətti Türkiyədən keçmədən Yunanıstan və Avropa Birliyinin digər dövlətlərinə uzana bilməz". **E.Şahinoğlu qeyd etdi ki, indiki şərtlər daxilində Azərbaycanın alternativ imkanları da var:** "Birincisi, Avropa ilə alınmasa, Azərbaycan öz qazını bir müddət Türkiyəyə satacaq. İkinci tərəfdən, başqa Avropa Birliyi dövlətləri Azərbaycan qazına və boru xəttinə maraq göstərirlər. Onların məqsədi Rusiya qazından asılılığını azaltmaqdır. Bu amilin özü Avropa üçün Azərbaycan qazını daha cazibədar edir. Yunanıstanın xaricində Avropa Birliyi boru xəttinin tikilməsi məsələsində Azərbaycanın müttəfiqidir. Təsadüfi deyil ki, İtaliya TAP layihəsində pay almaq istəyir. Halbuki kəmərin tikintisi hələ danışıqlar mərhələsindədir. Beləliklə, qazın Avropaya kimin birinci çatdırması məsələsində bölgədə iki - Rusiya-Yunanıstan və Türkiyə-Azərbaycan blokları formalaşıb və məsələ enerji mövzusundan siyasi mövzuya çevrilib. Azərbaycanın öz qazını Türkiyə üzərindən Avropaya daha tez çatdırmaq təşəbbüsləri Kremli xeyli qıcıqlandırır. Buna görə də rəsmi Bakı Kremli strateji tərəfdaş adlandırsa da, Rusiya hakimiyyəti Azərbaycana siyasi müstəvidə əlavə problemlər yaradacaq".

**Mərkəz rəhbəri deyir ki, elə edən Ermənistana silah almaq üçün 200 milyon dollar kredit verməsi Rusiyanın Bakıya mesajı idi:** "Kremlin Dağlıq Qarabağ münaqişəsinin həllinə marağı azalacaq. Üstəlik, Moskva Bakının başını qatmaq üçün cəbhə bölgəsində bizə əlavə problemlər yarada bilər. Buna görə də siyasi müstəvidə rəsmi Bakının Türkiyə, ABŞ və Avropa Birliyi ilə strateji əlaqələrini gücləndirməsinə ehtiyacı var. Çünki Rusiyadan Azərbaycana birbaşa və ya Ermənistanın əli ilə təxribat artarsa, ölkəmizin Vaşinqton, Ankara və Brüsselə təmaslarını yoğunlaşdırmasına ehtiyacı yaranacaq. Təsadüfi deyil ki, Azərbaycanın energetika naziri Natiq Əliyev bugünlərdə ABŞ-ın Azərbaycandakı səfiri Tomas Sekuta ilə görüşdə deyib, necə ki, vaxtilə Vaşinqton Bakı-Tiflis-Ceyhan layihəsinə siyasi dəstək vermişdi, rəsmi Bakının eləcə də TAP layihəsində Vaşinqtonun siyasi dəstəyinə ehtiyac var. Buna nəzərə alaraq Bakının 3 mərkəz - Vaşinqton, Brüssel və Ankara ilə əlaqələrindəki süni problemləri həll etməsi lazımdır".

**E.Şahinoğlu xatırlatdı ki, Azərbaycan hakimiyyəti bu gün Qərbdən yalnız bir məsələyə görə təzyiq altındadır:** "Vaşinqton və Brüssel bir neçə nəfərin məhbəsdən azad edilməsini və ya ev həbsinə buraxılmasını istəyir. Məncə, bu məsələni həll etməyin zamanı yetişib. Təxminən həbsdə olan 20 nəfərə görə Azərbaycan güclü təzyiq altındadır. Qərb üçün siyasi məhbus mövzusu Dağlıq Qarabağ mövzusundan öndə gəlir ki, bu bizim milli və təhlükəsizlik maraqlarımıza ziddir. Həmin insanların sərbəst buraxılması Azərbaycan iqtidarı üçün təhlükəli deyil. Əksinə, rəsmi Bakı amnistiya ilə rahat nəfəs almaq imkanı qazanar və Rusiyanın təzyiqləri qarşısında Qərbin dəstəyinin artırılmasına nail olar. Türkiyə ilə də həll olunası məsələlər var ki, bunlar da Ankaranı narahat edir. Birincisi, Türkiyə vətəndaşlarına tətbiq etdiyimiz vizanı ortadan qaldırmalıyıq, ikincisi, türkiyəli iş adamlarına gömrükdə tətbiq olunan qadağalar ləğv olunmalıdır, üçüncüsü, necə ki, Dövlət Neft Şirkəti Türkiyənin kimya sənayesində böyük paya sahib olub, eləcə də qardaş ölkənin iri kapitalına qapılarımızı açmalıyıq. Bütün bu addımlar atılmadan Rusiyanın artan təzyiqi qarşısında Qərbdən və Türkiyədən arzu etdiyimiz dəstək istənilən səviyyədə olmaya da bilər".

**E.PAŞASOY**

YENİ MÜSAVAT
N 150 (6178) 11 iyul 2015

### "Milyarderlər ittifaqı"ndan sonra sıra onlara çatdı



# Rusiya Bakıdakı Milli Şuranı da möhürləyir - özəl

## 2013-cü il seçkilərindən bəri rəsmi Bakı ilə Kreml arasında dəyişən çox şeylər var və indi şahmat taxtasında Abbas Abbasova hətta piyada xanasında da yer yoxdur; Rusiya "Milyarderlər ittifaqı"nın uzantısı olan Milli Şuranın da fəaliyyətinin bitməsini istəyir...

**"Milyarderlər ittifaqı" kimi tanınan Ümumrusiya Azərbaycan Təşkilatları İttifaqının (RATİ) siyasi səhnədən çəkilərək "özünüdəfni" ilə bağlı bəyanatı ölkə mediasında ciddi əks-səda doğurub. Rəsmi Bakı siyahısından çoxdan birdəfəlik sildiyi baş nazirin sabiq birinci müavini Abbas Abbasovun rəhbərlik etdiyi təşkilatın süqutu ilə bağlı xəbərə reaksiya belə vermədi. Bu sükut, RATİ-ni heç vaxt rəsmən tanımayan Azərbaycan iqtidarının 2013-cü il prezident seçkilərində ona başağrısı gətirən "Kreml ittifaqını" gözardı etməsi kimi yozulmamalıdır. Əksinə, bu susqunluq daha çox azərbaycanəsilli milyarderlərin gözlənilən "dəfninə" nümayişkaranə "sükut", bəlkə də son sayğısızlıq mesajıdır.**

Abbas Abbasov qurumun fəaliyyətinə xitam verilməsi ilə bağlı iki cümləlik bəyanatında da qeyri-səmimi oldu. O, "RATİ fəaliyyətə başlamağa imkan tapmadan dayandırıldı", deməklə Azərbaycan hakimiyyətinə məhz bu qurumun patronu kimi verdiyi sərt mesajları unutdurmağa çalışdı. "Bizim təşkilatı buraxmaq barədə qəbul etdiyimiz qərar bir sıra arqumentlər və mülahizələrlə şərtləndirilir" desə də, "Milyarderlər ittifaqı"nın siyasi səhnədən silinməsinin əsl səbəblərini açıqlamadı. Amma bunu deməyə nə hacət? Hər şey aydındır: Rəsmi Bakı ilə problemləri olan Putin hakimiyyəti Abbas Abbasovu ortaya atıb Azərbaycan əleyhinə ittifaq yaratdığı kimi, zamanı gələndə də "ipi"ni geri çəkdi. Abbas Abbasov bu oyunda iştirakçı olaraq çox şey itirdi: Azərbaycan hakimiyyətindəki etibarını, Bakıya gələn yollarını, biznesini, hətta oğlunun daha 5 il tam qarantiyalı mandatını da...

Rusiya parlament seçkilərinə 3 aydan bir az çox zaman qalmış "Milyarderlər ittifaqı"nı möhürlədi. Çünki 2013-cü il seçkilərindən bəri rəsmi Bakı ilə Kreml arasında dəyişən çox şeylər var və indi şahmat taxtasında Abbas Abbasova hətta piyada xanasında da yer yoxdur... Siyasətin belə acı gerçəklikləri də var...

Rusiya bu "süni mayalanmış" ittifaqı dağıtmaqla, bəlkə də Azərbaycan hakimiyyətinə çoxdan verdiyi vədini yerinə yetirdi. Bununla da ortadakı geosiyasi tablonu açdı. Bu, ittifaqın bunca miskin bir sonluqla özünü buraxmasının Abbas Abbasovun siyasi iflasından (ifşasından) daha ötə və vacib nəticəsi var.

Bu, əvvəla, o deməkdir ki, Bakıda hələ də birilərinin ehtiyat aerodrom, arxa bağça hesab etdikləri RATİ daha yoxdur. Ən əsası isə Kreml noyabr seçkilərində rəsmi Bakıya qarşı fəaliyyət göstərməyəcəyinin mesajını vermiş oldu. Üstəlik, "Milyarderlər ittifaqı" projesini bitirməklə, onun Bakıdakı siyasi uzantısına- Abbas Abbasovun yaxın dostu Rüstəm İbrahimbəyovun hələ də fəxri sədrliyində qaldığı Milli Şuraya "ölüm hökmü" çıxardı. Milli Şura "skazkası" Rusiya üçün bitdi!

İbrahimbəyovun ermənilərlə dostluq mesajlarına dəstək verən Milli Şura sədrinin, eləcə də bu quruma bağlı siyasi partiya rəhbərinin son günlər Rusiyanı hədəf alan bəyanatlarına "qaz verməsi" heç də təsadüfi deyilmiş... Rusiya "Milyarderlər ittifaqı"nın arxasındakı Milli Şuranın da fəaliyyətinin bitməsini istəyir. Hər şeyi bu şuraya hesablayanlar isə seçki ərəfəsi bu cür bir projenin əldən çıxmasına müqavimət göstərirlər. Son günlər Azərbaycan hakimiyyətini Rusiyanın Ermənistana silah satışına təpki göstərməməkdə qınayaraq Kremllə "savaşa" çağıranlar guya ki, Putinin siyasətini indi anlayıblar. Müqavimət var, çünki sırada İbrahimbəyovun Milli Şura ilə birdəfəlik üzülüşməklə bağlı bəyanatı da gəlir...

Abbas Abbasovla eyni gündə Milli Şuranın astar üzü olan AXCP-nin əsas adamının - Əli Kərimlinin ətrafının boşaldılması da bu dişsiz müqavimətə bir cavabdır. Onun təşkilatındakı əsas fiqurlardan biri qəflətən, çox şübhəli şəkildə öz sədrini tərk etdi. Bəzi ekspertlər bundan belə nəticə çıxarda bilər ki, Kreml vəd etdiyi kimi, Milli Şuranı da qıfıllamaqdadır. Çünki bu qurumun Abbas Abbasovun şəxsi nəzarəti ilə yaradılması, hətta müxalifətin daha aydın düşünən və ayıq liderlərinin də müxtəlif təzyiq üsulları ilə Milli Şuraya toplanması sübuta yetirilmiş faktdır. Məlumatların təhlili göstərir ki, proses daha da şiddətlənəcək və ən qısa zamanda Milli Şuranın siyasi fəaliyyətinə son veriləcək. Qalmaqallı səfir, Abbas Abbasovun daha bir yaxın adamı Arif Məmmədovun da son günlər müəmmalı susqunluğu Kremlin oyun qaydalarını dəyişdiyinə işarədir.

Rusiya ilə rəsmi Bakı arasında iddia olunan başqa bir dərin anlaşmaya dair digər iddialar da var. Bu iddialara görə, Dağlıq Qarabağda və digər təmas xətlərində Azərbaycanın lokal hərbi əməliyyatlara başlayacağı halda Kreml buna "göz yuma" bilər. Yenə də həmin iddiaya görə, burada məqsəd həm də küçələrdə meydan sulayan və Kremlin İrəvanda qurduğu oyuncaq hakimiyyəti inqilabla təhdid edən narazı ermənilərə, əslində fərqli yol aramağa başlayan bütün xalqa, o cümlədən də bu prosesi nəzarətinə almağa çalışan Qərb paytaxtlarına qulaqburması verməkdir.

Krımın ilhaqı dünyanın reaksiyasından asılı olmayaraq, Putini rus xalqının gözündə qəhrəmana çevirdi və hələ də ölkədəki ağır siyasi-sosial şərtlərə rəğmən onun reytinqi ən yüksəkdədir: **"Qərbin, həm də Rusiyaya yaxınlaşması səbəbindən sıxışdırdığı rəsmi Bakıya kritik seçkilər ərəfəsi siyasi dəstək lazımdır. Aydındır ki, Azərbaycan ordusu hətta cəmi bir rayonu belə qəsbkar ermənilərdən təmizləsə, yaxın illərdə prezident İlham Əliyevə heç bir inqilab, heç bir demokratiya dalğası təhlükəli ola bilməz. Bunun reallaşması üçün Kremlin, sadəcə, mümkün hərbi əməliyyatlara 2-3 gün loyal qalması yetər və Rusiya buna gedəcək".** Son günlər baş verən prosesləri "Yeni Müsavat"a şərh edən mötəbər mənbə belə söyləyib.

Ermənini öldürdüyü üçün Macarıstanda cəza çəkən Ramil Səfərovun misilsiz bir əməliyyatla qurtuluşu, daha sonra isə ötən yaydakı hərbi situasiya sübut etdi ki, azərbaycanlılar üçün ən mühüm amil Vətən müharibəsi faktoru və ermənilərə kiçik də olsa, vurulan hərbi zərbələrdir. Xalqımız taleyi ilə barışmayıb və hətta bu iqtidara kart-blanş verməyə də hazırdır: getsin, Dağlıq Qarabağı işğaldan azad etməyə başlasın...

Bütün gedişat onu göstərir ki, Azərbaycan prezidentinin masasının üstündə, Qarabağ məsələsinin həllində əsas variant kimi nəzərdə tutduğu müharibə ssenariləri var. İddialara görə, prezident İlham Əliyevi son addımı atmaqdan çəkindirən yeganə faktor Rusiyadır. İndi bütün məlumatların spektral analizi onu göstərir ki, son aylardakı manevrləri, bəzi hallarda izah edilməsi belə çətin olan siyasi qərarları, ən əsası isə Bakının Qərblə kəskin qarşıdurmaya getməsi bu faktorun aradan qaldırılması üçünmüş. Rusiya Bakının yürütdüyü siyasi kursa və yöndəyişiminə Moskvada Abbas Abbasovun, Bakıda isə Milli Şuranın "başları" ilə avans verir. "Poluçka" Dağlıq Qarabağın bir, ya da iki rayonunun qaytarılması ilə ödənərsə, heç də pis nəticə sayılmaz...

❑ "Yeni Müsavat"

# Yolumuz haradır, cənab diplomatlar?...



Hüseynbala SƏLİMOV

**Bəlkə də diplomatik korpusun bayram günü olmasaydı belə bir yazıya, həm də bu cür gurultulu başlığa müraciət etməyəcəkdik... Amma düşünürük ki, belə xırda cəhdlər də oxucuya nəsə verir, ona görə ki, bir çox hallarda zahiri parıltının fonunda xarici siyasətin harada başladığını və haralarda bitdiyini müəyyən etmək olmur və yaxud da ki, çətin olur...**

Bu illər ərzində nələr oldu? Mənim yadıma YAP hakimiyyətinin ilk illəri düşür. O vaxtlar vəziyyəti AXC-nin bir illik hakimiyyət dövrü ilə müqayisə etmək bir dəb idi...

Bu mənada xarici siyasət də istisna deyildi. Yadıma gəlir, o vaxtkı nazirlər bir illik hakimiyyət dövrünə müraciətlər edir, özlərinin nə qədər fərasətli olduqlarını göstərməyə çalışırdılar... Mən demirəm ki, bu dövr ərzində xarici siyasət yalnız belə müqayisələrdən ibarət oldu. Yox, belə deyil. 22 il ərzində hakimiyyət nəsə etməli idi və etdi də...

İndi olanları yox, yadda qalanları sadalamağa cəhd edəcəyik. Təbii ki, ölkənin Avropa Şurasına, Təhlükəsizlik Şurasına üzv olması, rus qoşunlarının sonuncu hissələrinin (Qəbələ RLS-dəki kontingentin!) ölkədən çıxarılması yadda qalan hadisələrdəndir...

Amma bu dövr ərzində xarici siyasətin mühüm problemlərindən biri də Qarabağ problemi olmalı idi. Nə edildi bu istiqamətdə? Nə baş verdi? Təəssüf ki, öyünüləsi bir şey yoxdur...

O ki qaldı başqa məsələlərə, əslində zaman müəyyən stabillik və diplomatik münasibətlər məcmusu gətirməli idi...

Gətirdi də. Ona görə də bütün olanların müstəsna olaraq bizim diplomatiyanın sayəsində baş verdiyini iddia etmək əbəsdir...

Qarabağ probleminə gəldikdə isə, bir nöqtədə ilişib qalmışıq. Əslində 22 il ərzində bu hakimiyyətin siyasəti Qarabağ probleminin çözülməsi prosesinə elə bir yenilik gətirə bilmədi-Minsk Qrupu onlardan əvvəl yaranmşıdı və bu dövr ərzində yalnız həmsədrlərin sayı artdı...

Deyə bilərlər ki, biz Azərbaycanı BMT TŞ-nın üzvü etdik. Düzdür! Amma nəticəsi nə oldu? Qarabağda heç olmasa bir kənd azad oldumu? Təəssüf ki, yox! Biz bunu xüsusi bir təntənə ilə demirik, çünki Qarabağ bizim hamımızın problemidir...

Bir dəfə yazmışdım ki, bir vaxt analar bizim yaxamızdan yapışacaq və soruşacaq: "Bu illər ərzində nə etdiniz, kişilər? Qarabağ problemini də bizim övladlarımıza miras qoydunuzmu?"...

Nə deyəcəyik? Deməyə söz yox... Ona görə də bizə peşə bayramları yaraşmır. Ən azı ona görə ki, hamı öz peşəsini yetərincə icra etsəydi ölkənin problemləri indiki qədər olmazdı, bir az azalardı...

Xarici siyasət də bu qəbildəndir. Onun missiyası diplomatik yollarla ölkənin təhlükəsizliyini təmin etmək, onu tanıtmaq və sevdirə bilməkdir...

Bir az əvvəldə ərz etdim ki, ölkənin təhlükəsizliyi tam təmin olunmayıb, hələ də Qarabağ kimi bir sinə və göz dağı var...

Ölkəni tanıtmaq sahəsində müəyyən işlər görülüb. Sevdirmək istiqamətində isə nələrə nail olunduğunu demək bir az çətindir...

Yəni soruşmaq istərdik ki, bu ötən müddət ərzində dostlarımızın sayı artıb, yoxsa düşmənlərimizin?..

Bu, elə bir məsələdir ki, onun ölçü cihazı yoxdur. Amma müəyyən göstəricilər tapmaq olar. Məsələn, soruşmaq olardı ki, Qarabağ məsələsində bizə dəstək olan dövlətlərin və ya təşkilatların sayı artıb, yoxsa azalıb?..

Deyə bilərlər ki, diplomatiyanın problemi təkcə Qarabağ deyil. Düzdür, amma Qarabağ ölkənin bir nömrəli problemidir...

Nə qədər ki, bu problem həll olunmayıb insanlar diplomatlara "Bu vaxta qədər nə etmisiniz?" sualını verməkdən bezməyəcəklər. Həm də haqlı olacaqlar...

Digər problemlər bir o qədər də önəm kəsb etmir. Halbuki kəsb edə də bilərdi, əgər ciddi nəticələr olsaydı...

Bəs ciddi nəticə nəyə deyirik? Məsələn, Azərbaycanın Avro-Atlantika məkanına inteqrasiyasını ciddi diplomatik nəticə, hətta xarici siyasətin uğuru saymaq olardı. Amma reallıqda nə var?..

Ölkə faktiki olaraq özünün prioritetlərini dəyişib. Daha nə NATO haqda danışan var, nə də Avropa Birliyi haqda... Demirik ki, digər dövlətlər artıq bu məkandadır. Yox, belə deyil. Amma onlar heç olmasa, ölkələrinin Avropa Şurasına üzv olmasından peşiman deyillər! Bizim siyasətçilərimizin, məmur və diplomatlarımızın çıxışlarında isə açıq-aşkar belə peşimançılıq duyulur...

Ona görə biz də acizanə şəkildə sizdən soruşmaq məcburiyyətindəyik: siz bizi hara aparırsınız, cənab diplomatlar?..

Yeni MÜSAVAT
N 150 (6178) 11 iyul 2015



# "Kredit borcuna görə intihar ciddi siqnaldır"

## Ekspertlər bildirirlər ki, hökumət bu barədə düşünməlidir; faiz qurbanları arta bilər...

**"Bərdə rayonunda kredit borcuna görə baş vermiş intihar hadisəsi təkcə bir gəncin faciəsi deyil, həm də cəmiyyətin mövcud durumu üçün ciddi siqnaldır". İqtisadçı ekspert Samir Əliyev ölkədə vətəndaşların kredit borcunun kritikliyinə diqqət çəkərək bu barədə bildirib. Onun sözlərinə görə, bu, ilk belə hal deyil və təəssüf ki, sonuncu da olmayacaq.**

"İntihara gətirib çıxaran çox amilləri sadalamaq olar: kredit faizlərinin yüksək olması, müştərinin aldadılması, onun həbslə qorxudulması və sair. Hətta müştərinin məsuliyyətsizliyinin nəticəsi kimi də qiymətləndirmək olar. Ancaq motiv aydındır - kredit borcunu qaytarmaq mümkünsüz olub və çıxış yolunu intiharda görüb. İntihar edəni qınayanlar da olacaq, onun halına acıyanlar da",- deyə o qeyd edib.

**S.Əliyevin sözlərinə görə, bu hadisədə konkret bankı qatil qismində görənlər də az olmayacaq:** "Təəssüf ki, insanlar istehlak kreditini rifahını yaxşılaşdırmaq üçün deyil, hansısa problemi təcili həll etmək üçün götürürlər. Araşdırsaq, məlum olar ki, həmin kredit ya müalicə, ya işə qəbul, ya da kimisə polisdən xilas etmək üçün alınıb. Əminəm ki, həmin pul heç də maşın və ya soyuducu almaq üçün götürülməyib. Əlimyandıda götürülmüş kreditin nə faizinə diqqət yetirilir, nə də şərtlərinə. Hər ikisi ödəniş zamanı yada düşür. Onda da fakt qarşısında qalırlar".

**S.Əliyev qeyd edib ki, bank sektoru hazırda insanların ən çox şikayət etdiyi sahəyə çevrilib:** "Banklar kredit şərtlərini istədikləri kimi müəyyənləşdirirlər. Müqavilələrdə daha çox öz hüquqlarını qabardırlar. Müştərilərinsə öhdəliklərinə geniş yer ayırırlar. Gecikdirilən kreditlərə ağlasığmaz cərimələr hesablanır. Məsələ məhkəməyə çatanda da haqsız çıxan vətəndaş olur. Bir tərəfdən də kollektorlar əhalinin baş ağrısına çevrilir. Elə bir ailə, elə bir şəxs yoxdur ki, maliyyə sektorunun xidmətlərinə müraciət etməsin. Kimisi gəlirinin bir hissəsini banklara əmanət edir, kimisi bankdan borc götürür, üçüncülər isə maşınını və evini sığortalayır. Belə misalların sayını artırmaq da olar. Reallıq odur ki, müştərilərin hüquqları addımbaşı pozulur. Milyonlarla əmanətçinin və kredit müştərisinin taleyi havadan asılı vəziyyətdə qalıb. Əhalinin maliyyə savadsızlığından istifadə edilərək onlar aldadılır. Bu halda vətəndaş kimə müraciət edəcəyini, hüquqlarının hansı qurum tərəfindən qorunacağını bilmir. Düzdür, Mərkəzi Bankın göstərişi ilə bankların nəzdində istehlakçıların şikayətini araşdıran şöbələr yaradılmağa başlayıb. Ancaq şikayətləri araşdıran müstəqil qurumun olmasına ehtiyac var. Hökumət bu barədə ciddi düşünməlidir. Getdikcə kredit qurbanları arta bilər".

**Hüquqşünas Əkrəm Həsənov isə vəfat etmiş şəxsin kreditinin kim tərəfindən ödənilməli olduğuna diqqət çəkib:** "Kredit təşkilatları qanunsuz olaraq vəfat etmiş şəxsin kreditinin ödənilməsini onun ailə üzvlərindən tələb edir. Halbuki hər kəs özünə cavabdehdir. Borclu kreditə görə yalnız öz əmlakı ilə məsuliyyət daşıyır. Əmlakı yoxdursa, kredit ödənilmir və buna görə borcluya qarşı heç bir tədbir görülə bilməz. Heç nədən və heç kəsdən qorxmasın, onu narahat edənləri isə qovsun, polisə müraciət etsin və sair. Təbii, vəfat etmiş borclunun da krediti Mülki Məcəlləyə uyğun olaraq onun əmlakı hesabına ödənilməlidir. Bu əmlak onun vərəsələrinə keçdikdə, vərəsələr kreditə görə yalnız onlara keçmiş miras həddində məsuliyyət daşıyırlar. Yəni öz əmlakları ilə yox, yalnız miras kimi qalmış əmlakla".

❑ RÖYA

# Azərbaycan üzünü Asiyaya çevirir -gözlənilən gəlişmə

## Ölkəmizin Şanxay Əməkdaşlıq Təşkilatında müşahidəçi statusu alması xarici siyasi oriyentasiyasında ciddi dəyişiklik demək olacaq; Qərblə münasibətlərin indiki gərgin vaxtında Rusiya və Çinin yanında yer almaq cəhdi nəyə hesablanıb?

**Azərbaycan, Kamboca, Ermənistan və Nepal təşkilat üzrə tərəfdaş qismində Şanxay Əməkdaşlıq Təşkilatına (ŞƏT) qoşulurlar. Bunu Rusiya prezidenti Vladimir Putin ŞƏT dövlət başçıları şurasının Ufada keçirilən geniştərkibli iclasında deyib. Putin deyib ki, bu ölkələr dialoq üzrə tərəfdaş qismində ŞƏT ailəsinə qoşulurlar.**

Azərbaycanın ŞƏT-də müşahidəçi statusu almaq üçün bu ilin fevralında müraciət etdiyi məlum idi. Azərbaycandan başqa, Suriya, Belarus, Ermənistan və Banqladeşin də müşahidəçi statusu almaq üçün müraciət etdiyi faktdır.

Azərbaycana ŞƏT-də dialoq üzrə tərəfdaş statusu veriləcəyi barədə bu ilin aprel ayında Rusiya Təhlükəsizlik Şurasının katibi Nikolay Patruşev açıqlama verməşdi. Rusiya Federasiyası prezidentinin müşaviri, ŞƏT nümayəndəliyinin hazırlanması və təmini üzrə təşkilat komitəsinin məsul katibi Anton Kobyakov isə deyib ki, təşkilata daxil olmaq üzrə dəqiq qaydaların olduğu 28 sənəd var. ŞƏT-ə daxil olmazdan əvvəl onlara riayət etmək lazımdır.

İyulun 10-da Ufada ŞƏT, BRİCS ölkələrinin və Avrasiya İttifaqının birgə sammiti başlayıb. Sammitdə çıxış edən Serj Sərkisyan ölkəsinin Fars körfəzi vasitəsilə Hind okeanına çıxmaq niyyətindən danışıb. ANS PRESS-in məlumatına görə, Ermənistan prezidenti sammitdə təmsil edilən böyük dövlətləri Ermənistan - İran dəmir yolunun çəkilişini maliyyələşdirməyə çağırıb: "Artıq texniki - iqtisadi əsaslar hazırlanıb, layihə özəl və dövlət əməkdaşlığı üçün açıqdır. Ümid edirəm ki, burada təmsil olunan ölkələrin şirkətləri layihəyə maraq göstərəcək" deyə, erməni prezident müraciət edib. Erməni prezident bu dəmir yolu vasitəsilə Avrasiya İttifaqının Hind okeanına çıxacağını iddia edib. Amma sammit iştirakçıları Serj Sərkisyanın bu təklifinə heç bir reaksiya verməyiblər. Ekspertlərə görə, bu iddia gülünc görünür, çünki iqtisadiyyatı dalana dirənmiş Ermənistanın isti dənizlərə çıxmaq xülyasına görə heç kim çoxmilyardlıq layihəyə pul xərcləməz.

Erməni iqtisadçılar Serj Sərkisyanın ŞƏT-ə daxil olmaq niyyətinin arxasında Çindən sərmayələr cəlb etmək istəyinin durduğunu vurğulayırlar. Yəni məqsəd aydındır - Çin biznesmenləri Ermənistandakı işsiz kütlədən istifadə edərək İrəvanda, Gümrüdə, Vanadzorda "kiçik çinlər" qura bilərlər.

Amma Çinin də sərmayə qoyuluşu ilə bağlı öz siyasəti var. 2013-cü ilin sentyabr ayında Pekində Ermənistan baş naziri Tiqran Sərkisyanla görüşmüş Çinin baş naziri Li Kesian sərmayə qoyuluşlarında məqsədlərinin ölkəsinin istehlak bazarının artan tələbatını ödəmək olduğunu vurğulayıb. Yəni Ermənistandakı sərmayə qoyuluşları Çin bazarını ucuz istehlak malları ilə təmin etməyə xidmət etməlidir ki, erməni iqtisadçılar bunu mümkünsüz sayırlar.





**Azərbaycanın ŞƏT-də müşahidəçi statusu alması ölkənin xarici siyasi oriyentasiyasında ciddi dəyişiklik demək olacaq. Bu barədə axar.az-a açıqlamasında politoloq Qabil Hüseynli danışıb. Sabiq dövlət müşaviri Azərbaycanın proqrama Dağlıq Qarabağ və bir sıra iqtisadi məsələləri nəzərdə tutaraq müşahidəçi statusu almaq üçün müraciət etdiyini deyib:** "Azərbaycan bu addımla Qərbdən imtina etmədiyini, ancaq yeni bir xəttə - Şanxay Əməkdaşlıq Təşkilatı ilə əməkdaşlıqla bilavasitə buraya üstünlük verdiyini nümayiş etdirir. Bu təşkilatın ardınca isə Çinin rəhbərliyi altında olan yeni maliyyə sistemi qurumuna - BRİCS-ə qoşula bilər. Belə görünür ki, Moskva Qərbə alternativ qurumların formalaşmasında xeyli fəaldır. Ancaq Azərbaycan Dağlıq Qarabağ məsələsini və bir sıra iqtisadi amilləri nəzərdə tutaraq proqrama qoşulub. Çox güman ki, qarşıda duran əsas məsələ Dağlıq Qarabağ problemidir. Ən azından, yeddi rayonun işğaldan azad olunması məsələsinin aktivləşəcəyini güman etmək olar. Azərbaycanın bu qurumla əməkdaşlığı Rusiyaya doğru atılan böyük bir addımdır. Qarşı tərəfdən də Azərbaycana doğru eyni addımın atılmasını gözləmək mümkündür. Bu da Azərbaycan üçün həyati əhəmiyyəti malik Qarabağ problemində status-kvonun dəyişilməsi və işğal olunmuş torpaqlarımızın azad olunması məsələsidir".

Moskva və Pekinin liderlik etdiyi Şanxay Əməkdaşlıq Təşkilatının təməli 1996-cı ildə qoyulub. Çin, Rusiya, Qazaxıstan, Qırğızıstan və Tacikistan arasında sərhəd təhlükəsizliyinin təmin olunması və birgə əməkdaşlıq məqsədilə yaradılan təşkilat 2001-ci ildə qədər "Şanxay beşliyi" kimi tanınırdı. Həmin il Özbəkistanın da təşkilata üzv qəbul olunması ilə "Şanxay beşliyi" adı tarixə qovuşdu. Şanxay Əməkdaşlıq Təşkilatı 2001-ci ildə təşkilatlanmış bir sistemə sahib olaraq beynəlxalq münasibətlər sistemində müəyyən nüfuz qazanmış təşkilata çevrildi. Hazırda təşkilatın üzvləri Rusiya, Çin, Qazaxıstan, Qırğızıstan və Özbəkistandır. Monqolustan, Hindistan, İran, Pakistan və Əfqanıstana müşahidəçi statusu, Belarus, Şri-Lanka və Türkiyəyə isə dialoq üzrə tərəfdaş statusu verilib.

Ufa sammitində Asiyanın iki nəhəng dövləti İran və Pakistanın ŞƏT-ə qoşulması ilə bağlı prosedurun başlanacağı planlaşdırılırdı. Amma ŞƏT-in tədbirində iştirak edən İran prezidenti Həsən Ruhani Ufanı tədbirin bitməsindən bir neçə saat əvvəl tərk edib. Məlum olub ki, İran hələ də əvvəlki statusunda qalır. Ruhaninin tədbiri yarımçıq tərk etməsi ilə bağlı iddiaları isə Kremlin mətbuat katibi Dmitriy Peskov təkzib edib. Məlumatlara görə, İranın ŞƏT-ə üzvlüyü məsələsinin bu ölkəyə Qərbin iqtisadi sanksiyalarının ləğvindən sonra baxılacağı daha məqsədəuyğun hesab edilir.

Təşkilatın ən fəal və əhəmiyyətli fəaliyyətləri iqtisadi sahədədir. Ortaq layihələrin maliyyələşdirilməsi üçün ŞƏT ortaq "İnterbank" da yaradıb. Şanxay Əməkdaşlıq Təşkilatına üzv ölkələrin əhatə etdiyi 37 milyon kilometr məsafə ümumilikdə Avrasiya regionunun 74 faizini təşkil edir. Təşkilata üzv ölkələrin əhali sayı 2,7 milyard nəfər təşkil edir ki, bu da dünya əhalisinin 40 faizi deməkdir. Qərbin iqtisadi sanksiyalarından sonra Rusiya Çinlə iqtisadi sahədə əlaqələrini daha da genişləndirib.

Şanxay Əməkdaşlıq Təşkilatına liderlik edən Rusiya və Çin sözdə təmsil etdikləri qurumun Qərbə qarşı yönəlmiş bir təşkilat olmadığını bildirsələr də, lakin Moskva və Pekinin əməllərində bu özünü büruzə vermir. Xüsusilə təşkilatın hərbi qüvvələrinin yaradılması bunu deməyə əsas verir. ŞƏT-in bir neçə ortaq hərbi təlimləri də olub. ABŞ bir neçə dəfə açıq şəkildə ŞƏT-in anti-Amerika mövqeyindən narahat olduğunu bəyan edib. Məşhur amerikalı ekspert Ariel Koen ŞƏT ilk qurulanda Vaşinqton rəsmilərinin buna əhəmiyyət vermədiklərini, ancaq təşkilatın inkişafı onların bu düşüncələrinin səhv olduğunu göstərdiyini deyib.

❑ "Yeni Müsavat"

YENİ MÜSAVAT
N 150 (6178) 11 iyul 2015

# Ən gənc partiya liderliyindən baş nazir kürsüsünə qədər...

## Yunanıstanın baş naziri Aleksis Tsipras barədə bilmədiklərimiz; ölkəni çiynində daşımaq istəyən adamın üzərində başqa hansı yüklər var?

**Yunanıstanda 2011-ci ildən iqtisadi böhran getdikcə dərinləşir. Tsipras hökuməti də artıq ölkə iqtisadiyyatının iflas etməsi siqnallarını verir. 321 milyard avro xarici borcu olan dövlətin sənaye fəaliyyəti də iflic vəziyyətdədir. Hökumət yalnız turizm sektoru ilə ölkəni böhrandan xilas etməyə çalışır.**

Və elə gün olmur ki, dünya xəbərlərində Yunanıstanın baş naziri Aleksis Tsiprasın açıqlamaları, çözüm paketləri gündəmə gəlməsin. Keçirilən görüşlər, çıxış yolu qərarları, referendum...Dünya artıq bu gənc adamdan danışır, onun hər addımını müzakirə edir. "Yeni Müsavat" da qısa müddət ərzində dünyanın gündəminə gəlmiş baş nazirlə bağlı bilinməyənləri üzə çıxardı.

Kimdir bu Tsipras? Keçmişi, özəl həyatı, təhsili, bir sözlə, A-dan Z-yə qədər baş nazir...

Aleksis Tsipras orta məktəbi Abelokopidə bitirib. Mühəndis təhsilini isə Afina Texniki Universitetində alıb, oranı da 2000-ci ildə bitirib. Şəhər və regional planlaşdırma üzrə aspirantura təhsili alıb. Tikinti sektorunda mühəndis kimi çalışıb. Afinanın yenidənqurması ilə bağlı çoxlu sayda layihə və məqalənin müəllifidir. Məktəb illərindən etibarən ictimai həyatda aktiv olub. 1980-ci ildə Yunanıstan Kommunist Partiyasının sıralarına qoşulub. Aktivliyinin pik həddinə isə 1990-1991-ci illərdə çatıb. Hətta zamanında təhsil nazirinin bu və ya digər qərarlarına ciddi etiraz edib. Həmin vaxt etiraz edən məktəbli və tələbələrin nümayəndəsi kimi televiziya verilişlərinə çağırılıb, nazir Vasilis Kontoqiannopulosa efirdən öz etirazlarını çatdırıb.

Məhz tələbəlik illərində tanınmış aktivist, Tələbə Həmkarlar İttifaqının üzvü, eləcə də Politexnik Universiteti Tələbə Komitəsinin fəallarından olub. 1995-1997-ci illərdə Yunanıstan Milli Tələbə Komissiyasının üzvü olub. 1999-cu ilin mayında "Sinaspizmos Gəncləri" partiyasının siyasi katibi seçilib və bu fəaliyyətini 2003-cü ilin noyabrına qədər davam etdirib. Tsipras özü "Sinaspismos"un sol qoluna məxsus olsa da, təmsil etdiyi vəzifəsinin öhdəsindən tam gəlib və gənclər üzrə işin öhdəsindən layiqincə gəlib. O, eyni zamanda Yunanıstan sosial forumu və neolibirel qloballaşmanın hazırlıq işlərində də aktiv iştirak edib.

2007-ci ilin 27 noyabrında "Sinaspizmos"un sədri Aleksos Alavanos növbəti dönəm üçün seçkilərdə iştirak etməyəcəyini açıqlayanda, Aleksis Tsipras 10 fevral 2008-ci ildə onun yerinə seçilib. O, səsvermədə iştirak edənlərin 70.41 faizinin (840 nəfərin) səsini qazanaraq sədr seçilib. Onu 28.67 faizlə(342 səs) Fotisa Kuvelis təqib edib və ikinci yerdə qərarlaşıb.

Bununla da 33 yaşlı Tsipras Yunanıstan tarixində ən gənc partiya lideri olaraq tarixə keçib. 6 iyun 2010-cu ildə o, yenidən 1038 səsdən 785-ni yığaraq partiya sədri olub. O, 2009-cu ildə keçirilən seçkilər zamanı partiyanın siyahısı ilə yekdilliklə parlamentə seçilib. Tsiprasın rəhbərliyi altında partiya sensasion uğur əldə edib: 2012-ci ildə 16.79 və 26.89 faiz olmaqla, ən qabaqcıl müxalif gücə çevrilib və bu cür tanınıb.


Aleksis Tsipras

2014-cü ilin 15 mayındakı teledebatlar zamanı Avropa Komissiyası prezidentliyinə namizədlər arasında ən çox tvit alan da o olub. 25 yanvar 2015-ci ildə keçirilən parlament seçkiləri zamanı Aleksis Tsipras yeni koalisiya hakimiyyəti yaratmağa nail olub. Həmin vaxt o, "Müstəqil yunanlar" adlı iqtidar partiyası ilə koalisiyaya gedib. Son nəticədə A.Tsipras özü 2015-ci ilin 26 yanvarında Yunanıstanın yeni baş naziri olub.

Keçək baş nazirin şəxsi həyatına. A.Tsipras Peristere Baziane adlı xanımla evlidir. Elektrik və kompüter texnikası üzrə mühəndis olan bu xanımla onlar 1987-ci ildə birgə oxuduqları məktəbdə tanış olublar və birlikdə Yunanıstanın Kommunist Gəncləri partiyasına üzv olublar. Onların iki oğlu var - kiçiyinin adı Ernestodur. Ailə bu adı Çe Gevaranın şərəfinə qoyub. Tsipras özü qızğın azarkeşdir və "Panatinaikos" komandasına azarkeşlik edir.

Tsipras son olaraq ölkədə yaranmış son vəziyyətə münasibət bildirib.

"Son 5 ayda ölkəmdə baş verənlərin məsuliyyəti mənim və başçılıq etdiyim hökumətin üzərindədir. Yunanıstan böhran labarotoriyasına döndü. Bu qəbulolunmazdır" deyən Tsipras daha sonra bildirib ki, "Avro zonası və Yunanıstan üçün çox kritik bir dövr yaşayırıq. Referendumun nəticələri problemin həlli istiqamətindəki fəaliyyətləri daha da artırdı. Referendumun nəticələri iqtisadi cəhətdən çox ədalətli addımlar atılmasının vacibliyindən xəbər verir. Yunan xalqının cəsur tərcihi Avropa ilə körpüləri yandırmaq mənasına gəlməməlidir".

"Açıqlanan proqramların heç biri Yunanıstandakı qədər uzun və sərt olmamışdı. İslahat proqramımızı həyata keçirməkdə davam edəcəyik", deyə Tsipras sözlərini bitirib.

Baş nazirlə bağlı diqqət çəkən daha bir addım isə onun bugünlərdə Almaniya kansleri Angela Merkeli öz facebook hesabında "unfriend" - "qeyri-dost" etməsidir. Xəbər verilir ki, Tsipras Avropa İttifaqının çat verdiyini göstərən bu addımı səhərin erkən saatlarında atıb. O, Berlinlə ölkəsi arasında münasibətlərin getdikcə pisləşməkdə olduğu bir vaxtda Almaniya başçısını facebook-dakı dostları siyahısından çıxarıb. Deyilənlərə görə, bu xəbər Merkeli son dərəcə qəzəbləndirib və öz qarşılıqlı "dostluqdan çıxarma" əməliyyatına Tsiprasa son dərəcə təhqiramiz post əlavə edib, onu əfəl və fərsiz adlandırıb, belə bir şəxsi heç tanımaq istəmədiyini bildirib.

Bununla belə, Almaniya kansleri son on iki saat ərzində Tsiprasa azı otuz dəfə zəng edib və mesaj göndərib. Baş nazir isə deyib ki, "yunan xalqına belə münasibət" davam edərsə, Merkeli twitter və İnstagramdan da bloklamaq lazım gələcək.

Xəbər verilir ki, Avropa İttifaqında bu hədələri ciddi qəbul edirlər, belə ki, Yunanıstan özünün həyati ixracat məhsulu olan "pişik balası" portretlərinin eksportundan məhrum edilib.

Bu portretlərdə Pravoslav Kilsəsinin pillələrində oturmuş pişik balaları təsvir edilir. Yunanıstan bu addımı qeyri-məqbul elan edib.

Tsiprasa cavab olaraq Angela Merkei onu özünün Grepolis və WoW alyanslarından xaric edib.

Təhlilçilər bildirirlər ki, bu addım Yunanıstanın kredit borclarına görə yaranmış vəziyyəti daha da gərginləşdirə bilər.

Bu arada Aleksis Tsipras barədə şok iddia yayılıb. "The Times" qəzetinin internet səhifəsində yunan baş nazirin həyat yoldaşı Peristera Bazianənın Tsiprası hədələməsi barədə xəbər yayılıb. Bildirilir ki, sosialist ideologiyaya sahib olan Baziana Beynəlxalq Valyuta Fondu (IMF) ilə razılığa gələcəyi təqdirdə baş naziri tərk edəcəyi ilə hədələyib. Gənclik illərində Kommunist Partiyasının üzvü olan Bazianənın radikal kommunist olduğu qeyd edilib.

Xatırladaq ki, cütlüyün 28 ildir birlikdə nikahsız yaşadıqları qeyd olunur. Tsipras və Baziana cütlüyü 1987-ci ildə tanış olublar.

❑ Sevinc TELMANQIZI

# Ekspertdən "İsgəndər" raketləri ilə bağlı həyəcanlı xəbərdarlıq

**Elxan Mehtiyev:** "Əgər bu tipli silahlar ermənilərə verilərsə, Rusiya Ermənistanla eyni səviyyədə Azərbaycanın düşməninə çevriləcək"


Elxan Mehtiyev

**"Rusiyadan Ermənistana uzun mənzilli, o cümlədən "İsgəndər" tipli müasir texnologiya məhsulu sayılan ballistik raketlərin satılması haqqında xəbərlər Azərbaycan üçün şok effekti yaradan məsələ olmalı idi. Ermənistanın bu tipli raket sistemini alması, özəl olaraq Bakını hədəf almağa və Ermənistan prezidenti Serj Sarkisyanın dediyi kimi, "istənilən çiçəklənən şəhəri (indiki halda Bakını) ballistik raketlərimizlə Ağdam kimi xarabaya çevirərik" məqsədinə xidmət edir".**

**Siyasi ekspert Elxan Mehtiyev** bu fikirləri "Yeni Müsavat"a açıqlamasında bildirdi. Analitikin sözlərinə görə, əgər Rusiya həqiqətən bu silahları İrəvana verərsə, o zaman Moskva bilavasitə Bakını və Bakıətrafı hərbi və infrastruktur obyektləri darmadağın etmək üçün bu addımı atmış olur: "Bu da o deməkdir ki, Rusiya Ermənistanla eyni səviyyədə Azərbaycanın düşməninə çevrilir. Həmin silahların Ermənistana verilməsi bir neçə nəticələrə gətirəcək. Bu, ilk növbədə bölgədəki hərbi balansı dramatik dərəcədə ermənilərin xeyrinə dəyişəcək və gedən danışıqlarda Azərbaycanı daha zəif duruma salacaq, Azərbaycanın öz torpaqlarını geri almaq yollarını həmişəlik bağlayacaq. Buradan belə nəticə çıxır ki, əgər Azərbaycan öz işğal olunmuş ərazilərini azad etməyə cəhd göstərərsə,o zaman respublikanın əhalisinin yarısının yerləşdiyi Bakı şəhəri kütləvi qırğına aparan bombardmanlarla üzləşəcək".

**E.Mehtiyevin sözlərinə görə, son 23 ilin təcrübəsi göstərdi ki, ermənilər dinc yolla bu torpaqlardan çıxmaq istəmir və əksinə, bu torpaqları məskunlaşdırmaq və ilhaq etmək siyasəti yürüdürlər:** "Əgər bu tipli silahlar ermənilərə verilərsə, yuxarıda deyildiyi kimi, torpaqların azad edilməsi və ya işğal edilmiş torpaqların ən yaxşı halda bir hissəsinin geri qaytarılması, yumşaq desək, mümkün olmayacaq. Bu cür strateji dəyişiklik Azərbaycanın dövlət kimi mövcudluğunu da ağır təhlükə altına salacaqdır. Yeni silahların yaratdığı yeni situasiyada işğal olunmuş ərazilər artıq Bakının özü ilə fayda-zərər baxımından tərəziyə qoyulacaq. Həm düşmən tərəf, həm vasitəçilər və beynəlxalq birlik Azərbaycan tərəfini bu silahlarla birbaşa və dolayı yollarla şantaj edəcək və Azərbaycan tərəfi də əslinə qalsa, onlardan öncə bu haqda daha çox düşünəcək. Və nəticədə torpaqların azad edilməsi, xalq dili ilə desək, ermənilərin kefinə buraxılacaq. Bu baxımdan, Azərbaycan siyasi rəhbərliyi bu məsələnin Rusiya ilə münasibətləri 180 dərəcə dönüş nöqtəsinə çevirə biləcək məsələ olduğunu Rusiya rəhbərliyinə ciddiyyəti ilə çatdırmalı və onun qarşısını bütün vasitələrlə almalıdır. Bu məsələ Rusiya-Azərbaycan münasibətlərini müəyyən edən 1 nömrəli məsələ olmalıdır. Bu, Azərbaycan dövləti üçün ölüm-dirim məsələsidir".

Məsələ ilə bağlı XİN-in mətbuat katibi Hikmət Hacıyevə müraciət etdik. Nazirlik təmsilçisi bildirdi ki, Rusiyanın Ermənistana 200 milyonluq kredit verməsi ilə bağlı mətbuata verilən açıqlamadan başqa hər hansı münasibət bildirilməyəcək.

"Bizim qəti mövqeyimiz ondan ibarətdir ki, bu qəbildən olan silah-sursat Azərbaycan Respublikasının Ermənistan tərəfindən işğal olunmuş ərazilərində yerləşdirilməməlidir"-deyə, XİN sözçüsü Hikmət Hacıyev silah-sursat alınması və hərbi modernizasiya ilə bağlı Rusiya tərəfindən Ermənistana 200 milyon dollar məbləğində güzəştli kredit ayrılmasına münasibət bildirərkən deyib. H. Hacıyevin sözlərinə görə, hazırda bu məsələ Azərbaycan tərəfindən araşdırılır. "İşğal olunmuş ərazilərdə beynəlxalq hüquqa zidd olaraq, bu kimi silah-sursatın yerləşdirilməsi münaqişənin danışıqlar yolu ilə həllinə ciddi zərər yetirə bilər", - deyə XİN sözçüsü qeyd edib.

**"İskəndər" raketləri ilə bağlı isə XİN-dən hər hansı şərh verilmədi.**

❑ Cavid TURAN

YENİ MÜSAVAT
N 150 (6178) 11 iyul 2015



# Nazirin sükutu və məhv olan ailələr

Elşad PAŞASOY
epashasoy@yahoo.com

**Nəqliyyat naziri Ziya Məmmədovun Xəzər kənarındakı villasını 50 milyon dollara Moskvadakı oliqarxlardan birinə satıb-satmadığı, yaxud niyə satmaq istədiyi ilə işim yox. Mən bu gün hörmətli nazirə üz tutub soruşmaq istəyirəm: axı bu məmləkətin camaatı yazıqdır, ailələr qırılıb-gedir, qəzaların qurbanı olur, bu hadisələrə görə zərrə qədər də olsa, narahatlıq keçirirmi?**

Kimsə deyə bilər ki, yol qəzalarının nəqliyyat nazirinə nə aidiyyəti var? Ancaq var, özü də ciddi şəkildə. Bu ölkədə yol infrastrukturunun qurulmasına cavabdeh həm də bu qurum, onun başında dayanan nazir deyilmi? Yollardakı ağır qəzaların ən birinci səbəbi elə yolların bərbad vəziyyətdə olması, darısqallığıdır.

İnanmayan "Şamaxinka"dan üzü Şəkiyə, Şıx tərəfdən də Masallıya tərəf getsinlər və mənzərəni görsünlər. Şəki tərəfə gedəndə şahid oldum: eni təqribən 10 metr olan yolun hər tərəfindən 2 metr kəsib ortanı asfaltlayıblar. Belə yerdə əlbət ki, qəza, ölüm-itim olar...

Axı bu illər ərzində yol tikintisi üçün milyonlar ayrılıb dövlətin kisəsindən, hanı bəhrəsi? Düzdür, xaricilərə göstərmək üçün abad yollar da tikilib. Ancaq Bakı-Quba yolu kimi böyük paralar xərclənən yollar da var ki, 30 illik tikildiyi halda, heç 3 il duruş gətirə bilmədi. Yolların bərbadlığı həm avtoqəzaların sayını artırdı, həm qurbanların.

İyulun 10-unda yollardan iki qara xəbərlər gəldi. Birincisi daha dəhşətli idi. Tovuz rayonunun Qovlar qəsəbəsində "Mercedes" avtomobili və "Daewoo" markalı sərnişin avtobusu toqquşub. Bir ailənin 4 üzvü (!) ölüb. 1982-ci il təvəllüdlü Nadir Məmmədov, həyat yoldaşı, 1988-ci il təvəllüdlü Nərmin Tanrıverdiyeva, övladları, 10 yaşlı Aslan və 3 yaşlı Əsma. Təsəvvür edirsinizmi, bir gənc ailə artıq həyatda yoxdur. Hələ 10 nəfər də yaralanıb.

Bəli, dünyada belə qəzalar olur. Ancaq bizdə ölüm halları yolların bərbad, sürücülərin naşı olmasından baş verir ki, buna görə də cavabdehlərdən hesab sorulmur. Elə dəhşətli hadisənin baş verdiyi Qovlar kəndində yol çox darısqaldır, orada geniş zolaqlı yol çəkilsəydi, kimlərsə asfaltın pulunu basıb yeməsəydi, o günahsız ailə də məhv olmazdı! Bunu Allah da bağışlamayacaq...

Günün digər hadisəsi metronun "Xalqlar Dostluğu" stansiyasının yaxınlığında olub. 15 saylı xətt marşrutu üzrə hərəkət edən "Daewoo" markalı sərnişin avtobusu idarəetməni itirərək 7 maşını əzib, sonra dayanacağa çırpılıb. İlkin məlumata görə, qəza zamanı 12 nəfər yaralanıb. Hətta 2 nəfərin öldüyü iddiası var. Bu qəzanı törədənsə avtobus sürücüsüdür. Avtobus sürücüləri arasında narkomandan tutmuş dəlixanada yatıb-çıxana qədər bir çoxlarının olması barədə iddiaları da boşuna verməк olmaz. Məgər cavabdeh şəxslər bu faktlardan xəbərsizdir? Görün nə vəziyyətdir ki, hətta seçib ortaya çıxartdıqları, müasir avtobusu etibar etdikləri sürücü də Avropa Oyunlarında xarici idmançıları təkərin altına saldı.

Əslində bu, bir "SOS" siqnalı olmalıydı, hər kəs vəziyyətin ciddiliyini nəzərə alıb avtobus sürücüləri ilə bağlı ciddi hərəkətə keçməliydi. Ancaq kimdir? Avropa Oyunları ərəfəsində yenə nəzarət vardı, dayanacaqda saxlayırdılar, nizam-intizamlı olmağa çalışırdılar. Ancaq indi...

Siqaret yenə damaqda, siqnal səsindən qulaq tutulur, söyüş, qırğın, "avtoşluq", istənilən yerdə saxlamaq, sərnişinlərlə çənə-boğaz, "istəmirsən, düş taksi ilə get", daha nələr...

Başqa bir məqama diqqət çəkək. Avropa Oyunları iki həftədir bitib. Deyilmişdi ki, Fransadan Bakıya gətirilmiş yeni avtobuslar Avropa Oyunlarından sonra xəttə buraxılacaq. "BakuBus"un direktor müavini Vüsal Kərimli bildirmişdi ki, 302 ədəd avtobus ilk olaraq Bakının mərkəzində istifadəyə veriləcək, gələcəkdə sayın artırılması da planlaşdırılır, Fransanın "Sistra" şirkəti ilə birgə iş gedir.

Pilləkənsiz olacaq, dayanacaqlar səsli anonslarla elan ediləcək, salonunda 5, xaricində isə 3 təhlükəsizlik kamerası quraşdırılıb, iqlim-nəzarət və havalandırma sistemi mövcud olan, vahid ödəmə kartları ilə işləyəcək avtobuslar yəni... Görən olubmu? Hətta Avropa Oyunları vaxtı ləğv edilən köhnə marşrutları da bərpa etməyiblər. Camaat istidən boğulur, bir-birinin belində gedib-gəlir az qala. Sürücü-sərnişin müharibəsi də davam edir. Bəs hanı o avtobuslar? Camaata göstərib gerimi qaytardılar? Onda heç olmasa, köhnə avtobusların pəncərələrinin şüşələri sökülsün, camaat nəfəs alsın. İndi söz cənab nazirindir. Bu dəfə də susacaqsa...

# "Generalın oğlu anamı söydü, ölümlə hədələdi"

**İki gün öncə müxtəlif media qurumlarında Müdafiə Nazirliyinin Silahlı Qüvvələri Baş Qərargahının rəisi, general-polkovnik Nəcməddin Sadıqovun oğlunu qayda pozuntusuna görə saxlayan polisin ağır cəzalandırıldığı, işdən qovulduğu barədə məlumat verilmişdi.**

İşdən qovulan yol polisindən şok açıqlama; **Cavanşir Qasımov:** "Nəcməddin Sadıqovun oğlu üstümə hücum çəkdi, məni ölümlə hədələdi, dedi ki, maşınla üstündən keçərəm"



Aznews.az-ın əməkdaşı geniş rezonans doğuran həmin xəbərin qəhrəmanını - yol polisi Cavanşir Lətif oğlu Qasımovu tapa bilib. O, açıqlamasında hadisənin təfərrüatını danışıb, şok faktlar açıqlayıb: "Gecə təxminən 01:00 radələri olardı, Mərdəkan-Buzovna yolunda içkili sürücülərlə bağlı reyd aparırdıq. Gördük ki, bir maşın manevr qaydasını pozdu, üstəlik, işıqlı yolda uzaqvuran işıqdan istifadə edir. Saxlayanda təhlükəsizlik kəmərini də taxmadığını gördüm. Özümü təqdim etdim. Elə sözümü bitirməmiş mənə dedi ki, "nə istəyirsən əəə, nə düşmüsüz yenə yollara?" İş başında olduğumu xatırlatdım və qayda pozan sürücünü saxlamağın vəzifə borcum olduğunu bildirdim. Dedi ki, kəmər taxmamışam, yaxşı eləmişəm, küçük. Mən də ağsaqqal adama qarşı nalayiq sözlər işlətməyin ayıb olduğunu bildirdim. Bundan sonra o, bir az da özündən çıxdı, düşdü maşından, təkrarən məni təhqir etməyə başladı, ailəmi, anamı, atamı söydü. Üstümə hücum çəkdi, hətta məni ölümlə hədələdi, dedi ki, maşınla üstündən keçərəm. Amma yanımdakılar araya girdi, imkan vermədilər... Sonra avtomobilinə minib, sürdü getdi".

**Sabahı günü işə gələn C.Qasımov Bakı Şəhər Baş Polis İdarəsindən onu axtardıqlarını eşidib:** "Sonra rəisimiz mənə dedi ki, sən neyləmisən, onun nömrəsinə baxmırsan ki? Niyə saxlamısan axı onu? Dedim ki, o vətəndaşdır, qayda pozuntusuna yol verib, mən də borcumu yerinə yetirib saxlamışam. Mənim kimi dövlətə, dövlətçiliyə sadiq, işinə məsuliyyətli və vicdanlı polisi işdən çıxardılar. Məcburiyyət qarşısında qalıb təqaüdə çıxdım. Vəzifəli şəxsin oğluyla nə mən bacardım, nə də qanun. Onun atası generaldır, mənim atam isə 2-ci qrup böyük vətən müharibəsi əlili. Mən nə edə bilərəm? Əlacım ona qaldı ki, ərizəmi yazıb təqaüdə çıxım".

Cavanşir Qasımov onu işdən çıxartdıranın Nəcməddin Sadıqovun kiçik oğlu Məmməd Sadıqov olduğunu bildirib. Məmməd Sadıqov Bakı Şəhər Vergilər Departamentinin rəis müavinidir. O, qayda pozuntusunu 10 NP 020 dövlət nömrə nişanlı "Range Rover" markalı maşınla törədib.

Qeyd edək ki, dünən xəbəri yayımlayandan sonra DYP-nin şöbə rəisi, polkovnik Vaqif Əsədov sözügedən polis əməkdaşının işdən çıxarıldığını təsdiqləmişdi, amma o, C.Qasımovun general oğlunu saxladığı üçün deyil, işində nöqsanlara yol verdiyi səbəbindən işindən azad olunduğunu bildirmişdi.

Xatırladaq ki, oxşar hadisə ötən gün Şamaxı rayonunda da baş verib. Məlumata görə, bugünlərdə Şamaxıya gedən Kərəm Həsənovun avtomobili yerli yol polisləri tərəfindən saxlanılıb. Komitə sədrini tanımayan polislər onunla kobud danışıb. Kərəm Həsənov yol polisləri barədə DİN rəhbərliyinə şikayət edib. Bundan sonra Şamaxının yol polis rəisi Mübariz Fətəliyev işdən çıxarılıb.

# Şeyx prezidentə Ramazan əfvi üçün müraciət edəcəkmi?

**On bir ayın sultanı müqəddəs Ramazan ayının başa çatmasına sayılı günlər qalır. Bu ərəfədə ölkədə Ramazan əfvinin veriləbiləcəyi ilə bağlı ümidlər də var və bəzi ekspertlər bunu mümkün sayır. Düzdür, indiyə qədər ölkəmizdə Ramazan əfvi olmayıb və məhbus ailələrinin sevindirilməsi hadisəsi adətən digər bayramlara təsadüf edir.**

**Deputat, hüquq müdafiəçisi Çingiz Qənizadə** də bir müddət öncə Ramazan bayramı münasibətilə gözlənilən Əfv sərəncamı haqqında danışarkən demişdi ki, əfvin olub-olmaması prezident İlham Əliyevin şəxsi sərəncamında olan məsələdir, çünki bu səlahiyyət Azərbaycan Respublikasının Konstitusiyası ilə dövlət başçısına verilib. "Ola bilsin ki, Ramazan ayının başa çatması münasibətilə ölkə rəhbəri tərəfindən də bir əfv sərəncamı verilsin"-deputat bildirmişdi.

Yeri gəlmişkən, müsəlman ölkələrində Ramazan əfvinin verilməsi artıq normaya çevrilib. İki il öncə İranda Ramazan ərəfəsində 11,5 min məhbus əfv olundu. Həmçinin 2013-cü ildə Küveyt əmiri Sabah əs-Sabah onu təhqir etdiyinə görə həbs edilən məhbusları Ramazanın son 10 günlüyü münasibətilə əfv etmişdi. Qeyd edək ki, müqəddəs Ramazan ayının şərəfinə əfv fərmanları bu region üçün ənənə halına çevrilib. 2011-ci ildə isə Türkmənistan prezidenti Qurbanqulu Berdiməhəmmədov Ramazan bayramı ərəfəsində 3 min 700 yüz nəfərdən çox dustağı əfv etmişdi.



Allahşükür Paşazadə

Bəzi müşahidəçilər hesab edir ki, Azərbaycanda bu ənənənin əsasının qoyulması üçün Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyx Hacı Allahşükür Paşazadənin ölkə prezidentinə müraciəti yerinə düşərdi. Hesab olunur ki, əgər Şeyx həzrətləri ölkədə birlik və həmrəyliyin bərqərar olması, xarici düşmənlərə dövlət və millət olaraq mesaj verməyimiz üçün belə bir addımın atılması zərurəti barədə çağırış edərsə, ölkə rəhbərliyi onun mövqeyinə biganə qalmaz. Ən azı ona görə ki, Şeyx Hacı Allahşükür Paşazadənin mövqeyi hakimiyyət tərəfindən də qiymətləndirilir və dini lider kimi sözünün çəkisi var. Qeyd edək ki, hər orucluq ayında Şeyx ölkə prezidentini öz evinə eftar süfrəsinə dəvət edir. Böyük inam var ki, elə gözlənilən növbəti iftar məclisində bir çox digərləri ilə yanaşı, siyasi motivlərlə həbsdə olan şəxslərin də əfvi barədə xahiş edərsə, o zaman prezident onun sözünü eşidə və Ramazan əfvi imzalana bilər.

Şeyxin belə bir istəyinin olub-olmadığını dəqiqləşdirmək üçün Qafqaz Müsəlmanları İdarəsinə müraciət etsək də, zənglərimiz cavabsız qaldı.

❑ **Vüqar MURAD**

# Mərkəzi Bank qərar verdi: faizlər azaldıldı

**Mərkəzi Bankın sədri Elman Rüstəmov bank rəhbərləri ilə görüşüb. "Qafqazinfo" xəbər verir ki, görüşdə bank sektorunun bir sıra aktual məsələləri, o cümlədən maliyyə xidmətlərinə çıxış, faiz dərəcələri və məsuliyyətli kreditləşmə ətraflı müzakirə olunub.**

Bu görüşdən sonra Mərkəzi Bankın İdarə Heyəti iyulun 13-dən uçot dərəcəsinin 3,5 faizdən 3 faizə endirilməsi barədə qərar qəbul edib. Bu barədə virtualaz.org saytına bankdan məlumat verilib.

Məlumatda deyilir ki, Azərbaycan iqtisadiyyatı qlobal iqtisadiyyat və bölgədə baş verən son proseslər fonunda öz dayanıqlığını qoruyur və sabit inkişaf kursunu davam etdirir. Cari ildə iqtisadi tsikldəki yeni meyillərə adekvat olaraq makroiqtisadi siyasətdə həyata keçirilən mühüm təshih tədbirləri milli iqtisadiyyatın dayanıqlığının qorunmasına yönəlib.

Həyata keçirilən məqsədyönlü məzənnə siyasəti iqtisadiyyatın beynəlxalq rəqabət qabiliyyətinin gücləndirilməsinə və tədiyə balansının strateji dayanıqlığına müsbət təsir edib. Eyni zamanda makroiqtisadi sabitlik qorunub, 2015-ci ilin birinci yarısında inflyasiya aşağı təkrəqəmli səviyyədə qalıb. Son 2 ayda valyuta bazarı və manatın məzənnəsi əhəmiyyətli dərəcədə sabitləşib, Mərkəzi Bankın valyuta ehtiyatlarında artım müşahidə olunub.

Azərbaycan Mərkəzi Bankı ölkədə makroiqtisadi sabitliyin qorunması ilə yanaşı, iqtisadi artımın və milli iqtisadiyyatın şaxələnməsi proseslərinin dəstəklənməsi istiqamətində də məqsədyönlü fəaliyyətini davam etdirib. Bu sahədə ən mühüm fəaliyyət istiqamətlərindən biri bank xidmətlərinin ucuzlaşması, xüsusilə faiz dərəcələrinin enməsinin təşviq olunmasıdır.



Elman Rüstəmov

Bununla bağlı son vaxtlar bank sektorunun fəaliyyətinin tənzimlənməsi üzrə həyata keçirilən tədbirlər faizlərin aşağı düşməsinə şərait yaradır. Eyni zamanda inflyasiyanın məqbul səviyyəsini və pul təklifinin dinamikasını nəzərə alaraq pul siyasətinin daha da yumşaldılması imkanları yaranır.

Qeyri-neft sektorunda iqtisadi artıma maliyyə dəstəyini gücləndirmək, kredit faizlərinin enməsini sürətləndirməklə investisiyaları stimullaşdırmaq, kiçik və orta biznesin maliyyələşməsinin və əhalinin ipoteka kreditləşməsinin dəyərinin optimallaşmasına monetar zəmin yaratmaq məqsədilə Mərkəzi Bankın İdarə Heyəti 13 iyul, 2015-ci il tarixindən uçot dərəcəsinin 3,5 faizdən 3 faizə endirilməsi barədə qərar qəbul edib.

Azərbaycan Respublikasının Prezidenti yanında
Kütləvi İnformasiya Vasitələrinin İnkişafına
Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**



YENİ MÜSAVAT
N 150 (6178) 11 iyul 2015




# Qarabağ məsələsi ATƏT-in yeni sənədində - nə dəyişdi?

## Azay Quliyevin müəllifi olduğu qətnamə Ermənistanı qarışdırdı; ATƏT PA-nın yekun bəyannaməsi vasitəçilərin Bakıya sırımaq istədiyi öz müqəddəratını təyinetmə prinsipindən həmişəlik imtina imkanı yaradır, ermənilər narahatdır...

**ATƏT Parlament Assambleyasının (PA) yay sessiyası başa çatdı. Azərbaycan nümayəndə heyətinin də qatıldığı toplantıda yekun bəyannamə qəbul edildi. Bəyannamədə Azərbaycanın xeyrinə olan bir sıra mühüm məqamlar yer alıb.**


Голос Армении
Общественно-политическая газета

Четверг, 09 июля 2015 года

Политика Экономика Мы и мир Общество Право Культура Наука

ЧТО ЗАФИКСИРОВАНО В ХЕЛЬСИНКИ – "БЛЕСТЯЩИЙ ПУНКТ" ИЛИ ПРОВАЛ?

08.07.2015 Марина ГРИГОРЯН просмотры: 360

7 июля на заседании Парламентской ассамблеи ОБСЕ была принята резолюция Общего комитета по политическим вопросам и безопасности "Взывая к духу Хельсинки". Как сообщил руководитель армянской делегации Арташес Гегамян, в документе есть

Məsələn, sənədin 4-cü bəndində deyilir ki, ATƏT regionunda həlli uzanan münaqişələrin sülh və danışıqlar yolu ilə həllinə dair səylər gücləndirilməlidir. Həmçinin orada təhdid və güc tətbiqindən çəkinməyin, ölkələrin beynəlxalq səviyyədə tanınmış sərhədləri çərçivəsində ərazi bütövlüyü və suverenliyinə hörmətlə yanaşmanın, habelə BMT Nizamnaməsi və "Helsinki Yekun Aktı"na hörmət etməyin vacibliyi qeyd olunur: **"ATƏT PA bir daha təsdiqləyir ki, ATƏT regionunda həlli uzanan münaqişələrin yoluna qoyulması, onların müəyyən edilmiş çərçivədə, BMT Nizamnaməsi və "Helsinki Yekun Aktı"na əsasən sülh yolu ilə həlli istiqamətində irəliləyişin əldə olunması təşkilat üçün prioritet olaraq qalır".**

Azərbaycanın xeyrinə olan bu və başqa prinsipial məqamların sənəddə əksini tapması, gözlənildiyi kimi, Ermənistanın ATƏT PA-dakı nümayəndə heyətinin, başda onun rəhbəri Artaşes Geqamyan olmaqla, öz ölkəsində sərt tənqidlərə tuş gəlməsinə səbəb olub. Erməni şərhçilər nümayəndə heyətini bacarıqsızlıqda, davamlı şəkildə məğlubiyyətə uğramaqda, diplomatik savadsızlıqda qınayıblar.

Həmin tənqidi məqalələrdən birində deyilir ki, 7 iyulda qəbul olunan " Helsinki ruhuna çağırış" adlı sənəddə Dağlıq Qarabağ probleminin həlli üçün Ermənistana sərf edən 3 prinsip əks olunsa da *(güc tətbiqindən imtina, ərazi bütövlüyü və xalqların öz müqəddəratını təyin etmək hüququ),* "Təəssüf ki, erməni deputatlar yadlarından çıxarıblar ki, azərbaycanlı deputat, assambleyanın siyasi məsələlər və təhlükəsizlik komitəsinin sədr müavini Azay Quliyevin müəllifi olduğu "ATƏT regionundakı dövlətlərarası münasibətlərdə Helsinki prinsiplərinə sadiqlik" adlı daha bir qətnamə hazırlanıb".

**Erməni analitikin yazısından sitat:** "Bu sənəddə isə xalqların öz müqəddəratının təyinetmə hüququnun dövlətlərin ərazi bütövlüyünün pozulması hesabına və ya suverenliyinin, siyasi müstəqilliyinin əleyhinə olaraq həyata keçirilməsi yolverilməz hesab edilir. Bu isə ATƏT-in ümumi qəbul olunmuş leksikonu ilə Azərbaycan tərəfinin Dağlıq Qarabağ probleminin həllinə yanaşması ilə eynilik təşkil edir. Bu iflasdır".

Məqalədə daha sonra deyilir ki, "Quliyevin qətnaməsi o qədər mükəmməl hazırlanıb ki, tənqidi yanaşmalı, irad bildirilməli yer qalmayıb. Halbuki Ermənistan nümayəndə heyətinin bu qətnaməyə qarşı çıxması üçün yetəri qədər vaxtı olub. Amma bunu bacarmayıblar. Əvəzində Qeqamyan Ermənistanın deyil, Rusiya maraqlarının bariz müdafiəçisi kimi çıxış edir. Düzdür, strateji müttəfiqi müdafiə etmək lazımdır, amma öz dövlətinin maraqları ayaq altına atılandan sonra bu müdafiə gülünc görünür".

Sonra ümumiyyətlə, bütün Ermənistan nümayəndə heyəti top atəşinə tutulur. Bildirilir ki, bütün nümayəndə heyəti bir Azay Quliyevlə bacarmadılar. Siyasi turizmə gedənlər erməni vergi ödəyicilərinin hesabına kef çəkirlər.

Bundan sonra azərbaycanlı deputatın müəllifi olduğu qətnamə bənd-bənd izah edilir və bunun Ermənistanın mövqeyinə ciddi zərbə vurduğu və hətta təhlükə olduğu qeyd edilir. Çünki 19 bənddən ibarət sənəddə doğrudan da Azərbaycan, Gürcüstan, Moldova və Ukraynada mövcud münaqişələrdən ciddi narahatlıq və bu münaqişələrin yalnız beynəlxalq hüququn norma və prinsipləri, xüsusən də həmin dövlətlərin ərazi bütövlüyü, suverenliyi və sərhədlərinin dəyişilməzliyi prinsipləri əsasında həll edilməsinin vacibliyi vurğulanıb.

**Bəyannamənin maddələrində habelə münaqişə tərəflərinin BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələrinin yerinə yetirmələrinin zəruriliyi, Azərbaycan, Gürcüstan, Moldova və Ukraynada münaqişələr nəticəsində məcburi köçkün düşmüş əhalinin öz evlərinə qeyd-şərtsiz qaytarılmasının vacibliyi vurğulanır.** "Hər bir dövlətin sərhədlərinin, ərazi bütövlüyünün toxunulmazlığı və ərazilərin güc yolu ilə qəsb olunmasının qəbuledilməzliyi" qeyd olunur.

Başqa sözlə, xalqların öz müqəddəratının təyinetmə hüququnun dövlətlərin ərazi bütövlüyünün pozulması hesabına və ya suverenliyinin, siyasi müstəqilliyinin əleyhinə olaraq həyata keçirilməsi yolverilməz hesab edilir. Dağlıq Qarabağ probleminin həlli üçün mandat almış yeganə təşkilat kimi ATƏT-in qəbul elədiyi sonuncu sənəd sözsüz ki, Azərbaycan üçün həm də bu xüsusda əhəmiyyət daşıyır.

***

Beləliklə, ATƏT PA-da qəbul edilən yekun sənəddə Azərbaycanın işğal altındakı Dağlıq Qarabağ və ətraf bölgələrlə bağlı əksini tapan məqamlar, problemin həlli ilə ilgili fiksə edilən yeni (əslində əvvəlki) yanaşma tərzi ümumən məqbul sayıla bilər və danışıqlarda əlbəttə ki, rəsmi Bakının manevr imkanlarını artırır. Azərbaycan tərəfi məhz həmin sənədə, xüsusən də "heç bir münaqişə dövlətlərin ərazi bütövlüyü hesabına həll oluna bilməz", "ərazilərin güc yolu ilə qəsbi qəbuledilməzdir" tezisindən indi daha inamlı şəkildə yapışa bilər.

Bu bənd Azərbaycana "Madrid prinsipləri"ndə əksini tapan öz müqəddəratını təyinetmə kimi, ərazi bütövlüyümüzü təhdid edən bir prinsipindən imtina üçün əlavə, ciddi əsas yaradır. Hər halda, Minsk Qrupu ATƏT-in yaratdığı qurumdur və bu qurumun qəbul elədiyi sənədlər yerinə yetirilməsi üçün ondan ötrü məcburidir.

Yada salaq ki, Minsk Qrupunun amerikalı həmsədri Ceyms Uorlikin ötən il konfliktin həlli ilə bağlı irəli sürdüyü 6 bəndlik təklifdə də separatçı qurumun əhalisinə gələcəkdə öz müqəddəratını təyinetmə haqqı tanınmağı nəzərdə tutan, lakin diplomatik ibarələrlə yaxşıca komifulyaj edilmiş incə bir məqam var ki, bu da gec-tez Dağlıq Qarabağın de-yure itirilməsinə gətirə bilər. ATƏT PA-nın yekun sənədi Azərbaycanı bu təhlükədən, faktiki, sığortalayır və onu özündən birdəfəlik uzaqlaşdırmaq, bir daha bu mövzuya qayıdılmaması üçün ciddi israr göstərmək imkanı verir.

Nəhayət, Dağlıq Qarabağ məsələsinin Ukraynadakı, Moldovadakı, Gürcüstandakı separatçı hərəkatlarla bır sırada qoyulması olduqca müsbət haldır və sözsüz ki, Bakının Qarabağ siyasətində manevr imkanlarını da artırır. Eyni zamanda müharibə variantı seçimində ona dünya birliyi tərəfindən daha anlaşılan və haqq qazandırıla biləcək mövqe vəd edir.

# Sterliqovun konfransına qatılacaq jurnalistlər "arzuolunmaz şəxslər" siyahısında

**Lyubov Kazarnovskaya və Qerman Sterliqovun adları Xarici İşlər Nazirliyi (XİN) tərəfindən tərtib olunan arzuolunmaz şəxslər siyahısına daxil edilib. Bu barədə Xarici İşlər Nazirliyinin mətbuat xidmətinin rəhbəri Hikmət Hacıyev məlumat verib (azvision.az).**

O bildirib ki, ziddiyyətli bioqrafiyası olan Qerman Sterliqov Azərbaycanın Ermənistan tərəfindən işğal olunmuş ərazilərinə getməzdən əvvəl işğal olunmuş ərazilərin Ermənistanın bank sistemi ilə əlaqəli şəkildə çirkli pulların yuyulması və digər kriminal fəaliyyətlərin həyata keçirilməsi üçün münbit məkan olduğunu yəqin ki, bilməmiş deyildi: "Etnik və dini əsasda təfriqəçi baxışları ilə fərqlənən Sterliqovun işğal altında olan tarixi Azərbaycan şəhəri olan Şuşada "insani dəyərlər"dən danışması heç bir mənəvi, etik və hüquqi çərçivəyə sığmır. "İnsani dəyərlər"dən danışan şəxs bu ərazilərdən bir milyondan artıq azərbaycanlının faşizm ideologiyasına xas qanlı etnik təmizləmə nəticəsində Ermənistan tərəfindən didərgin salındığını heç olmasa anlamalıdır".

**Bəyanatda daha sonra deyilir:** "Sterliqovun işğal olunmuş ərazilərdə mətbuat konfransı keçirmək barədə təxribatçı açıqlaması bu şəxsin və əlbir olduğu qondarma kriminal rejimin uğursuz "özünüreklam" cəhdindən başqa bir şey deyil. KİV nümayəndələrini bu təxribata uymamaq və işğal olunmuş ərazilərə qanunsuz səfərdən yayınmaq barədə xəbərdar edirik.




KİV nümayəndələrinin qanunsuz şəkildə Azərbaycanın Ermənistan tərəfindən işğal olunmuş ərazilərinə səfərləri Azərbaycan Respublikasının «Dövlət sərhədi haqqında» Qanununun və xarici KİV nümayəndələri üçün nəzərdə tutulmuş akkreditasiya qaydalarının kobud şəkildə pozulmasıdır. Qanunsuz səfər həyata keçirildiyi təqdirdə, bu kimi KİV nümayəndələri "arzuedilməz şəxslər" siyahısına daxil ediləcəklər".

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında. Səhifəni hazırladı: Siyasət şöbəsi

# Masallıda iş adamının 16 yaşlı oğlu öldürüldü



**Masallıda qətl hadisəsi baş verib. Masallı Rayon Prokurorluğundan APA-nın cənub bürosuna verilən məlumata görə, hadisə ötən gecə rayonun Sərçuvar kəndi ərazisində qeydə alınıb. Rayonun Xıl kənd sakini, 1976-cı il təvəllüdlü Rövşən Əhmədağa oğlu Zamanov şəxsi münasibətlər zəminində Sərçuvar kənd sakini, 1999-cu il təvəllüdlü Həmid Bayram oğlu Məmmədovu ürək nahiyəsindən bıçaqlayıb. H. Məmmədov aldığı xəsarətdən yerindəcə dünyasını dəyişib. Qətli törətmiş R. Zamanov rayonun hüquq-mühafizə orqanları əməkdaşlarının həyata keçirdikləri əməliyyat tədbirləri nəticəsində isti izlərlə yaxalanıb.**

Məlumata görə, qətlə yetirilən yeniyetmə Masallıdakı yanacaqdoldurma məntəqəsinin sahibinin oğludur. 1976-cı il təvəllüdlü Rövşən Əhmədağa oğlu Zamanov və bir neçə dostu yanacaq almaq üçün yanacaqdoldurma məntəqəsinə gəlib. Onlar maşına 3 manatlıq yanacaq vurduqdan sonra ödəniş etmək istəməyiblər. Bu zaman məntəqədə işləyən işçi ilə müştərilər arasında mübahisə düşüb. Onlar pulu ödəyərək ərazidən uzaqlaşıblar. Lakin gecə 01:30 radələrində R.Zamanov dostları ilə birgə yenidən məntəqəyə gəlib və əvvəlki mübahisəni həll etməyə çalışıb.

Bu zaman məntəqə müdirinin oğlu Həmid Məmmədov da ərazidə olub. Başlayan mübahisə və dava zamanı Rövşən Zamanov gənci ürəyindən bıçaqlayaraq öldürüb.

Bundan sonra o, hadisə yerindən qaçıb. Lakin uzağa gedə bilməyib. Rövşən səhər saat 10 radələrində Masallı polisi tərəfindən həbs edilib. Digər 3 nəfərin axtarışı isə davam edir. Faktla bağlı Masallı Rayon Prokurorluğunda cinayət işi açılıb, araşdırma aparılır.



## Avtobus dayanacağa çırpıldı; 8 yaralı

**Nizami Rayon Polis İdarəsindən APA-ya verilən məlumata görə, qəza Qara Qarayev prospektində qeydə alınıb. 15 saylı xətt marşrutu üzrə hərəkət edən "Daewoo" markalı sərnişin avtobusu idarəetməni itirərək dayanacağa çırpılıb. İlkin məlumata görə, qəza zamanı 8 nəfər xəsarət alıb.**

## Göyçayda 10 hektar nar bağı yanıb

**Göyçay rayonunun Bığır kəndində (rayon mərkəzindən 17 km aralı) vətəndaşlara məxsus ərazidə 10 ha nar bağı yanıb. FHN-in rəsmi saytında verilən məlumata görə, nar bağının qalan hissəsi yanğından mühafizə olunub. Yanğın yanğınsöndürənlər tərəfindən söndürülüb.**

## Təbrizdə özünə qəsd edən Ədalət Həşimov haqda ilginc faktlar

**Bugünlərdə Təbrizdə özünü asaraq intihar edən azərbaycanlı Ədalət Həşimov haqqında ilginc faktlar üzə çıxıb. "Yeni Müsavat"a daxil olan məlumata görə, Biləsuvar gömrük-keçid məntəqəsində naməlum səbəblərdən mərhumun cənazəsi Azərbaycan tərəfinə buraxılmayıb. Şayiələrə görə, keçmiş polis işçisi Ə.Həşimov Azərbaycanda uzun müddət axtarışda olub.**

Məlumatların doğruluğunu öyrənmək üçün Ə.Həşimovun yaxın qohumu, əmisioğlu Kamil Həşimovla əlaqə saxladıq. Onun sözlərinə görə, mərhum həqiqətən də keçmiş polis əməkdaşı olub: "Ədalət Həşimov Kəlbəcər rayonundan olan məcburi köçkündür. O, 1992-93-cü illərdə polis əməkdaşı işləyib, daha sonra isə ehtiyata buraxılıb.

Ədalət bu yaxınlarda müalicə almaq üçün Təbrizə yollanmışdı. Lakin qısa bir müddətdən sonra onun intihar etdiyi barədə məlumat aldıq. Yığışıb onun cənazəsini gətirməyə getdik. Mərhumu Azərbaycan tərəfinə keçirmək istəyərkən Biləsuvar gömrük-keçid məntəqəsində xeyli gözləməli olduq. Lakin sonda mərhumu vətənə gətirə bildik. Hazırda onun dəfn edilməsi ilə bağlı işlər aparılır".

Kamil Həşimov mərhumun subay olduğunu, bu günəcən evlənmədiyini deyib.

Xatırladaq ki, iyunun 5-də Azərbaycan vətəndaşı, 1969-cu il təvəllüdlü Ədalət Həşimov Təbrizin İmam Xiyabanında yerləşən "Cahannamə" hotelində intihar etmişdi. O, naməlum səbəblərdən hotelin pəncərəsindən özünü asıb.

❑ Xalidə GƏRAY





## Tovuzda dəhşətli qəza; bir ailənin 4 üzvü öldü

**Bakı-Qazax magistral yolunun Tovuz rayonu ərazisindən keçən hissəsində ağır yol-nəqliyyat hadisəsi baş verib. APA-nın qərb bürosunun verdiyi məlumata görə, hadisə dünən səhər saat 08.30 radələrində rayonun Qovlar qəsəbəsi ərazisində qeydə alınıb. Qazaxdan Bakıya sərnişin daşıyan "Daewoo" markalı avtobusla "Mercedes" markalı minik avtomobili toqquşub və 4 nəfər dünyasını dəyişib.**

Lent.az-ın məlumatına görə, "Mercedes" markalı avtomobilin qəzada dünyasını dəyişən sürücüsü Nadir Məmmədovun nənəsi dünən gecə dünyasını dəyişib. Ailə üzvləri yas mərasiminə getmək üçün səhər saatlarında yola çıxıblar. Tovuz rayonu ərazisində isə dəhşətli qəzaya düşüblər.

Qeyd edək ki, Nadir Məmmədov Azərbaycan Silahlı Qüvvələrinin hərbçisi olub.

Xatırladaq ki, qəzada ölənlərin hamısı bir ailənin üzvü olub. Onlar "Mercedes"in sürücüsü, Bakı şəhər sakini, 1982-ci il təvəllüdlü Nadir Məmmədov, onun həyat yoldaşı, 1988-ci il təvəllüdlü Nərmin Tanrıverdiyeva, övladları, 10 yaşlı Aslan və 3 yaşlı Əsmadır.

## Bakı Şəhər İcra Hakimiyyətinin anbarından oğurluq edildi

**Bakıda oğurluq hadisəsi baş verib. "Qafqazinfo" xəbər verir ki, Səbayel Rayon Polis İdarəsindən APA-ya verilən məlumata görə, hadisə Bakı Şəhər İcra Hakimiyyətinə məxsus Abadlıq Xidmətinin anbarında qeydə alınıb. Qeyd edilən anbardan 160 metr elektrik naqili, 2 ədəd iri həcmli çəkic, 8 ədəd laqunda və generator oğurlanıb. Həyata keçirilən əməliyyat-axtarış tədbirləri hadisəni törədən Ağcabədi rayon sakini İlkin Səlim oğlu Salmanov tutulub.**

## Bakıda minik avtomobili avtobusla toqquşub, ölən var

**Bakıda ölümlə nəticələnən yol qəzası baş verib. Bakı Şəhər Dövlət Yol Polisi İdarəsindən APA-ya verilən məlumata görə, qəza Bilgəh qəsəbəsində qeydə alınıb. Gədəbəy rayon sakini, 1978-ci il təvəllüdlü Ramiz İsmayılov idarə etdiyi VAZ 21011 markalı avtomobillə Tovuz rayon sakini, 1982-ci il təvəllüdlü Telman Oruc oğlu Allahverdiyevin idarə etdiyi "Daewoo" markalı, 172 saylı xətt üzrə hərəkət edən sərnişin avtobusu toqquşub. Qəza nəticəsində R. İsmayılov hadisə yerində ölüb.**


## Kişilər!!! Axırıncı şans!!!

**İsrail təbabəti** tətbiq edilir!
Əgər Sizə nə **Azərbaycanda**, nə də **xaricdə heç kim kömək edə bilməyibsə, onda yaxşı insanlara, aşağıdakı xəstəlikləri,** keyfiyyətli, qısa müddətlə və tam müalicəsini
**d-r Vaiz Səmədov apara bilər:**

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları (**kişi tibbi problemlər**)
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi** (***enurez***)
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Yuxusuzluq və yuxu pozuntuları**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi. Sızanaqlar**
* **Yuxuda ikən və yuxudan qalxanda qan təzyiqinin yüksək qalxması**
* **Boyun, baş, bel, ayaq ağrıları və osteoxondroz**
* Onurğa sütununun yırtığı, qulunclarin dərmansız müalicəsi

Həkim qəbulu və həkimə zəng etmək saat 11.00-dan sonra
**Tel: (012) 437-88-05; (050) 213 88-05.**
**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com doktor Vaiz Səmədov.**



**Elan**

**Təcili sərfəli qiymətə 4 otaqlı mənzil satılır.**

**Nərimanov Məhkəməsinin həyətində, Stalin layihəli daş binada 4 otaqlı əla təmirli mənzil satılır. 4/2, ümumi sahəsi 120 kv.m, kupe şkaf, geniş, işıqlı otaqları, döşəmə mozaika parket, mətbəx və digər bütün mebellər, böyük vanna otağı, cakkuzi, sakit, təmiz həyəti, parkovka yeri var. Qiyməti 185 min manat. Bundan əlavə 2 maşınlıq daş qaraj da satışdadır. (36 kv.m. qiyməti-40.000 AZN.) Mənzilin bütün sənədləri qaydasındadır, mebelləri ilə bir yerdə satılır.**

**Tel: (050) 210-50-74**

**Özəl tibb müəssisəsinə 3-5 saata gündə işləmək üçün təqaüddə olan, damara iynə vura bilən tibb bacısı tələb olunur.**

**Tel: (012) 437-88-05 (13:00-dan sonra)**
**(050) 213-88-05 (13:00-dan sonra 17:00-dək)**

**Oğuz rayonunun Calut kəndində "Azpetrol"la üzbəüz dağın ətəyində 4 hektar özəl sahədə yerləşən ferma satılır. İşərisində çoban evi, ofisi, yem dəyirmanı, istirahət guşəsi, daimi işığı və suyu var. Əlavə olaraq 5 hektar özəl torpaq sahəsi və bundan başqa müqavilə ilə 6 hektar biçin sahəsi və 126 hektar otlaq sahəsi var. Bunların hamısı birlikdə 450 min manat.**

**Əlaqə nömrəsi:**
**(055) 206-14-61,**
**(070) 335-90-15,**
**(050) 371-01-60**


**Başsağlığı**

**Müsavat Partiyası Suraxanı rayon təşkilatının üzvləri Mürsəl və Nazim bəylərə əzizləri İbrahimov Ramiz Məhəmməd oğlunun vaxtsız vəfatından kədərləndiklərini bildirir, dərin hüznlə başsağlığı verirlər.**


**Babasil xəstəliyinin ən müasir metodla MÜALİCƏSİ**

*Almaniyanın məşhur "Karl Etorts" firmasının aparatı ilə Moskva şəhəri proktologiya ETM-də xüsusi hazırlıq keçmiş həkim tərəfindən qansız, ağrısız, yataq rejimi gözləmədən - lateks həlqə qoyulması.*

SƏLİMOV FƏRMAN

Tel: (055) 776-70-34

**"Siz təsəvvür edirsinizmi insanlar ucuz qiymətə Gürcüstandan hansı təyyarələrlə uçurlar? Bizim aviasiya şirkətlərinin təqdim etdiyi xidmətləri onlarla müqayisə edə bilmərəm. Bu, reallıqdır. Hər bazarın öz qiyməti və xidmət səviyyəsi var. Əlbəttə, mən də arzu edərdim ki, aviabiletlərin qiymətləri daha ucuz olsun. Mənim ailəm də, dostlarım da xaricə uçurlar. Amma qiymətləri bazar tənzimləyir".**

# Nazir də bilet qiymətlərindən narazıdırsa...

## Əbülfəz Qarayev "qiymətləri bazar tənzimləyir" deyir, faktlar isə...

APA-nın məlumatına görə, bu sözləri Azərbaycanın mədəniyyət və turizm naziri **Əbülfəs Qarayev** deyib.

Nazir Azərbaycandan başqa ölkələrə çarter uçuşlarının da təşkil olunduğunu söyləyib: "Məsələn, yay mövsümündə Monteneqro və Macarıstana reyslər təşkil edilir. Çarter reyslərinin qiyməti daha ucuzdur, nəinki standart qiymətlər. Yəqin ki, Gürcüstan və Rusiyada da ucuz paket təklif edən uçuşlar var. Aviaşirkətlərin rəqəmləri müəyyən xərclərin üzərində qurulur. Azərbaycan aviasiya şirkəti regionda aparıcı şirkətdir. Onun xərclədiyi vəsait insanlar tərəfindən kompensasiya olunmalıdır. Azərbaycanda da turizm və aviasiya şirkətləri birgə çarter uçuşları təşkil etməyi nəzərdə tuturlar. Həmin uçuşlarda qiymətlər daha ucuz olacaq".

Azərbaycanda aviabilet qiymətlərinin havada "uçması" ilə bağlı "Yeni Müsavat" dəfələrlə yazıb. Son olaraq Novruz bayramı ərəfəsində bu astronomik qiymətlər vətəndaşların diqqətini çəkdi. Çünki müqayisəli təhlil göstərdi ki, AZAL-ın monopolistliyi bu sahədə ciddi problemlərin yaranmasına səbəb olur.

Novruz bayramı ərəfəsində Bakı-İstanbul-Bakı reysi 600 avro olur. Təxminən eyni məsafə olan Tiflis-İstanbul-Tiflis isə 200 avrodur. Bakıdan Kiyevə uçan reyslərdə qiymətlər 450-600 avro olur. Ukrayna Hava Yollarının eyni məsafədə olan digər ölkələrə uçuş qiyməti 200 avro civarındadır.

**Hərçənd ki, bu narazılıqlarla bağlı AZAL mövqeyini açıqlayıb. Qurumdan bildirilib ki, şirkət birmənalı şəkildə qiymət artımına yol verməyib. Şirkət rəsmisi eyni zamanda xarici aviaşirkətlərin eyni istiqamətli uçuşlarının daha ucuz olması iddialarını da təkzib edib. Açıqlamaya diqqət:** "Türkiyə Hava Yolları da eyni qiymətə uçur, biz də eyni qiymətə uçuruq. Necə onlar bizdən ucuz ola bilər? "British Airways" aviaşirkəti də Londona eyni qiymətə uçur, biz də eyni qiymətə uçuruq. Deyirsiniz ki, vətəndaşlar Gürcüstan üzərindən uçmağa üstünlük verirlər. Ancaq bizim təyyarələr onlardan keyfiyyətlidir, komfortludur, servisimiz yüksəkdir, uçuşlarımız təhlükəsizdir. Həmin şirkətlər bir vafli, bir də limonad verirlər, biz isə xüsusi yeməklər veririk. "Air Baltik" aviaşirkəti daha ucuz qiymətə uçur, digər şirkətlər isə ondan iki dəfə baha uçur. Ancaq ucuz uçan şirkətlərdə bir stəkan suyu belə pulla verirlər. Bizdə isə istənilən içki servis olunur. Qiymət fərqi xidmətin keyfiyyətinə görədir, bizim bütün təyyarələrimiz hamısı təzədir".



İqtisadçı ekspertlərin analizlərində isə qeyd olunur ki, biletlərin qiymətinin baha olması AZAL-ın bazardakı monopolist mövqeyindən qaynaqlanır. Belə ki, hava yolları vasitəsilə sərnişin daşınması ilə məşğul olan "Turan Air" şirkəti 2013-cü ildə fəaliyyətini dayandırıb. Hava nəqliyyatı ilə sərnişin daşınmasında özəl sektoru bir şirkət - "Silk Way Business Aviation" MMC təmsil edir. Bu şirkətin bazarda payı çox cüzidir - sərnişin daşımalarının 0,4 faizi özəl şirkətlərin payına düşüb. Daşımaların 99,6 faizini AZAL həyata keçirir və beynəlxalq hava yollarına görə tarifləri də özü müəyyənləşdirir. Bu tariflərin isə heç bir iqtisadi əsaslandırması yoxdur. Ekspertlər bildirir ki, Azərbaycanda təyyarə benzininin qiyməti də aşağı olduğundan bu qiymətlərin nəyə əsaslandığı sirdir.

Buna baxmayaraq, şirkət monopolist mövqeyindən istifadə edərək tarifləri orta statistik azərbaycanlılar üçün əlçatmaz edib. Avropada, elə Türkiyədə bir çox başqa - birbaşa və dolayı sistemlər fəaliyyət göstərir ki, insanlar daha asan və daha ucuz biletlər tapa bilsinlər. Məsələn, təyyarələrin dolma nisbəti 60 faizə qədərdirsə, uçuşa 6-7 saat qalmış qiymətlərdə kəskin endirimlərə gedirlər. Saytlar vasitəsilə onlayn-bilet almaq mümkün olur. Azərbaycanda bu yoxdur. Azərbaycanda standart, qaldırılmış qiymətlər var.

Daha bir fakt. Məhz yuxarıda yazdığımız monopoliyanın təsirindən Gəncədən İstanbula uçuş həyata keçirən "OnurAir" şirkəti Bakıya buraxılmır. "OnurAir"in saytında Gəncədən İstanbula tək gedişli biletin qiyməti 79 avro olaraq göstərilib. Daha bir təklif isə aviauçuşların qiymətinin Tarif Şurası tərəfindən tənzimlənməsidir. Bu şirkət təbii inhisarlar kateqoriyasına daxildir. Ancaq Tarif Şurası yalnız daxili uçuşların tənzimlənməsini öz üzərinə götürüb. Bu halda AZAL-ın mövsümi amillərlə bağlı qiymətləri qaldırması hallarına son qoya bilər. Əslində xarici təcrübədə mövsümlərdə qiymətlərin ucuzlaşması tendensiyası var. Çünki mövsümlərdə sərnişin daşınması kəskin artır. Bu, aviaşirkətlərin gəlirlərinin kəskin artımı deməkdir.

❑ **Sevinc TELMANQIZI**

# Fərid Hüseyn işdən çıxarılıb, ya özü çıxıb?

## Tərcümə Mərkəzinin mətbuat müşavirinin Anarla bağlı yazılarına görə cəzalandırıldığı deyilir; **Fərid Hüseyn:** "Mətbuatdan xahiş edirəm ki, onları deyə bilmədikləri məsələlərə görə açıqlamalarla sıxışdırmasınlar..."

**Nazirlər Kabineti Yanında Tərcümə Mərkəzinin direktoru Afaq Məsudla kollektiv arasında yenidən qalmaqal yaşanıb. AzNews.az xəbər verir ki, A.Məsud daha bir neçə əməkdaşı işdən uzaqlaşdırıb. Onların arasında mətbuat və nəşr məsələləri üzrə müşaviri, şair Fərid Hüseynin də adı var.**

Fərid Hüseyn sayta açıqlamasında məlumatı təsdiq edib: "Mən daha orada işləmirəm. Bir müddət öncə Tərcümə Mərkəzindən çıxmışam". Ancaq o, işdən çıxarılmasının səbəbi barədə heç nə deməyib. Saytın əldə etdiyi məlumata görə, onun işdən çıxarılmasının səbəbi yazdığı yazılar və verdiyi açıqlamalar olub: "Bu narazılığın həddi isə onun bir neçə gün öncə qafqazinfo saytının rəhbəri Elbrus Ərudun "Anne-annem" kitabı haqda yazısı və lent.az-a verdiyi müsahibəsində AYB sədri Anarla bağlı müsbət fikirlərindən sonra olub".

**Mərkəzdən əlavə ediblər ki, onların xoşları gəlməyən insanları tərifləmək prinsiplərinə ziddir:** "Ona qəti şəkildə tapşırılıb ki, bundan sonra verdiyi açıqlamaları və yazdığı yazıları mərkəzlə mütləq razılaşdırmalıdır. Bununla razılaşmayan Fərid Hüseyn isə ərizə yazaraq tutduğu vəzifədən istefa verib".

Qeyd edək ki, Fərid Hüseynin yerinə Günel Şamilqızının təyin edildiyi deyilir.

Qafqazinfo xəbər verir ki, baş verən hadisə həm də Tərcümə Mərkəzindəki anormal mühiti üzə çıxarıb. Adətən işçilərə nəzarət və onların fəaliyyətinə senzuranın tətbiq olunması qeyri-yaradıcı sahələrdə baş verir, ədəbiyyat və mədəniyyətlə bağlı sahələr isə daha çox sərbəstliyi ilə seçilir. Belə görünür ki, Afaq Məsud və onun komandası işdə diktatura mühiti yaratmaqla ədəbiyyata öz dəst-xətlərini gətirmək istəyirlər. Çünki bu başqa cür, yəni yaradıcılıqla alınmır...



Fərid Hüseyn

Sayt həmçinin yazıb ki, Tərcümə Mərkəzinin Aparat rəhbəri, məşhur şair Ramiz Rövşənin qardaşı Yaşar Əliyev Fərid Hüseyni yanına çağıraraq Afaq Məsudun qərarını açıqlayıb və bildirib ki, onların düşmənləri haqda yazı yazılmamalıdır, əgər mərkəzdə işləmək istəyirsə, bundan sonra bütün yazılarda onlarla razılaşmalıdır. Fərid Hüseyn isə qoyulan şərtlə razılaşmayıb.

Xatırladaq ki, Tərcümə Mərkəzi bir müddət əvvəl də qalmaqalla gündəmə gəlmişdi. Belə ki, mərkəzin həftəlik mətbu orqanı olan "Aydın yol" qəzetinin baş redaktoru Fəxri Uğurlu ərizə verib işdən ayrılmışdı. Onunla bərabər qəzetin bir qrup əməkdaşı da istefa vermişdi.

**Mərkəzin aparat rəhbəri Yaşar Əliyev məlumatı təsdiqləyib. O, senet.az-a açıqlamasında Fərid Hüseynin işdən çıxma səbəbi ilə bağlı yayılan məlumatları cəfəngiyyat adlandırıb:** "Fərid Hüseyn ərizə yazaraq işdən çıxıb. Saytlar yazır ki, guya onu yazılarına görə işdən çıxartmışıq. Bütün bunlar cəfəngiyyatdır. Saytlar qalmaqal yaradıb, reytinq qazanmaq istəyirlər. Özü də deyirlər ki, bir neçə nəfər işdən çıxıb. Bu məlumat da doğru deyil. Yalnız Fərid Hüseyn öz ərizəsi ilə gedib. Digər işçilərimiz yerindədirlər. Guya deyirlər ki, Fərid Hüseyni Anar müəllim haqqında yazdığı yazıya görə çıxartmışıq. Bu, doğru deyil. Bizim rəsmi mətbu orqanımız olan "Aydın yol" qəzetində dəfələrlə Anar müəllim, böyük şairimiz Rəsul Rza və Nigar Rəfibəyli haqqında mükəmməl yazılar gedib".

**Yaşar Əliyev Fərid Hüseynin işinin öhdəsindən gələ bilmədiyini deyib:** "Fərid Hüseyn işinin öhdəsindən gələ bilmirdi. Dəfələrlə bununla bağlı ona rəhbərlik tərəfindən irad tutulmuşdu. O özü də bu iradlarla razılaşdı, işini tam yerinə yetirə bilmədiyi üçün ərizəsini yazaraq işdən çıxdı".

**"Yazarın işdən çıxarılması onun hüquqlarının pozulması deməkdir". Bunu isə aznews.az-a Azərbaycan Yazıçılar Birliyinin katibi, xalq şairi Fikrət Qoca Fərid Hüseynin yazısına görə işdən uzaqlaşdırılmasına münasibət bildirərkən deyib. Onun sözlərinə görə, şair, yazıçı azad insandır:** "Onun yazdığı və digər mətbuat orqanında çap etdirdiyi hər hansı yazı kiminsə xoşuna gəlməyə bilər. Sözə görə insanı işdən çıxarmazlar".

**Xalq şairi hesab edir ki, əgər bir adam işini bacarmırsa, öhdəsindən gəlmirsə, bu, başqa məsələnin mövzusudur:** "Amma Fərid bu günə kimi o təşkilatda işləyibsə, deməli, bacarıqlıdır. Bu, despotluqdur".

**F.Hüseyn isə "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, işdən öz ərizəsi ilə çıxıb. Buna səbəb isə daha orada işləməyin mümkünsüzlüyü olub:** "Ora mənim iş yerim olub, hər kəsə hörmətimi saxlayıram, onlara da, mənə də uğurlar".

**F.Hüseyn dedi ki, işdən ayrılma səbəbi mərkəzin açıqlanmasında deyildiyi kimi, "bacarıqsızlıq" olmayıb:** "Ancaq onları da başa düşürəm, qəti incimirəm, həqiqəti deyə bilmirlər. Mətbuatdan da xahiş edirəm ki, onları deyə bilmədikləri məsələlərə görə açıqlamalarla sıxışdırmasınlar. Bu məsələlərin çox şişirdilməsinin tərəfdarı deyiləm. Hamı işdən çıxa bilər. Olan olub... Keçmiş iş yeri, gözəl və maraqlı günlərin yaşandığı bir məkan, bəzi doğma insanların əhatəsi kimi, öz xatirələrimə və o xatirələrin içindəkilərə hörmətimə həmişə sadiq qalmağa çalışacağam. Əsas odur ki, harda nə yazmağımdan asılı olmayaraq qəlbimin əleyhinə getməmişəm. Təkrar deyirəm: onlara da, mənə də uğurlar".

❑ **Sevinc TELMANQIZI**

YENİ MÜSAVAT

Son səhifə

N 150 (6178) 11 iyul 2015

# Fransa polislərinin saqqal saxlamasına icazə verildi

Fransada Polislərin Həmkarlar İttifaqı polisin saqqal saxlaması və tatuirovka vurdurması ilə bağlı icazəyə nail olub. Bu barədə lenta.ru saytı xəbər verib. "The Local"a istinadən yayılan xəbərdə bildirilib ki, sözügedən mövzu ilə bağlı müzakirələr iki ilə yaxın davam edib. Daha öncə polisin xarici görünüşü ilə bağlı məsələ 1974-cü ildə qəbul olunmuş qaydalara əsasən tənzimlənirdi. Belə ki, polisin saqqal uzatması üçün tibbi arayış gətirməsi lazım idi. Həmin arayışda bu məsələ həkimlər tərəfindən ciddi şəkildə əsaslandırılmalı idi.



"Əgər biz polislərin xalqa yaxın olmasını istəyiriksə, o zaman 1974-cü ildə qəbul edilmiş qaydaları dəyişməli, yeniləməliyik". Bunu da Həmkarlar İttifaqının sədri İv Lefevre deyib. Amma qaydalarda qeyd edilib ki, saqqal səliqəli və baxımlı olmalı, hansısa sursatın daşınmasına maneçilik törətməməlidir. Bundan başqa, irqçi, siyasi, dini, ksenofob xarakterli tatuirovkaların vurdurulması da qadağandır.



## 1.2 milyon yapon gənci otağından bayıra çıxmır

Yaponiyada son illərdə minlərlə evdən çıxmayan gənc peyda olub. Onlar "hikikomori" adlanırlar. Özünü cəmiyyətdən ayıran uşaqlara belə ad qoyulub. Hikikomori yaponların həyatdan əlini, ətəyini çəkib, otaqlarından belə çıxmaqdan imtina edən 1.2 milyon yapon gəncinin durumuna verdiyi addır. Onlar ya evin hamamında, ya mətbəxində, ya da hər hansı bir otağında yaşayır, ordan bayıra çıxmırlar. Amma bu açıqlanan rəqəm də dəqiq deyil. Çünki hikkomarilər evlərində gizləndikləri üçün dəqiq bir rəqəm söyləmək mümkün deyil. Bu, hər nə qədər texnikanın yaratdığı bir xəstəlik kimi qiymətləndirilsə də, onun mərkəzində başqa səbəblər dayanır. Əsasən orta təbəqəli ailələrin oğlan uşaqlarında meydana gələn bu halı bəsit bir tənbəllik adlandırmaq olmaz. Uşaqların intiharı, ya da məktəbə getmək istəməyib, evə qapanmasına, təhsil sistemindəki imtahan çoxluğu, ağır rəqabət və ailələrin dərslərlə bağlı onlara təzyiqini səbəb kimi göstərirlər. Gənclər texnika ilə maraqlanaraq, özünü sosial çevrəyə kilidləyir. Kompüter ekranı ilə virtual dünyada özünə ünsiyyət qurur. Bu əlaqə elə bir səviyyəyə çatır ki, artıq insan bütün ehtiyaclarını öz otağında qarşılayır. Yeməyini ailəsi ilə yemir, otağında həm yeyir, həm yatır, həm də kompüterindən ayrılmır. Hətta xəstəlik o qədər ciddi səviyyəyə çatır ki, gənc ayaqyolu ehtiyacını belə öz otağında qarşılayır.

# Turistlər pul verir, suriyalı uşaqlar dənizə hoppanır

Türkiyədən maraqlı kadrlarla ayrılmaq istəyən xarici turistlər suriyalı uşaqlardan pul qarşılığında dənizə hoppanmalarını təklif edirlər. Təbii ki, bu zaman da maraqlı kadrlar çəkirlər. Ercun Ömər, Məhəmməd Əli və Abdulla Hüseyn Suriyadakı müharibədən qaçaraq Türkiyəyə sığınan üç ailənin onlarla uşağından, sadəcə, üçüdür. 14, 11 və 13 yaşlarında olan üç uşağı digər suriyalı uşaqlardan ayıran özəllikləri isə şəkil çəkmək istəyən xarici turistlər üçün modellik etmələridir. Turistlər bu üç uşaqdan, Qalata Körpüsü başda olmaqla müxtəlif sahillərdən dənizə hoppanmalarını tələb edirlər. Dəniz nəqliyyatı, baryerlər və qayalıqlar kimi təhlükələrə fikir vermədən özlərini suya atan suriyalı uşaqlar gün ərzində 5-15 manat qazanırlar. Ətrafdakı insanlar isə uşaqların bu cür istismarından narahat olsalar da, işin sonunda pul qazandıqları üçün uşaqlar bu vəziyyətdən olduqca razı görünürlər. Uşaqlar bu pulları daha sonra ev kirayəsi və yemək üçün istifadə edirlər.





## Aldığı taburetka sındı, firmadan 350 min dollar tələb edir

Yaponiyada bir restoran sahibi iri mebel firması olan İKEA-nı məhkəməyə verib. İddiaya səbəb firmadan alınan taburetkanın sınması olub. Son nəticədə isə həmin taburetkada oturan Osak şəhər sakininin barmağı sınıb. Restoran mebel firmasından 350 min dollar maddi təzminat tələb edib. 43 yaşlı restoran sahibi deyib ki, sözügedən firmadan 24 ədəd, hündürlüyü vint vasitəsilə tənzimlənən bar taburetkası alıb. Alınandan bir neçə gün sonra yaponiyalı bu stulları yoxlamaq istəyəndə isə məlum olub ki, oturan kimi o taburetkalar qəfildən 10 santimetr aşağı düşür. Restoran sahibi müvazinətini itirərək qəfil yerə yıxılıb və sağ əlinin böyük barmağını yaralayıb. Restoran sahibi hazırda həmin barmağını tərpədə bilmir. Firma isə iddia edir ki, taburetkanın üstündə 100 kilodan ağır adamlar otura bilməz və restoran sahibi ağır adam olub. Amma fakt restoran sahibinin 98 kilo çəkisinin olmasıdır.




**QOÇ** - Yalnız saat 12-14 arası gərgin keçə bilər. Qalan saatlarda iştirakçısı olduğunuz bütün proseslər zövqünüzlə vəhdət təşkil edəcək. Axşama yaxın sevindirici xəbərlər eşidəcəksiniz.

**BUĞA** - Bir neçə amillə rastlaşacaqsınız ki, bu da saat 15-ə qədər ovqatınızda mənfi çalarlar yaradacaq. Odur ki, maksimal səbr nümayiş etdirməlisiniz. Bu gün çox pul xərcləməyin.

**ƏKİZLƏR** - Fəaliyyət sahəsində müəyyən irəliləyişlərə nail olmaq üçün ulduzlar sizə şans yaradacaq. İkitərəfli sövdələşmələrin uğurlu olacağını nəzərə alıb aktivliyinizi artırın.

**XƏRÇƏNG** - Maraqlı hadisələrin iştirakçısı olacaqsınız. Bu enerjini xeyirxah işlərə yönəltməyə çalışın. Çünki indi savab qazanmaq qarşınızda bağlı qalan qapıların açılmasına zəmin yaradacaq.

**ŞİR** - Sizə qarşı qərəzli çıxışlar gözlənilir. Əgər bədxah adamlarla baş-başa gəlmək arzusunda deyilsinizsə, onda belələrindən vaxtında uzaqlaşın. İmkan olsa, nahardan sonra uzaq səfərə çıxın.

**QIZ** - Göy qübbəsi şəxsi işlərinizdə böyük dönüş yaranacağından xəbər verir. Perspektivlərinizi reallaşdırmağa can atın. Yalançı həmkarlarınızdan uzaqlaşmağa çalışın.

**TƏRƏZİ** - Günün əsas hissəsini maraqlı tərzdə başa vuracaqsınız. Amma yaxşı olar ki, nahardan sonra işə ara verib bir qədər istirahətə aludə olasınız. Spirtli içkidən, duzlu qidadan uzaq olun.

**ƏQRƏB** - Neçə müddətdən bəri ləng inkişaf edən maliyyə işləriniz bu gündən başlayaraq qaydasına düşəcək. Bu istiqamətdə sizə kənardan da dəstək olacaq. Axşam qonaq getməyə dəyər.

**OXATAN** - Təəssüf ki, bu təqvim bürcünüz üçün hansısa uğur vəd etmir. Bu səbəbdən də əsas diqqətinizi səhhət və mənzillə bağlı problemlərin həllinə yönəltməlisiniz. Qeybət və yalandan uzaq olun.

**OĞLAQ** - Saat 13-ə qədər vaxtınızı qalmaqalsız başa vura bilsəniz, sonrakı müddətdə hər hansı probleminiz olmayacaq. Şəxsi büdcənizi artırmaq üçün münbit şəraitdən bəhrələnin.

**SUTÖKƏN** - Maliyyə məsələlərində çətinliyiniz olsa da, qarşılıqlı münasibətlər zəminində işləriniz qaydasında gedəcək. Ailə-sevgi münasibətləri isə daha romantik müstəviyə keçəcək.

**BALIQLAR** - Ulduzlar yeni və sevindirici hadisələrin iştirakçısına çevriləcəyinizdən xəbər verir. Bu siyahıya işgüzar əlaqələr və tanışlıqlar da aiddir. Amma riskdən uzaq olmalısınız.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## Google-dən unudulmalarını xahiş edirlər



Google şirkətinin "unudulma haqqı"ndan istifadə etmək istəyən on minlərlə vətəndaş şirkətə müraciət edib. Son olaraq müraciət edənlərin sayı 145 min nəfərdir. "Unudulma haqqı" əslində insanların google nəticələrindən adlarının silinməsi tələbini ehtiva edir. Google bu günə qədər daxil olan tələblərin 41.8 faizini həyata keçirib. Müraciət edənlərin ümumi statistikası göstərir ki, bu sahədə Fransa birinci yerdədir (29 min 10 nəfər). İkinci sırada 25 min 78 tələblə Almaniya dayanır. "Unudulma haqqı"nın detallarına gəlincə, insanlar özləri barədə məlumatları ancaq google-nin axtarış nəticələrindən sildirə bilirlər, ümumən həmin səhifələri sildirə bilmirlər. Türkiyə və Azərbaycan Avropa Birliyi üzvü olmadığı üçün bu xidmətdən faydalana bilməz.

Səhifəni hazırladı: SELCAN

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Elşad MƏMMƏDLİ

Lisenziya N: B 114
SAYI: 5.300

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.